Eldəniz Məmmədov
tarix üzrə fəlsəfə doktoru

TÜRK DÜNYASININ GÖRKƏMLÍ ŞƏXSÍYYƏTLƏRÍ

(Universitetlərin humanitar fakültələrinin müəllim və tələbələri üçün metodik vəsait)

Azərbaycan Respublikası Təhsil Nazirliyinin EMŞ-nın «Tarix bölməsi» nin 07.07.2010-cu il tarixli 3 saylı protokolu və Azərbayjan respublikasının təhsil nazirinin 11.08.2010-ju il tarixli 1135 saylı əmri ilə təsdiq olunmuşdur.

Bakı – MÜTƏRCİM – 2010

Elmi redaktor: **Q. Bəşirov**,
tarix üzrə fəlsəfə doktoru

Rəyçilər: **M.İ.Əmrahov,**
tarix elmləri doktoru, professor
Q.Hacıyev,
tarix elmləri doktoru
B.Məmmədli,
tarix üzrə fəlsəfə doktoru,
N.Əsədov,
tarix üzrə fəlsəfə doktoru, dosent

Məmmədov E.Ə. TÜRK DÜNYASININ GÖRKƏMLİ ŞƏXSİYYƏTLƏRİ. – Bakı: Mütərcim, 2010, 148 s.

Vəsaitdə orta əsrlərin görkəmli maarif və elm xadimləri əl-Fərabinin, əl-Biruninin, türk dünyasının görkəmli dövlət xadimi və hərb sərkərdəsi Əmir Teymurun, böyük alim Uluqbəyin, habelə XIX əsrin görkəmli şərqşünası Çokan Vəlixanovun həyat və yaradıcılığı işıqlandırılmışdır.

Vəsait universitetlərin humanitar fakültələrinin müəllim və tələbələri üçün nəzərdə tutulmuşdur. Vəsaitdən magistrlər, türk dünyası tarixi ilə maraqlananlar faydalana bilərlər.

M $\frac{4306010000}{026}$ 75-10

© E.Ə.Məmmədov, 2010

ÖN SÖZ

Dünya elm və mədəniyyət tarixinə görkəmli sərkərdələr, hökmdarlar və dövlət başçıları vermiş türk əsilli tarixi şəxsiyyətlərinin həyatı və yaradıcılığı kifayət qədər öyrənilməyib. Bəşər mədəniyyəti və milli dövlətçilik tarixində mühüm rol oynamış türk xalqlarının böyük tarixi şəxsiyyətlərinin: görkəmli türk alimlərinin, dövlət və siyasi xadimlərinin, sərkərdələrinin qazandığı nailiyyətləri və uğurları məkrli üsul və yollarla azaldaraq onların fəaliyyətini və tarixi xidmətlərini ört-basdır etməyə, kiçiltməyə, hətta ləkələməyə çalışan Qərb dünyası Avropada xaç müharibələri dövründən (1096 -1270) başlayaraq yaşadığımız müasir dövrədək çox müxtəlif üsullarla Avropa türk dünyası xalqlarına və dövlətlərinə qarşı məkrli münasibət bəsləmiş, onların Qərb dövlətlərindən asıllılığını saxlamaq üçün hər cür vasitələrə əl atmışlar. Min ilə yaxın Şərq xalqlarını yoxsulluq girdabına salan Qərb dövlətləri türk xalqlarını ələbaxan vəziyyətdə qoyaraq özlərinin dünya tarixində «mədəniləşdirici rol oynadıqlarını əsaslandırmağa» cəhd göstərmişlər. Qərb siyasətçiləri bu gün də həmin xətti davam etdirərək vaxtilə müasir sivilizasiyanın bünövrəsini qoymuş Şərq xalqlarının yaratdıqları ümumbəşəri nailiyyətləri öz adlarına çıxarmağa səy göstərirlər.

«Dünya sivilizasiyasının beşiyi hesab olunan» Avropa xalqları intibah dövrünü XVI-XVIII əsrlərdə keçirdiyi halda, Şərq xalqları, o cümlədən türklər bu tarixi oyanışı onlardan 8-9 əsr əvvəl başlamış və bu gün hamı tərəfindən tanınan və qəbul olunan, Uzaq Mancuriyadan başlayaraq Avropanın mədəni mərkəzlərindən hesab olunan Parisə qədər uzun və şərəfli yol keçmiş böyük Attilla, Çingiz xan, Batı xan, Əmir Teymur, İldırım Bəyazid, Sultan Mehmet, Sultan Səlim, Şah İsmayıl, Şah Abbas, Nadir şah kimi şəxsiyyətlər bəxş etmişdir.

Türk dövlət başçılarını və sərkərdələrini işğalçı, fateh adlandıran qərbin qərəzli tədqiqatçıları Qərb dövlətlərinin Şərqə basqınlarını ört-basdır etmək üçün adları qeyd olunan türk sərkərdələrini soyğunçü kimi damğalamış, özləri isə dini pərdə altında Şərqin işğalını qarşılarına məqsəd qoymuşlar. Lakin zaman keçdikcə ədalət öz yerini tapmış, Qərb siyasətinin iç üzü açılmış, türk xalqlarının, onların tarixi şəxsiyyətlərinin həyat və fəaliyyəti yenidən işlənmiş və nə qədər təəccüblü görünsə də, bu səhvi qərb tədqiqatçıları da etiraf etməli olmuşlar.

Əlbəttə, türk xalqları tarixinin araşdırıcılarının, o cümlədən bu vəsaitin müəllifinin məqsədi Qərbi Avropa və Amerikanı Şərqə: türklərin yaşadığı ölkələrə qarşı qoymaq, milli ədavət və düşmənçiliyi qızışdırmaq, türkləri – müsəlmanları Qərb xristian dünyası ilə müqayisə etmək, hansının üstün olub-olmadığını açıb göstərmək deyildir. Çünki bu obyektiv həqiqəti tarix özü çoxdan həll edib və qiymətini verib. Bunun əyani sübutu isə Qərb-Şərq tədqiqatçılarının, bir sözlə dünya alimlərinin əl-Fərabi, əl-Biruni, Əmir Teymur, Məhəmməd Uluqbəy, Çokan Vəlixanov və onlarla, yüzlərlə türk alimləri, dövlət xadimləri haqqında yazdıqları sanballı elmi tədqiqat əsərləri, tarixi sənədlər və ilk mənbələrdir. Müəllifin məramı sovetlər birliyi dönəmində, habelə qərbdə görkəmli türk alimləri, dövlət başçıları və sərkərdələri barədə nəşr olunmuş əsərlərə istinad edərək türk dünyasının görkəmli şəxsiyyətləri ilə Azərbaycan və türk dünyası oxucularını tanış etməkdir.

Ümidvarıq ki, oxucular, xüsusilə tələbələr bu kitabla yaxından tanış olacaq, rəy, təklif və iradlarını, arzu və istəklərini bildirəcəklər. Onlara əvvəlcədən təşəkkürümüzü bidiririk.

M.İ.Əmrahov,
tarix elmləri doktoru, professor

BİRİNCİ FƏSİL

ƏBU-NƏSR ƏL-FƏRABİNİN (873-950) İCTİMAİ-SİYASİ VƏ TARİXİ GÖRÜŞLƏRİ

1.1. Əl-Fərabi irsnin tədqiqi tarixindən

Fərabi zəngin yaradıcılıq irsi qoyub getsə də, indiyə qədər onun traktatlarını, ədəbi, ictimai-siyasi, pedaqoji, elmi və digər sahələr üzrə fəaliyyətini əks etdirən əsərlərinin toplanıb ümumiləşdirilməsi başa çatdırılmamışdır. Onun haqqında dünyanın bir çox ölkələrində ərəb, latın, yəhudi, ingilis, fars, türk, rus, özbək, fransız, alman, ispan, italyan, polyak və b. dillərdə əsərlər yazılmışdır. Müasir tarixşünaslıqda, şərqşünaslıq və fəlsəfə tarixşünaslığında bu irsin öyrənilməsi üç istiqamətdə aparılır: 1) Fərabinin dünyanın bütün ölkələrinə səpələnmiş halda olan əlyazmalarını, onun əsərlərinə yazılmış şərhləri və tənqidi mətnləri, bioqrafiyanı axtarıb tapmaq və öyrənmək; 2) Fərabinin dünyanın müxtəlif dillərə tərcümə olunmuş əsərlərini aşkara çıxarmaq; 3) Onun həyat və fəaliyyətinə, coxsahəli elmi yaradıcılığına – fəlsəfə, sosiologiya, tarix, təbiətşünaslıq və dəqiq elmlər, musiqi, incəsənət və digər elm sahələrinə həsr olunan elmi-tədqiqat əsərlərini axtarıb üzə çıxarmaq və öyrənmək.

Fərabi haqqında ədəbiyyatı xarakterinə görə 3 əsas qrupa bölmək olar: 1) Şərq ölkələrində Fərabinin yaradıcılıq irsinə həsr edilmiş müsəlman mənbələri; 2) Qərb ölkələrinin tarix və

fəlsəfə tarixşünaslığında Fərabiyə həsr olunmuş əsərlər; 3) Fərabi haqqında sovet tarixşünaslığında, habelə onun vətəni Mərkəzi Asiyada yazılmış elmi-tədqiqat əsərləri.

Fərabi haqqında qiymətli materiallara orta əsr müsəlman mənbələrində – ərəb, fars, türk dillərində yazılmış əsərlərdə, lüğətlərdə, sorğu kitablarında rast gəlinir. XIII-XIV əsr müəllifləri Behyaki, əl-Kifti, ibn-Üsaba, ibn-Halukalın əsərləri, habelə sonrakı əsrlərin Şərq və Qərbi Avropa tədqiqatçılarının Fərabinin yaradıcılıq irsinə həsr etdiyi əsərlər dövrün mənbələrini təşkil edir.

Fərabi haqqında ayrıca maraqlı məlumatlar müsəlman müəllifləri Əbdülqaffar Qəzvininin (XVI əsr), Məhəmməd Hüseynin (XVI əsr), Əli Əkbər Hüseynin (XVI əsr), Hacı Çələbinin əsərlərində vardır.

Lakin bu sadalananları Şərqin nüfuzlu və görkəmli mütəfəkkiri Fərabinin görüşləri haqqında ardıcıl elmi təhlil hesab etmək olmaz. Bu müəlliflərin əksəriyyəti onu rəsmi müsəlman mövqeyindən, islamın ideoloqu kimi təsvir etməyə çalışmışlar. Bu müəlliflərin bəzilərinin məlumatlarında Fərabi ilə ortodoksal islam din xadimləri arasında fikir və ideya ayrılığı olması faktı da yer almışdır.

Fərabinin adı və onun bir sıra traktatları Avropa ölkələrində hələ XI-XII əsrlərdən məlum olmasına baxmayaraq, onun zəngin irsinin sistemli şəkildə öyrənilməsi Avropada XIX əsrin sonuna aiddir. Bu sahədə M.Ştreynşeyder, F. Deteritsi, M. Xorten, D. Buur, İ. Qoldsner, A. Ştekl, Karadevo, R. Ermanxer, A. Krımski, M.Filippov, M.Allars, Q. Fadmer, D.Danlon, R.Xammond, N. Riçar və b. öyrənməyə başlamışlar.

Nəhayət, XX əsrin 30-50-ci illərində Yaxın və Orta Şərq ölkələrində Şərq fəlsəfəsinin, tarixşünaslığının və şərqşünaslığının ayrı-ayrı nümayəndələrinin – alimlərin əsərlərində Fərabinin yaradıcılıq irsinə diqqət yetirilmiş və bu öz əksini Yuhan Humeyranın, Mahmud Allarsın, Ömər Fərruxun, Osman Əlinin, İ.Madrukun, Dehhedonun, F. Nayyaqəin, Razəndi Təbrizinin, Siddiqi Məcuminin-Şirvaninin, D.Daminmanın, A.Atəşin,

M.Aydının, M.Türkeşin əsər və məqalələrində tapmışdır. Fərabinin anadan olmasının 1000 illyi ilə əlaqədar Ankara, İstanbul və Daşkənd universitetlərinin nəşrlərində də çoxlu materiallar vardır.

1.2. əl-Fərabinin dövrü, ictimai-siyasi mühit.

Ərəb xilafətinin tərkibinə qatıldıqdan sonra Mərkəzi Asiya xilafətin sosial-iqtisadi və mədəni həyatında fəal rol oynamağa başladı. Qədim Şərqin kənd təsərrüfatı məhsulları, qızıl, gümüş, dəmir, qurğuşun, mis və b. faydalı qazıntıları ilə məşhur olan Mərkəzi Asiyanın orta əsrlərdə böyük «İpək yolu» üstündə yerləşən Səmərqənd, Buxara və Fərqanə kimi qədim şəhərləri mühüm rol oynayırdı. Burada eyni zamanda yüksək keyfiyyətli ipək parçalar istehsal olunur, Bizans, Hindistan, Çin və Rusiya ilə ticarət əlaqələri aparılırdı. Xarici ticarətlə yanaşı əkinçiliklə məşğul olan və oturaq həyat keçirən qəbilə və tayfalar arasında ticarət əlaqələri yaranmışdı. Mərkəzi Asiya xalqlarının yüksək mədəniyyətini nümayiş etdirən dəlillərdən biri də, burada Soqdi və Xarəzm yazısının tətbiqi idi.

Ərəb xilafətinin qarışıq sosial tərkibi, müxtəlif siniflərin, qrupların və təbəqələrin maraqlarının toqquşması, xilafətin işğal etdiyi ərazilərdə, o cümlədən Mərkəzi Asiyada siyasi mübarizənin başlanmasına şərait yaradır, mənəvi həyatda mühüm həlledici amilə çevrilir və müxtəlif ideya cərəyanlarına bilavasitə təsir edirdilər.

X əsrin sonlarından başlayaraq üç əsr ərzində Yaxın və Orta Şərq ölkələrində, o cümlədən Mərkəzi Asiyada yüksək mədəni yüksəliş və oyanma başlanır. Təbiətşünaslar, şairlər, filosoflar, ayrı-ayrı elmlərin görkəmli nümayəndələri öz fəaliyyətlərini genişləndirir, tərcümə işləri görünməmiş miqyas almağa başlayır. Məhz bu dövrdə meydana çıxan elmi və bədii əsərlərin bir çoxu bu gün də öz elmi əhəmiyyətini saxlamaqdadır.

Mərkəzi Asiyanın mədəni həyatında baş verən yüksəliş, ərəb xilafəti ilə təsərrüfat-iqtisadi əlaqələrin güclənməsi, qonşu

Hindistan, İran, Mesopotamiya, Misir, Yunanıstan, Roma kimi inkişaf etmiş dövlətlərin və xalqların mədəniyyətləri ilə qarşılıqlı və sıx əlaqədə iqtisadiyyatın, sənətkarlığın, şəhər həyatının, daxili və xarici ticarətin inkişafı ilə bağlı idi. Bu dövrdə Dəməşq, Aleppo, Rey, Səmərqənd, Buxara, Mərv, Şaş (Daşkənd) və bu kimi qədim şəhərlər inkişaf edib yüksəlməklə yanaşı ərəb xilafəti dövründə Şərqdə yeni şəhərlərin əsası qoyulurdu. Bunlardan Fələstindəki Ramla, Vəcic (III əsrdə), Bəsrə və Kufə (təxminən 635-ci ildə), Köhnə Fustat, Samirə (əvvəlki, təxminən 640-cı ildə), İraqda Bağdadı (təxmiən 762-ci ildə) və yeni Samirə (təxminən 835-ci ildə) belə şəhərlərdəndir. Xilafət ərazisindən keçən karvan yolları müxtəlif əraziləri iri bazarlarla birləşdirirdi. Beləliklə, cəmiyyətin sosial-iqtisadi həyatında baş verən dirçəliş və tərəqqinin təsirş altında mədəniyyət inkişaf edirdi.

Təxminən X əsrin əvvəllərindən başlayaraq xilafət zəifləyir və ayrı-ayrı feodal dövlətlərə parçalanmağa başlayır. İşğal olunmuş Mərkəzi Asyia, İran, Şimali Afrika, İspaniya və b. ölkələrdə yaranmış bu dövlətlərdə mədəni dirçəliş baş verirdi. Bu dövdə bir çox dövlət başçıları məhz milli təəssübkeşlik mövqeyini müdafiə edərək öz saraylarına görkəmli alimləri, şairləri, rəssamları və b. dəvət etməklə, həm onlardan dövlətin idarəsində istifadə edir, həm də onlara himayədarlıq və köməklik edirdilər.

VIII əsrin II yarısı-IX əsin birinci yarısından başlayaraq dünyəvi elmlər sürətlə inkişaf etməyə, xüsusilə təbiət elmləri cəmiyyətin həyatında mühüm rol oynamağa başlayır. Ərəb xəlifələri Mənsur (754-776), Harun Ər-Rəşid (786-809), Məmun (813-833) bu işə xüsusi qayğı göstərir və köməklik edirlər. Bu dövrdə islamın görkəmli ideoloqu Əbu-Həmid əl-Qəzəli, «təmiz qardaşlar» fəlsəfi cərəyanının üzvləri, sufizm ideya cərəyanı, orta əsrlərin riyaziyyat elminin banisi Məhəmməd ibn-Musa əl-Xarəzmi (783-850), IX əsrin görkəmli astronomu, əslən Mərkəzi asiyalı olan Məhəmməd əl-Fərqani, Xocəndi, Türki, Mərvəndi, Hərrar əl-Battani (852-929), xorasanlı riyaziyyatçı Əbül Vəfa (940-997), əl-Sufi (X əsr), əslən reyli olan görkəmli həkim və kimyaçı Zəkəriyyə ər-Razi (865-925), buxaralı Əbu əl-İbn-Sina (980 -1037)

kimi dövrün böyük alimləri yaşayıb yaratmışdılar. Dəqiq elmlər sahəsi ilə bərabər humanitar elmlər, o cümlədən tarix, ədəbi proseslər və hadisələr, coğrafi kəşflər və ixtiralarla bağlı olan görkəmli alimlər də yetişmişdi. Bununla biz yuxarıda adlarını qeyd etdiyimiz görkəmli ensiklopedist alimlərin yaradıcılıq diapozonunu məhdudlaşdırmaq fikrində deyilik. Şübhəsiz ki, onların əsərlərində dövrün bütün problemləri kimi tarixə dair geniş materiallar və məlumatlar da vardır. Həm də, əl-Fərabi kimi böyük ensiklopedik mütəfəkkirin yetişməsi və formalaşmasında qeyd etdiyimiz alimlərin təsiri və xidməti əvəzsizdir. Bizim məqsədimiz isə əl-Fərabinin ictimai-siyasi və tarixi görüşlərini açıb ümumiləşdirmək olduğundan onun sələfləri, müasirləri və xələfləri haqqında, bu dövrdə yaşayıb yaradan humanitar elm nümayəndələri, o cümlədən tarixçilər haqqında məlumat verməklə onun tarix sahəsindəki xidmətlərini göstərməkdir.

VII əsrdə islamın ortodoksal əsaslarını müxtəlif müxalifətçi qrup, cərəyan və təriqətlərdən qorumaq üçün müsəlman doqmatik dini-ilahiyyat (kəlam) təlimi meydana gəlmişdi. İslamın görkəmli ideoloqu Əbu Hamid əl-Qəzəli «Ulum əl-islam» (İslam haqında elm) adlı təlimi ilə müsəlman ideologiyası sisteminin əsasını qoymuşdu.

IX əsrdə yaşamış görkəmli fars tarixçisi Əbül Abbas əl-İran Xorasanda yaşmış əl-Biruninin (973 -1048) dediyi kimi, təbiəti öyrənməklə bərabər din tarixinin öyrənilməsi ilə məşğul olmuşdu. Biruninin göstərdiyinə görə o, tələbəsi Zəkəriyyə ər-Razi kimi xristian tarixini ardıcıl vermişdi. «Yeni din» təliminə qarşı çıxan orta əsrlərin din tarixçisi Əbu Məvali Məhəmməd Hüseyn Ələvi onun haqqında yazırdı. «İran şairi fars dilində yazılanları ümumiləşdirib bunu ilahi kəşfi kimi vermişdi»

Xilafət hakimiyyəti dövründə vahid poçt sisteminin mövcud olması, quru və su ticarət yollarının geniş inkişafı ərazidə ticarətin tərəqqisi ilə yanaşı həmin ölkələrə görkəmli elm və maarif xadimlərinin, səyyahların marağı nəticədə tarixi-coğrafi məlumatlar, qeydlər, xatirə ədəbiyyatının və s. yaranmasına səbəb olmuş, bu əsərlərdə və materiallarda Hindistan, Seylon, Şimali

Afrika, Zaqafqaziya, Rus dövləti, İspaniya və b. ölkələr haqqında geniş məlumatlar vardır. Görkəmli sovet-rus şərqşünası İ.Y.Kraçkovskinin «Ərəb coğrafi ədəbiyyatı» adlı əsərində yazdığı kimi, bu dövrün tarixi-coğrafi əsərlərindən tarixçilər, coğrafiyaşünaslar, sosioloqlar, iqtisadçılar, ədəbiyyatçılar, dilçilər və təbiətşünaslar istədiyi qədər geniş material tapa bilərlər. IX-X əsrlərin görkəmli coğrafiyaşünasları, səyyah və tarixçiləri olan ibn Xordadbeh (820-912), əl-Yəqubi (905-ci ildə vəfat edib), əl-Məsudi (956-cı ildə vəfat edib), əl-Bəlxi (850-934), əl-İstəxri (849-934), əl-Mukad (X əsr), İbn-Fədlan (X əsr), görkəmli tarixçilər ət-Təbəri (925-ci ildə vəfat edib), əl-Bəlazuri (992-ci ildə vəfat edib) və b. əsərlərində Fərabi dövrünədək və onun dövrü haqqında maraqlı faktlar və məlumatlar vardır.

Mavərənnəhrin görkəmli tarixçiləri içərisində Samanilər dövlətinin əmirləri Əbdül-Məlikin (954-961) və Mənsurun (961-876) tanınmış vəziri olan əl-Valəmi böyük tarixçi ət-Təbərinin əsərlərini ilk dəfə qısa şəkildə tacik dilinə tərcümə etmişdi. Bu tərcümə əsasında sonralar həmin əsər türk, ərəb və fransız dillərinə çevrilmişdi.

Tarix və coğrafi elmlər sahəsində sanballı tədqiqat işi X əsrdə tacik dilində yazılmış «Hüdud əl-Aləm» («Dünyanın hüdudu») əsərində Samani dövlətinin X əsrin ikinci yarısındakı tarixi və coğrafi mühiti təsvir olunurdu.

1.3. Əl-Fərabinin həyatı və yaradıcılığı

Əl-Fərabinin həyat yolu haqqında bizə son dərəcə az məlumat çatmışdır. Bunlar əsasən müsəlman Şərqinin görkəmli alimlərinin, səyyah və coğrafiyaşünaslarının əsərlərində verilən yanlış və çox zaman ziddiyyətli məlumatlardan ibarətdir.

Əbu-Nəsr ibn Məhəmməd ibn Uzluq ibn Tərxan əl-Fərabi miladi tarixinin 873-874-cü illərində (hicri tarixinin 260-cı ilində) Arıs çayının Sır-Dəryaya töküldüyü yerdə-Fərab şəhərində anadan olmuşdu. XIII-XIV əsrlərin tarixçilərinin məlumatlarına görə, Fərab Şimali-Qərbi Şaşın (indiki Daşkəndin) şimalında

Syutkənd yaxınlığında yerləşirdi. Akad. V.V.Bartold orta əsr ərəb tarixçiləri və coğrafiyaşünaslarının (əl-İstəxri, ibn Havqəl, əl-Məqdisi, ət-Təbəri, əl-Məsudi və b.) əsərlərinə əsaslanaraq Fərabinin vətəni haqqında belə məlumat verir: «Kenciddən aşağıda yerləşən Fərab Sır-Dərya çayının hər iki tərəfində yerləşib, uzununa və eninə bir günlüyə qət edilən yoldur… Fərabın yanında Sır-Dəryanın sol sahilində Syutkənd şəhəri yerləşir, burada yaşayan əhali islam dinini qəbul etmiş türk oğuzları və karluqlarından ibarət idi». Bəzi müsəlman mənbələrində göstərilir ki, Fərab Vəcic şəhəri əsasında yaranmışdı. Bu ehtimalı əsas götürən V.V.Bartold Fərabinin vətəninin Vəcic olduğunu göstərir. O zaman bura daha möhkəmləndirilmiş yaşayış məskəni olub məscidi vardı, və əmir Vəcicdə yaşayırdı. Fərabinin babası Zoluq islamı qəbul etməmiş türk idi, onun atası Məhəmməd həbsxana gözətçisi olmuşdu. Bir türk mənbəyində göstərilir ki, Fərabinin adı onun doğulduğu yerin adıdır, onu həm də «Əbu-Nəsr» adlandırırlar. Çox vaxt onun adına «Ət türki» sözü də əlavə edilir ki, bu da onun türk mənşəyi ilə bağlı olduğunu sübut edir.

IX əsrdə Sır-Dərya sahillərinə qədərki ərazidə islam dini yayılmışdı. Fərab şəhəri də daxil olmaqla bu ərazi islamın təsir dairəsinin təxminən sərhəddi idi. Fərabdan şimalda müsəlmançılığı (islamı) qəbul etməyən köçəri türk xalqları yaşayırdılar. Bu yerlər o zaman ərəb xəlifəsindən asılı olan Samani valisinin mülkləri – torpaqları idi ki, burada Samanilərin hökmranlığı tədricən güclənirdi. Sonralar bu ərazi xilafətdən ayrılaraq müstəqil Samani feodal dövləti kimi yaranıb inkişaf etməyə başlamışdı. Sır-Dərya sahillərində, o cümlədən Fərabda yaşayan türk qəbilələri əsasən karluqlardan və oğuzlardan ibarət idi. Samanilər dövlətinin onlara verdiyi torpaqların əvəzinə onlara Samanilərin mülklərini şimaldan olaraq türk hücumlarından qorumaq tapşırılmışdı.

Ərəb coğrafiyaşünaslarının mənbələrinə əsaslanan akad. Y.E.Bertels göstərir ki, islam Vəcicdə 839-840-cı illərdə qəbul edilmişdi. Onun ehtimalına görə, islamı yalnız Fərabinin atası

qəbul etmişdi, onun babası isə müsəlman (islamı qəbul etməmək mənasında) deyildi. Buradan belə nəticəyə gəlmək olar ki, Fərabi türk hərbi qəbilələrinin oğuz və ya karluq ailəsində doğulmuşdu və onların ailəsi sonralar Fərab şəhərinə köçmüşdü. Tarixi faktlara görə, islama qədərki dövrə kimi istər oturaq və istərsə də köçəri türklər arasında Mani dini təriqəti geniş yayılmışdı. Fərabdan şimalda isə islama qədərki dövrə kimi xristianlığı qəbul etmək təbliğatı aparılırdı. Hətta, o zaman Tələsdə (Talasda) xristian kilsəsi vardı ki, sonralar o məscidə çevrilmişdi. Fərabinin anadan olduğu Fərab şəhərindən əlavə Mavərənnəhrdə Fərab adlı daha iki kənd olmuşdu. Bunlardan biri təxminən indiki Cərco şəhəri ilə üzbəüz Amu-Dəryanın sahilində, ikincisi isə Səmərqənd şəhərinin cənub-şərqində idi. Bir sıra ilk mənbələrdə Əbu-Nəsrin doğulduğu yer haqqında düzgün olmayan məlumatlar verilsə də, qətiyyətlə deyə bilərik ki, onun vətəni Sır-Dərya çayı sahilindəki Fərab şəhəri olmuşdu.

Əl-Fərabi ilk təhsilini Fərabda almışdı. Bağdada köçənə qədər o, ərəb dilini bilməmiş, əvvəl türk və yaxud soqd dilində oxumuş, sonra ərəb dilini öyrənməyə başlamışdı.

Əl-Fərabinin dövründə xalqın mübarizə ruhu və azadlıq ideyaları çox güclü idi və şübhəsiz ki, bu, gələcək alimin dünyabaxışının formalaşmasına öz təsirini göstərmişdi.

Fərabi Mərkəzi Asiyadan Bağdada gələnə qədər Şaşda və Səmərqənddə olmuş, bir müddət Buxarada oxumuş və işləmişdi. Bağdada gedərkən o, yolüstü xilafətin br sıra şəhərlərində – İsfahan, Həmədan, Rey, Tehran və b. yerlərdə olmuşdu. Onun Bağdad şəhərinə yola düşməsi və şəhərə gəlməsinin tarixi dəqiq deyil. Bir sıra mənbələrdə götərilir ki, o, Bağdada xəlifə Müqtədrin zamanında (908-932) köçüb yerləşmişdi. Akad. V.V.Bartoldun qeyd etdiyinə görə, IX-X əsrlərdə elmi qüvvələrin fəaliyyəti Dəclə və Fərat çayları hövzəsində yerləşən qədim mədəniyyət mərkəzləri Bəsrə və Horranda cəmləşsə də, yunan elmi Antioxdan «köçürülərək» xilafətin mərkəzi Bağdadda «yerləşdirilmişdi». Bağdad müsəlman dünyasının ən müxtəlif əyalət və vilayətlərindən, ilk növbədə İran və Mərkəzi Asiyadan daha

çox alimləri özünə cəlb edirdi. 762-ci ildə əsası qoyulmuş bu şəhər yalnız hakimiyyət, ticarət yolları və zənginlər paytaxtı deyil, eyni zamanda bütün xilafətin mədəni həyatının və elmi fikrinin mərkəzi idi. Bağdadda öz elmi tədqiqatları ilə şöhrət qazanmış və orada xeyli müddət çalışmış Mərkəzi Asiyanın, İranın, Qafqazın müsəlman ziyalıları və görkəmli mütəfəkkirləri Xarəzmi, Fərqanəni, Ət Türki, Battani, Sufi, Əbu-Məşər, Nəzzam, Ravəndi, habelə çoxlu tarixçilər, coğrafiyaşünaslar, ədəbiyyatçı-dilçilər və şairlər çalışmış, yaşayıb-yaratmışlar.

Xəlifə Harun Ər-Rəşidin, xüsusilə xəlifə Məmunun zamanında elmin və yaradıcı fikrin inkişafı üçün əlverişli şərait yaradılmışdı. Bu dövrdə söz azadlığı, yüksək hakimiyyət dairələrində müxtəlif dini və elmi təlimlərə olan maraqla əlaqədar xəlifələr yanında sarayda təşkil edilmiş müzakirələr və elmi mübahisələr-diskussiyalar təşkil edilirdi. O zaman Bağdadda müxtəlif millətləri təmsil edən çoxlu elmi istiqamətlər və elmi məktəblər fəaliyyət göstərirdi.

Xəlifə Müqtədirin hakimiyyətə gəlməsi ilə islamda ortodoksal sünniçilik təriqətinin möhkəmlənməsi üçün ciddi siyasi xətt götürülür, bütün dini təriqətlər və elmi cərəyanlar, azad fikirli alimlər sıxışdırılır. Dövlət siyasətinin həyata keçirilməsində mühafizəkar din xadimləri həlledici rol oynamağa başlayırlar.

Bağdada gəlməsi ilə orta əsrlər elminin müxtəlif sahələrinin və ərəb dilinin öyrənilməsinin daha da təkmilləşməsi ilə ciddi məşğul olmağa başlayan əl-Fərabi burada müxtəlif dini baxışlara və tarixi-fəlsəfi əqidələrə malik olan insanlarla görüşüb tanış olur, yunan dilini xristian Əbu Bəşir Məttadan, təbabəti və məntiqi və Aristotelin «İkinci Analitika» əsərini həkim-xristian Yuhənna Haylan Kunandan öyrənməyə başlayır. Fərabi əsasən nəzəri və dəqiq elmlərlə – riyaziyyat, musiqi nəzəriyyəsi, məntiq, nəzəri təbabət və b. elmlərə maraqlanır, eyni zamanda filologiya, poeziya, xüsusilə ərəb dili, ədəbiyyatı, tarixinə də maraq göstərir. Mənbələrin məlumatına görə o, ərəb dili ilə yanaşı İran, yunan, Suriya və bir çox dilləri mənimsəyir. İran tarixçisi Dehhudonun

«Lüğətnamə» əsərinə istinad edən görkəmli özbək alimi akad. M.Xayrullayev yazırdı ki, Fərabi 70-dən artıq dil bilirdi.

İlk mənbələrdən məlum olur ki, Fərabi ixtisasca həkim olub, lakin sonradan bu peşəni atıb dünyəvi elmlərlə və müəllimliklə məşğul olmağa başlamışdı. Belə bir pəvayət söyləyirlər ki, bir dəfə yaxın adamlarından biri ona saxlamaq üçün çoxlu kitab verir, onların arasında Aristotelin traktatları da varmış. Fərabi asudə vaxtlarında onları oxumağa başlayır və bu kitablar onu o qədər maraqlandırır ki, xidməti vəzifəsini buraxır. Bu hadisə onun həyatında, taleyində, böyük alim olmasında mühüm rol oynamış olur.

Bağdad həyatı Fərabinin görkəmli ensiklopedist alim, böyük filosof, humanitar elmlərin bilicisi kimi məşhurlamasında mühüm rol oynayır. O, müəllimliklə yanaşı elmi yaradıcılıqla məşğul olur. Lakin X əsrin əvvəllərindən başlayaraq Bağdadın siyasi və mədəni həyatında geriləmə, durğunluq müşahidə edilməyə başlanır. İraq və İranda şiə hərəkatı, Bəhreyn və Misirdə ismailiyyə və karmat çıxışları, xilafətin müxtəlif əyalətlərinin müstəqillik əldə etmək cəhdləri Abbasilər sülaləsinin paytaxtı Bağdadın siyasi və mədəni həyatına təsir edir. Xəlifə Mütəvəkkilin dövründə irticaçı din xadimlərinin ölkənin siyasi və mənəvi həyatında rolunun güclənməsi ilə əlaqədar mütərəqqi fikirli adamların təqib olunması güclənir. 922-ci ildə Bağdadın mərkəzi meydanında İbn-Həllac edam olunur. İslamın dini təriqətlərindən üz döndərən ortodokslar təqib olunmağa başlanır, onların əsərləri qadağan olunur, özləri isə yeres elan edilib Müqəffə, Ən-Nəzzam, Rəvandi, Razi, Kindi və b. meydanlarda açıq şəkildə yandırılırlar. Fərabi bu terror şəraitinə və təqiblərə dözə bilməyib Bağdadı tərk etməyə məcbur olur.

Fərabinin Bağdaddan Mərkəzi Asiyaya qayıtması XVII əsrin iki türk müəllifinin əsərində qeyd olunmuşdur. Bunlardan biri A.Abnandır. O, XV əsrdə yaşamış Molla Lütfinin «Kəşf-ülzünun» əsərində qeyd edirdi ki, o, Türküstana qayıdaraq Samani hökmdarı Mənsur ibn-Nuhun xahişi ilə «Əl-təlim-əs-sali» («İkinci təlim») əsərini yazmışdı. Burada «Müəllim əs-sani»

(İkinci təlim – yəni Aristoteldən sonra Şərqin «ikinci müəllimi» ləqəbi ilə məşhur olan əl-Fərabinin bu əsəri İsfahanın «Suvan-ülhikmə» kitabxana sında saxlanılır. Sonralar İbn-Sina bir sıra fəlsəfi və tarixi məsələləri öyrənmək məqsədi ilə ondan istifadə etmişdi. Bu «Movzuotul ulum müffüs saadat» (İstanbul, 1895, türk dilində) əsərində məlumat verilir. A.Abnan qeyd edir ki, Fərabinin Türküstana gəlməsi bundan başqa heç yerdə göstərilmir. Əksinə, onun Dəməşqə getməsi və Dəməşq dövrü demək olar ki, onun bütün tərcümeyi-halını yazanlar tərəfindən qeyd edilir.

Bir sıra müsəlman mənbələrinə istinad edərək demək olar ki, Fərabi 330-cu ilin hicri ayında (941-ci ildə) Dəməşqə gələrək burada elmi yaradıcılıqla məşğul olmağa başlayır. Bir sıra ədəbiyyatda nəql edilir ki, o, burada şəhər ətrafında gündüzlər bağ gözətçisi işləməyə məcbur olmuş, axşamlar isə şam işığında elmi işlə məşğul olmuşdu. Fərabi burada 942-ci idə özünün fundamental əsəri «Kitab-əl əxl əl-mədəniyyə əşl-fozilə» (Xeyirxah şəhər əhalisinin görüşləri haqqında kitab) əsərini yazmağa başlamışdı. Lakin alim tezliklə Hələb (Aleppo) şəhərinə gəlir, hökmdar Seyfüldövlə Həmd Hamidin (943-967) hörmətini qazanaraq ömrünün axırına kimi orada qalır.

Hələb hökmdarı Həmd Hamid digər hökmdarlar kimi işğalçı müharibələr aparsa da, dövrün digər təhsil görmüş hökmdarları kimi öz ölkəsinin paytaxtını mədəni mərkəzlərdən birinə çevirməyə çalışırdı. O zaman Hələbdə çoxlu şairlər, alimlər yaşamış və hökmdar onlara himayədarlıq edərək maddi və mənəvi kömək göstərmişdi.

Həmd Hamid əyalətin başqa dövlət-şəhər başçılarından azadfikirliliyi ilə fərqlənmişdi. Onun sarayında elm adamları, şairlər öz fikirlərini müstəqill sürətdə söyləyə bilmişlər. Akad. İ.V.Kraçkovski göstərirdi ki, «onun yanında müxtəlif ölkələrdən olan şairlər Əbu-Firas, Əbül-Abbas, Ən-Naşi, ər-Raffi, İbn-Nnubata, ər-Raki Abdullah ibn-Xalaveyhi, Əbu-əl-Tayib əl-Lüqavi, əl-Fərisə və b. vardı. Onların əksəriyyəti şiə-Əli proqramı ilə ayrılırdı».

Doqquz il Seyfuldövlə Həmd Hamidin sarayında yaşayan və islama skeptik cəhətdən yanaşan görkəmli şair Mütənnabi öz azad fikirliliyi ilə fərqlənidi. Tədqiqatçılar onun həyatının bu dövrünü daha məhsuldar hesab edirlər. Hələbdə təhsil aldığı illərdə Fərabi də Mütənnabinin və Böyük Maninin poeziyasının güclü təsiri altına düşmüşdü. O zaman Hələbdə çoxlu tarixçilər və tarixşünaslar, coğrafiyaşünaslar və ədəbiyyatçılar da vardı. Buraya o zaman uzaq Xarəzmdən tanınmış yazıçı Əbu-Bəkr əl-Xarəzmi də gəlmişdi. Bəzi ehtimallara görə, Mütənnabi və Fərabi bir-birilərini tanıyırdılar.

Mənbələrin məlumatına görə, Fərabi saray almi olmamış, həmişə Hələbdə yaşamışdı. O, buraya Dəməşqdən gəlmişdi. O zaman Dəməşq əsasən Misir hökmdarına tabe idi. Lakin 946-947-ci illərdə bu şəhər Seyfüldövlənin əlinə keçmişdi. Çoxsaylı faktlar sübut edir ki, Fərabi ona göstərilən şərəf və hörmətə baxmayaraq qüdrətli hökmdar-himayədardan heç vaxt asılı olmamış, onun bəxşiş və köməyini qəbul etməmişdi. Ümumiyyətlə, Fərabi son dərəcə təvazökar olub aza qane olan adam olmuş, olduqca sadə geyinər və özünü həmişə tək hesab edərdi.

Hicri tarixinin 337-338-ci ilində (miladi 949-950) Fərabi Misirdə olmuşdu. Onun nə məqsədlə Misirə getməsi məlum deyil. Bu vaxt Misirdə ismailiyyə hərəkatı geniş yayılmışdı. Türk alimi A.Atəş qeyd edir ki, Misirdə Fərabi bir daha yuxarıda adını qeyd etdiyimiz əsərini nəzərdə keçirir, onu fəsillərə bölür. Dahi insan və mütəffəkkir Fərabinin yaradıcılıq təkamülü iki mərhələdən ibarət idi. İlk mərhələ onun dünyagörüşünün formalaşdığı, ikinci mərhələ isə artıq kamil və orijinal mütəfəkkir kimi yetişdiyi dövrdür. Fərabi əsərlərini iki qrupa bölmək olar: 1) Şərhlər şəklində qədim yunan müəlliflərinin əsərlərinə yazdığı izahlar; 2) Orijinal məzmun və formada orta əsr təbiətşünaslıq problemlərinə, ictimai-siyasi və fəlsəfi fikirlərə həsr olunan aktual əsərlər onun riyaziyyat, fizika, kimya, tibb, təbiətşünaslıq, biologiya, astronomiya, məntiq, fəlsəfə, tarix, coğrafiya, tarixşünaslıq sahəsinə, ümumiyyətlə, elmin bütün problemlərinə həsr

etdiyi son dərəcə geniş məzmunlu və lakonik əsərləri dünya elm və mədəniyyət tarixinə böyük töhfədir.

Fərabinin ölümü haqqında iki mülahizə var, biri ondan ibarətdir ki, o təbii ölümlə, yəni yaşının çox olmasına, qocalığına görə Dəməşqdə dünyasını dəyişmişdi. İkinci versiyaya görə, bir neçə adamla Əskəran şəhərinə yola düşdüyü vaxt silahlı quldur dəstələri tətrəfindən səhrada öldürülmüşdür. Bundan xəbər tutan Hələb hökmdarı Seyfüldövlə öz yaxın adamları vasitəsilə Fərabinin meyidini gətirib Hələb şəhərində ata və anasının yanında dəfn etdirmiş, həmin quldurları isə tutub edam etdirmişdi.

XVIII əsr «Məcmu-əl-övliyyə» kitabının müəllifi Əli Əxbar Hüseynin yazdığına görə, Fərabi Seyfüldövlənin ən yaxın adamları tərəfindən din xadimlərinin iştirakı olmadan və dəfn duası oxunmadan basdırılmışdı. Buna səbəb isə din xadimləri tərəfindən onun kafir elan oluması idi. Onun ölümü haqqında «Dövrətül Maarif» əsərinə istinad edən bir sıra tədqiqatçılar bu ölümü Fərabinin müasiri Seyfüldövlənin sarayında onun müəllimi olmuş böyük şair və demokrat Mütənnabinin ölümü ilə əlaqələndirir. Belə ki, Mütənnabi də Şirazdan hökmdar Əzut-ət-Dövlənin yanına gedərək Fərabi kimi yolda quldurlar tərəfindən öldürülmüşdür. Lakin hər iki ehtimalı təsdiq və ya inkar edən faktlar əlimizdə yoxdur. Lakin Mütənnabi və Fərabinin tələlərinin bəzi anlarının yaxınlığı və dəfn edilmələri arasındakı oxşarlıq (Mütənnabi və Fərabi Şiraz hökmdarı Əzut-ət-Dövlənin göstərişi ilə çox şərəf və təntənə ilə dəfn edilmişdi) bizə onların eyni ideya istiqamətinə xidmət etmələrini söyləmyə əsas verir. Bir çox mühafizəkar din xadimləri Fərabinin yeretik təriqətə mənsub olmasında inad etmişlər. Bu baxımdan mühafizəkar din xadimlərindən fərqli olaraq bir sıra müsəlman müəllifləri Fərabini islamın qayda-qanunlarının müdafiəçisi, həqiqi müsəlman olmasını, yəni islamın bütün adət-ənənlərinə riayət edən bir şəxs kimi təqdim edirlər. Məsələn, Əli Əxbar Hüseyn qeyd edir ki, din xadimləri Fərabinin əsərlərinin həqiqi məqsədini başa düşmədiklərindən onu kafir adlandırmışlar.

XVI əsrin tarixçisi Əbülqaffar Qəzvini Fərabini müsəlman hüququ qanunlarına hörmət və riayət edən, şəriətin bütün yazılarına əməl edən müsəlman kimi göstərmiş və onun Mərkəzi Asiyadan getməsinin səbəbini müsəlman dünyasının müqəddəs şəhərləri olan Məkkə və Mədinəni ziyarət etmək məqsədi daşıdığını qeyd etmişlər.

Göstərilən bu və ya digər mənbələrdə Fərabi haqqında bir sıra əfsanələr və nağıllar da mövcuddur. Akad. M. Xayrullayev yazır ki, Əbu Nəsr çox zaman adamlardan uzaq gəzirdi, həmişə təbiətdə olardı, çox yaşıllıq və su olan yerdə yaşayardı, dərs deməklə məşğul idi, traktatlar və izahlar yazardı. Əbu Nəsr xeyixah adam idi, öz dünyasına və yaşayışına fikir verməzdi, çox sadə yaşayardı. Nəql edirlər ki, Seyfüldövlə Fərabiyə böyük hörmət və nəzakətlə yanaşardı. O, əmr etmişdi ki, Fərabiyə xəzinəsindən istədiyini versinlər. Lakin Fərabi bundan imtina etmiş və hər gün 4 dirhəm almaqla kifayətlənmişdi.

Bir gün Fərabi Dəməşq bazarıa gedir və görür ki, boybuxunlu, yaraşıqlı çəkməçi oğlan dərini dişləri ilə dartıb hamarlayır. Fərabi ondan soruşur: sən ki, belə ürəklə işləyirsən, gündə nə qədər alırsan. Oğlan cavab verir: iki dirhəm. Fərabinin ona yazığı gəlir, hökmdardan aldığı 4 dirhəmi ona verir. Rəvayətə görə, həmin şəxs Fərabinin yaxından köməyi sayəsində tanınmış alim olur.

Bir dəfə Fərabindən soruşurlar: Kim çox bilir, sən, yoxsa Aristotel. O, cavab verir: mən o dövrdə yaşasaydım onunla görüşüb yanında məşğul olardım, ola bilsin ki, onun yaxşı şagirdi olardım.

Fərabi təsadüfən hökmdar Seyfüldövlənin Dəməşqdə alimlərin məclisini keçirdiyi zaman saraya gəlir. O, hökmdardan içəri girməyə icazə istəyir. Hökmdar ona oturmağı təklif edir. Fərabi türk dilində soruşur: «Harada əyləşim. Sizə layiq ola yerdə oturum, yoxsa özümə layiq olan yerdə.» Hökmdar cavab verir: «Özünə layiq olan yerdə»... Onda Fərabi bütün əmirlərin yanından keçib şahın taxt-tacının yanında oturur. Hökmdar əsəbiləşir və cangüdənlərə gizli dildə deyir: bu türk bütün əxlaq

və nəzakət qaydalaını pozdu, ona görə də, məclis qurtaranda və o ayağa qalxanda onu tərbiyəsizliyinə görə cəzalandırın. Cangüdənlər belə də edirlər. Bu zaman Əbu Nəsr soruşur: Mən bir cinayət etməmişəm, nəyə görə cəzalandırılıram. Bu sualı eşidən hökmdar əsəbi halda soruşur: Xalq arasında bu dili heç kim bilmir, bunu sən harada və kimdən öyrənmisən. Fərabi cavab verir: Mən bir çox dilləri öyrənməli olmuşam. Bu zaman oturan alimlərdən biri ona sual verir və toplaşanlar arasında diskussiya başlanır. Heç kəs bu suala cavab verə bilmir. Fərabi öz fikirlərini izah edir və hər kəs onunla mübahisə etməyə cəsarət etmir. Bu vaxt hökmdar soruşur: Sən «ikinci müəllim» (yəni Fərabi) deyilsən ki? Fərabi onun bu sualını təsdiqləyir. Onda hökmdar onu təhqir etdiyinə görə üzr istəyir. Fərabi isə hökmdara sağlamlıq arzu edir. Hamı dağıldıqdan sonra hökmdar musiqiçiləri otağa dəvət edir. Əbu Nəsr onlarla musiqi haqqında sənətkar kimi söhbət edir, təəccüb edən şah soruşur: məgər müəllimlər müəlliminin müsiqi məsələlərindən başı çıxır? Fərabi onun fikrini təsdiq edir. Onda hökmdar nökərlərinə çırağı (simli müsiqi aləti) gətirməyi əmr edir. Fərabi bu alətlə müxtəlif melodiyaları çaldıqdan sonra hökmdar heyrətə gəlir. Ondan ömürlük sarayda qalmağı və özünün şərəfi ilə alimlər məclisini bəzəməyi xahiş edir. Əbu Nəsr razı olmur, nəhayət hökmdarın dəfələrlə xahiş və təkidlərindən sonra bir il müddətində sarayda qalmağa razı olur.

Nəql edirlər ki, Fərabinin alimliyi, bacarığı və ləyaqətindən xəbər tutan İranın Buidlər feodal dövlətinin vəziri Sahib Abbad ona çoxlu hədiyyələr göndərir və saraya öz yanına dəvət edir. Lakin Fərabi bu bəxşişləri qəbul etmir və hətta onun xahişinə cavab vermir. Bir dəfə o, həmin vəzirlə görüşmək, onun gördüyü xeyirxah işlər və haqqında eşitdiyi tərifl ərlə tanış olmaq üçün Reyə gəlir. Fərabi sadə geyindiyndən alim kimi heç kimin diqətini cəlb etmir, heç kəs onu tanımır. O, bir müddət oturduqdan sonra məclis başlayır. Torbasından bir neçə çubuq çıxarıb düzəltdiyi musiqi aləti üzərində müxtəlif melodiyalar ifa etməyə başlayır. Musiqinin ilk hissəsi şən olduğundan hamı şənlənməyə başlayır, ikinci hissə qəmli, kədərli olduğundan

hamı bikef olur, üçüncü hissəni eşidəndə hamı yatır. Fərabi çaldığı alətin dəstəyinə qeyd yazıb sarayı tərk edir. «Sizə Fərabi gəlmişdi, sizi güldürdü, ağlatdı və yatırdıb getdi». Vəzir ayılanda kədərlənib deyir: «Səadətin sirrini açmağa imkan tapmamış, o yoxa çıxdı». Fərabini nə qədər axtarırlar, tapa bilmirlər. İkinci müəllim isə həmin gün Bağdada yola düşmüşdü. Deyirlər ki, o, çox cəld və cəsarətli adam idi, çox yaxşı ox atırdı və həmişə onun oxu hədəfə düz dəyərdi.

Göstərilən bu nümunələr onun böyük istedad və bacarığa, dərin əqlə və nüfuza malik olduğunu bir daha sübut edir. Şərqin böyük alimi Fərabi yüksək insani keyfiyyətlərə malik idi, varlanmağa meyl etməzdi, yüksək vəzifələr axtarmazdı, dünyanın güclüləri qarşısında əyilməz və çəkinməzdi, adi və sadə idi, insanların ilk müraciətində onlara kömək etməyə hazır olmuşdu. Xilafətin mədəni, zəngin və varlı şəhərlərində yaşayarkən belə Fərabi öz vətənini heç vaxt unutmamışdı.

Fərabi zəngin yaradıcılıq irsi qoymuşdu. Onun əsərlərinin ümumi sayı və həcmini müəyyən etmək çətindir. Demək olar ki, bütün Şərq və Qərbi Avropa tarixçiləri, filoloqları, filosofları onun əsərlərinin-traktatlarının kəmiyyətini müəyyən etməkdə vahid fikrə gələ bilməmişlər. İlk mənbələrin məlumatına görə, Fərabinin əsərlərinin sayı 80-130 arasındadır. Görkəmli türk alimi A.Atəşin Fərabi yaradıcılığına həsr etdiyi biblioqrafiyada, habelə İstanbul kitabxanalarında, əlyazmalar fondunda və kitabsaxlama köşklərində Fərabinin 160 əsəri olduğu qeyd edilir.

Müsəlman müəllifləri hələ ilkin orta əsrlərdə Şərqin müxtəlif ölkələrində Fərabinin işlərinə rast gəlmiş, əlyazmalarının üzü dəfələrlə köçürülmüşdü. XII əsrin görkəmli tarixçisi Əbülhəsən Beyhaki yazırdı ki, mən Rey şəhərinin «Nakibun-Nkabi» kitabxanasında Əbu Nəsrin bir sıra nadir kitabını görmüşəm, bunların çoxu Fərabinin özü tərəfindən yazılmış, yaxud onun şagirdi Əbu Zəkəriyyə Yəhya bin-Adnin əli ilə köçürüldüyü əsərlədən ibarət idi.

XV əsrin İran tarixçisi Mirsəid «Rövzətüs -Səfo» əsərində göstərir ki, Buxarada «Nuh Ben Mənsur-Samani» kitab-

xanasında Fərabinin olduqca çoxlu naməlum əsərləri vardı ki, Əbu ibn-Sina onlardan istifadə etmişdir. Türkiyənin təbabət sahəsində görkəmli tarixçisi Süheyl Ənvər şahidik edir ki, İsfahanın «Suvan-ül-hikma» kitabxanasında Fərabinin öz əli ilə yazdığı «Ət-təlim əs-sani» əlyazması saxlanılır.

Əli Əxbar Hüseynin dediyinə görə, Fərabi əsərlərindəki fikirlər yunanların rəyi olub Fərabiyə məxsus deyil, yeretik yunan müəlliflərinə aiddir.

Fərabinin ictimai-siyasi və tarixi baxışları, onun cəmiyyət və dövlət haqqında ideyaları tədqiqatçıların araşdırma obyekinə çevrilmişdir.

1.4. Əl-Fərabinin ictimai-siyasi baxışları. Onun cəmiyyət və dövlət haqqında ideyaları

Orta əsrlərin mütəfəkkirləri içərisində ilk dəfə olaraq əl-Fərabi ictimai-siyasi həyatın öyrənilməsi problemini, onun xüsusiyyətlərini və strukturunu müəyyənləşdirməyə çalışmış və bu məsələni özünəməxsus ustalıqla şərh etmişdi.

Fərabi yaradıcılığında ictimai həyat haqqında təlim «İlm əl-mədəniyyə» (şəhər dövləti) başlıca yerlərdən birini tutur. İctimai quruluş nəzəriyyəsinə bir sıra əsərlər («Xeyirxah şəhərin sakinlərinin görüşləri haqqında traktat», «Səadət, xoşbəxtliyə nail olmaq haqında kitab», «Dövlət xadiminin aforizmi», «Xoşbəxtliyin yolunun göstərilməsi» və s.) həsr etmişdi. Fərabinin orta əsrlər dövründə işləyib hazırladığı nümunəvi cəmiyyət haqqında ardıcıl təlimi hamı tərəfindən qəbul edilmişdi. Fərabi bu təlimi yaradarkən yunan ictimai fikrində, xüsusən Aristotel və Platonun siyasi və etik baxışlarından, habelə qədim Şərqin sosial və siyasi ideyalarının nailiyyətlərindən istifadə etmişdi. Qərb tarixşünslığında Fərabinin sosial-siyasi baxşlarına müxtəlif mövqedən qiymət verilmiş, əksəriyyət müəlliflər onu islam ideologiyası mövqeyindən qiymətləndirmişlər. Bəzi əsərlərdə onun icti-

mai-siyasi fikir tarixindəki yerinə obyektiv qiymət verilməsi cəhdləri də olmuşdur.

Orta əsrlərin müsəlman Şərqinin mütəfəkkirlərinin ictimai-siyasi təlimləri tarixində Fərainin ictimai-siyasi baxışları özünəməxsus yer tutur. İctimai həyat haqqında Fərabi ideyalarını tədqiq edib öyrənmədən orta əsrlərin siyasi nəzəriyyələri tarixini təsəvvür etmək mümkün deyildir. Bu münasibətlə sovet alimləri tərəfindən yazılan bir sıra elmi əsərlər bu sahədə mühüm roll oynayırlar.

İctimai həyatın öyrənilməsi baxımından Fərabinin baxışlarında 1) İctimai həyatda elmin rolu və vəzifələrinin müəyyən edilməsi; 2) İctimai birliklərin yaranması, tərkibi, quruluşu və növləri, onların düzgün olmayan cəhətlərinin tənqidi; 3) Şəhər-dövlət birliklərinin xüsusiyyətləri, dövlət və onun idarə edilməsi formaları; 4) İnsanın cəmiyyətdə yeri və vəzifələri, əmək fəaliyyəti, əxlaqı və tərbiyəsi; 5) Dövlət qurumlarının son məqsədi, xoşbəxtliyə çatmağın yolları və üsulları mühüm yer tutur.

Fərabi əsas diqqətini vətəndaş elmlərinə («İlm əl-mədəniyyə») yönəltmişdi. İctimai həyat və dövlət problemlərinə həsr etdiyi əsərlərində siyasi, hüquqi, etik və pedaqoji görüşləri kompleks şəklində əks olunmuşdur. Müsəlman ideologiyasına (dini kəlamlara) həsr etdiyi bölmələrdə Fərabi başlıca diqqətini siyasi elmlərə vermiş və onun öyrənilməsi ilə məşğul olmuşdu. Bu əsərlərdə müxtəlif qrupların şüurlu fəaliyyəti, adətləri və əxlaq normaları, təbii meylləri və xarakteri haqqında onun mülahizələri və çıxardığı nəticələr maraq doğurur.

Dövlət idarəçiliyindən bəhs edən Fərabi onun iki növdən ibarət olduğunu qeyd edir. Xalqı həqiqi xöşbəxtliyə aparan əsas dövlət idarəçilik sistemini ilkin növ dövlət forması kimi qəbul edən Fərabi xalqı yalançı xöşbəxliyə, illüziyalara aparan dövlət idarəçilik növünü ikinci növ dövlət forması hesab edərək təhlil və tənqid edir.

Fərabi etika və pedaqogika elmlərini müstəqil elm hesab etməyərək onları siyasi elmlərin tərkib hissəsi saymışdı.

Cəmiyyətin meydana gəlməsi problemi Fərabini daim düşündürmüşdü. O, müharibə və zorakılıq yolu ilə insanların vahid şəkildə birləşməsini qəbul etməmişdi. İnsanların birliyinin əsas səbəblərini onların maddi ehtiyaclarını ödəmək məqsədilə birləşdikləri tezisini irəli sürərək cəmiyyətin yaranması, daha da yüksəlməsi və təkmilləşdrilməsi üçün birləşdiklərini elmi cəhətdən əsaslandırmışdı. Fərabi cəmiyyətin yaranmasında insanın əmək fəaliyyənin həlledici rol oynadığını ön palna çəksə də, insanın sosial təbiətini açа bilməmişdi. Fərabiyə görə, insan cəmiyyəti bir neçə xalqdan ibarətdir ki, bunlar da bir-birindən adətləri, əxlaqı və dili ilə fərqlənir. Müxtəlif xalqların xarakter və mənəviyyatının coğrafi mühitlə bağlı olduğunu bildirərək cəmiyyəti böyük və kiçik cəmiyyətlərə bölür.

Fərabi ideal cəmiyyəti sağlam insan orqanizminə bənzədir. Bu cəmiyyətdə – orqanizmdə bütün orqanlar qarşılıqlı əlaqədə olub, yaşamaq və fəaliyyət göstərmək üçün bir-birinə kömək edirlər.

Fərabinin yaşadığı ilkin orta əsrlər dövründə cəmiyyətin həyatında ticarət, mədəniyyət və dövləti idarə etmək mərkəzləri kimi şəhərlərin rolu artmışdı. O, şəhər-dövlətləri xeyirxah, yaxud ideal («Əl-mədinə»), («Əl-fəzilə») və cəhalət, nadanlıq («Əl-mədinə», «Əl-cahiliyə») kimi iki qrupa bölürdü: bəd işlər baş verən şəhərləri cəhalət, insanların qarşılıqlı birlik və əməkdaşlığına xidmət edən şəhərləri xeyirxah, xoşbəxt şəhərlər adlandırırdı. Onun fikrincə xoşbəxt şəhərlərin əhalisi hər cür xöşbəxtliyə və nailiyyətlərə layiqdirlər. O həm də, bu xoşbəxtlik və bədbəxtlikləri feodal hökmdarlara, onların xeyirxah və bədxah əməlləri və fəaliyyətləri ilə əlaqələndirirdi. Xalqı sonsuz müharibələrə, ölkəni fəlakət və dağıntılara aparan, öz şəxsi məqsədləri üçün onları ağır vəziyyətə salan hökmdarları tənqid və ifşa edirdi. O, yer üzərində sülh və ədalətin olmasını, bütün xalqların vahid birliyini və dostluq arzu edirdi.

Fərabinin əsərlərində feodal cəmiyyətinin mürəkkəb sinfi strukturu öz əksini tapmışdı. O, idarəetməni və tabeçiliyi, ideal şəhərin təşkilati strukturunu bir neçə qrupa ayırırdı. Fərabi ya-

zırdı: «Şəhərdə müəyyən adamlar şəhər başçıları və onların göstərişlərini həyata keçirən, tutduqları vəzifə və bacarıqlarına görə fərqlənən şəxslər birinci dərəcəyə aiddirlər. Onlardan aşağıda duran adamlar birincilərin arzu və məqsədləri ilə əlaqədar hərəkət edirlər ki, onlar ikinci qrupa daxildirlər. Onlardan sonra gələnlər sonuncuların (ikinci qrupun) məqsədlərini həyata keçirənlərdir. Nəhayət, aşağı təbəqəyə malik olan sıravi şəhər adamları var ki, onlar əvvəlki təbəqələrin göstərişlərini yerinə yetirirlər». Burada Fərabi cəmiyyətdə müxtəlif siniflərin və təbəqələrin şəxsi keyfiyyətlərini və qarşılıqlı əlaqələrini göstərirdi. O, həm də əkinçilik və maldarlıqla məşğul olan kəndlilərin, sənətkarların, din xadimlərinin, ruhanilərin, fiziki və mənəvi əməklə məşğul olan digər sinfi təbəqələrin olduğunu xatırladırdı.

Şəhər və ya dövlət başçısının həyatda əldə etdiyi keyfiyyətlərdən bəhs edən Fərabi onda (şəhər başçısında) dərin əqli və digər intellektual mənəvi və əxlaqi keyfiyyətlərin olmasının zəruriliyini əsas hesab edir, daha sonra onun digər keyfiyyətlərinə – mənsub olduğu nəslə və ailəyə, maddi imkanlarına diqqət yetirirdi.

Fərabi bir tərəfdən istismarı təbii hadisə hesab edir, digər tərəfdən quldarlığı, asıllılığı rədd edir, belə cəmiyyəti insanı hüququndan və ləyaqətindən məhrum edən qeyri-hüquqi cəmiyyət və idarəçilik sistemi hesab edirdi. Onun arzusu, tezisi yer üzərində vahid xeyirxah cəmiyyətin qurulmasının mümkünlüyü, bütün xalqların qarşılıqlı köməyinin zəruriliyindən ibarət idi.

Özünün ideal dövlət haqqında mülahizələrində Fərabi dövlətin daxili və xarici vəzifələrini dəqiq müəyyən edir. Fərabiyə görə, dövlətin daxili siyasəti ilk növbədə onun əhalisinin həqiqi xoşbəxtliyini təmin etməkdən, ölkədə ədalətin, haqqın bərqərar edlməsindən, xalqın əxlaqi-mənəvi və intellektual tərbiyəsi normalarını təmin etməkdən ibarət olmalıdır. Qalan digər problemlər: iqtisadiyyat və siyasət əsas vəzifəyə tabe edilməlidir. Dövlət yalnız iqtisadi problemlərlə fəaliyətini məhdudlaşdırmamalıdır. Fərabi siyasəti başlıca vəzifə kimi götürən dövlət başçılarını nadan və cahil adlandırırdı. O, hesab edirdi ki, dövlətinin

başçısının əsas vəzifəsi şəhər əhalisini düşmənin xarici hücumlarından qorumaq, şəhər-dövlətin etibarlı müdafiəsini təşkil etməkdir. Bir-birini qarşılıqlı şəkildə məhv etməyə səy göstərən dövlət başçılarını Fərabi heyvanat aləmi prinsiplərini əsas tutan, insanlığı ləkələyən hökmranlıq metodu hesab edirdi. O, müharibələri 2 qrupa: ədalətsiz və ədalətli müharibələrə bölürdü. Ədalətli müharibələr xeyirxah məqsədlə – xalqı asılılıq və köləlikdən azad etmək, xeyirxah şəhər-dövlətə qarşı, onun adamlarının malını-mülkünü tutmuş, talamış düşmənə qarşı aparılır. Ədalətsiz müharibələr ayrı-ayrı hökmdarların şəxsi məqsəd və maraqları üçün özgə xalqları və dövlətləri talan etmək, asılı vəziyyətə salmaq üçün aparılan savaşdır.

Fərabi dövlət idarəçilik formalarından danışırkən onu ikinci dərəcəli məsələ hesab edir və dövlətin başlıca vəzifəsini xoşbəxtliyə nail olmaqda görürdü. Fərabi ideal dövlət qurmaq üçün 12 tələbi vacib hesab edərək dövlət idarəçilik qaydalarını və qanunlarını bilməyi, bu qanunları yaradıcı şəkildə tətbiq etməyi bacarmağı, hərb incəsənətinə yiyələnməyi, ədalət və düzgünlüyü və s. kimi amilləri əsas hesab edirdi. Fərabi yaşadığı feodal monarxiyası mühitində dövləti idarə edən şəxsdə bu keyfiyyətlərin hamısının olmasını arzulasa da, bütün keyfiyyətlərin bir adamda cəmləşməsini mümkün hesab edirdi. Bu səbəbdən də, ona görə təbiətən istedadlı və bacarıqlı adamlara az təsadüf olunur, onlar azlıq təşkil edirlər.

Fərabi şəhər-dövlət başçısı və kollektivə rəhbərlik vəzifələrinə ziyalılar içərisindən çıxmış ləyaqətli və savadlı feodalların irəli sürülməsini məsləhət görürdü. Rəhbərlikdə ağıllı və təcrübəli adamın olmaması həmin şəhər-dövlətdə gec-tez fəlakətə, məğlubiyyət təhlükəsinə səbəb olardı. Buradan göründüyü kimi, Fərabi bir tərəfdən xilafətin hökmranlıq ənənələri və qaydalarına, peyğəmbər tərəfindən ideal cəmiyyət qurmaqla iradəli, ağıllı, istedadlı və güclü hökmdar tərəfdarı kimi çıxış edirdi. Fərabiyə görə hərcmərcliyin, anarxiyanın hökm sürdüyü şəhər-dövlətdə güclü və ədalətli hökmdara ehtiyac vardır. Lakin şəhər və dövlət başçısı öz təbəələrinə münasibətdə ayrı-seçkliyə, ədalətsizliyə yol

verməməli, onun hamısına bir gözlə baxmalı, ölkənin birliyi və xoşbəxtliyinə çalışmalıdır. Fərabi hesab edirdi ki, xalq tərəfindən seçilən başçı mütləq hakimiyyətə malik hökmdara çevrilməməlidir. Lakin Fərabinin əsərlərində təsvir və təqdim etdiyi demokratik cəmiyyət anlayışı çox zəif, tam aydın olmayan, ehtimal ki, xəyali demokratik sistem kimi verilmişdi. Onun ictimai-siyasi baxışlarını tədqiq edən tarixçi A.M. Cahid göstərir ki, Fərabinin irəli sürdüyü dövlət idarəçilik formaları monarxiya, aristokratiya (daha layiqli feodalların kollektiv rəhbərliyi) və feodal-demokratik üsullarından ibarətdir. O, sonunculara daha çox üstünlük verir və onu müdafiə edirdi. Fərabi özünün «Xoşbəxtliyə aparan yol haqqında» kitabında bu idarəçilik formaları üzərində ətraflı dayanır və onun hər birinin mahiyyət və məzmununu özünəməxsus ustalıqla açırdı.

Fərabinin traktatlarında ictimai-siyasi məsələlərə tez-tez toxunulur, xalq hakimiyyəti və demokratiya anlayışlarına üstünlük verilir. Onun təsvir etdiyi şəhər-dövlətdə hamı öz hərəkətlərində bərabər hüquqlu və azaddır, burada tabeçilik, tabe olmaq, birinin digəri üzərində hakimiyyəti (hökmranlığı) yoxdur. Şəhər-dövləti idarə edən şəxs hamının hörmət etdiyi, saydığı adam olmalıdır… Ona görə də, belə bir şəhər-dövlətdə ən layiqli adamlar yetişir.

Fərabinin dini baxışları da xüsusi maraq doğurur. Ona görə din xoşbəxtliyə nail olmağa xidmət etməlidir. O, bütün dinləri bərabər hesab etdiyi kimi, islam dinini ehkam kimi qəbul etmir. O, hakim müsəlman dini ideologiyasının əksinə olaraq islam dininin başlıca vəzifəsini xalqın xoşbəxtliyinə nail olmaqda, hər cür sinfi-siyasi qruplaşmaların təsirinə düşməməkdə görürdü. O, xalqın və dövlətin maariflənməsində din xadimlərinin üzərinə düşən vəzifələrdən bəhs edərək yazırdı ki, dövlətdə yaşayan əhalinin dini etiqadından, onların müsəlman və ya qeyri-müsəlman olmalarından asılı olmayaraq din bütün xalqların nümayəndələrinə bərabər yanaşmalıdır. Dini ayrı-seçkiliyə və dini təriqətçiliyə yol verilməməli, onun daxilən parçalanması xəttini yürüdənləri, bu yolda yalan və böhtandan istifadə edənləri, dini öz mə-

nafeyinə, xidmət vasitəsinə çevirənləri ifşa edirdi. O, islam dinini müqəddəs hesab etdiyi üçün onun qayda və qanunlarına əməl edən, onun müqəddəsliyini qoruyub saxlayanlara hörmətlə yanaşıdı. «İlm-əl ulum» traktatının sonuncu bölməsində dini ehkamçılıq mövqeyində duran mütəzzəlitlərin dini mübahisə metodlarına qarşı çıxırdı.

Fərabinin dünyabaxışı IX-X əsrlərin mədəni nailiyyətlərinin yüksək sintezi kimi güclü və zəif cəhətlərə malikdir. O, əsərlərində mənəvi müəllimi və ustadı Aristotelin təlimini yeni tarixi şəraitdə-yaşadığı feodal mühtində Yaxın və Orta Şərq xalqlarının, o cümlədən Mərkəzi Asiya türklərinin mədəni nailiyyətləri zəminində inkişaf etdirməyə cəhd etmişdi. Onun təlimi o zaman hökm sürən feodal cəmiyyətinin insanlığa qarşı çevrilmiş qayda-qanunlara, islamın müqəddəs qanun və kəlamlarından öz şəxsi mənafeyi üçün istifadə edən cahil və ədalətsiz din xadimlərinə qarşı çevrilmişdi. Elə bu səbəbdən də, din xadimləri onu kafir, mürtəd və dinsiz adlandırmış, xalqın gözündə onu hörmətdən salmağa çalışmışdılar.

Fərabi öz əsərlərində ədalətli, yüksək inkişaf etmiş, azad və vahid cəmiyyət arzu edirdi və buna nail olmağın əsas yolunu maariflənməkdə, savad və elmdə görürdü. Onun təsvir etdiyi cəmiyyət xəyali-utopik cəmiyyət idi.

Orta əsrlərdə Yaxın və Orta Şərqin, o cümlədən Mərkəzi Asiyanın türk mənşəli xalqları içərisində öz mütərəqqi ictimai-siyasi, tarixi və fəlsəfi baxışları ilə fərqlənən əl-Fərabi özündən sonra böyük irs qoyub getmişdir. Onun təsiri altında öz vətənində, İran, Türkiyə, Qafqazda ərəb ölkələrində onun nominal fikirləri – maarifçilik ideyaları, ideal cəmiyyət və maarifçi müdrik hökmdar haqqında və b. sahələrdə təbliğ etdiyi ideyalar geniş yayılmışdı. Fərabinin ideyaları Biruni, Bəhmənyar, Nizami, Nəsimi, Beyhaki, Xosrov Nasiri, Ömər Xəyyam, Cami, Füzuli, Əlişir Nəvai, Əhməd Doniş kimi böyük elm və sənət korifeylərinin ictimai baxışlarına mühüm təsir göstərmiş, onun sənət və elm dünyasından minlərlə alim və ziyalılar işıq almışdır. Fərabinin sosial-siyasi ideyaları, tarixi-fəlsəfi görüşləri müasir dövrdə

istər Şərqdə, istərsə də Qərbdə bir çox tarixi, fəlsəfi və elmi cərəyanların ideya mübarizəsində mühüm istinad mənbəyidir. Yer kürəsinin tərəqqipərvər adamları, elm, ədəbiyyat və incəsənət xadimləri bu gün də Əbu Nəsr əl-Fərabiyə böyük hörmətlə yanaşır, onun zəngin ədəbi irsini öyrənməyə çalışırlar. Onun əsərləri dünyanın bir çox ölkələrində təkrar-təkrar çap olunur, onun haqqında geniş elmi axtarışlar aparılır, həyatı və yaradıcılığını əks etdirən tədqiqat əsərləri yazılır. Onun adına maarif, elm, mədəniyyət ocaqları vardır.

Fərabinin ideyaları dünya elm və mədəniyyət xəzinəsini bəzəyən nadir incilər olub, xalqın azadlığı uğrunda mübarizəyə xidmət etmiş və etməkdədir.

İKİNCİ FƏSİL

ƏBU-REYHAN ƏL-BİRUNİNİN İCTİMAİ-SİYASİ VƏ TARİXİ BAXIŞLARI

2.1. Əbu-Reyhan əl-Biruninin (973 -1048) dövrü, yaşadığı ictimai-siyasi həyat və mədəni mühit

Mərkəzi Asiyanın ensiklopedik alimi Əbu-Reyhan əl-Biruni inkişaf etmiş feodalizm cəmiyyətinin qərarlaşmağa başladığı, təlatümlü tarixi hadisələrlə dolu olan bir dövrdə, mürəkkəb və ziddiyyətli şəraitdə yaşayıb yaratmışdı. Bu dövrün kəskin siyasi-sinfi əksilikləri onun dünyabaxışında və elmi yaradıcılığında dərin iz buraxmışdı. Biruninin əsərlərindəki çoxsahəli elmi problemlərə maraq, fikir dərinliyi və müəllifin cəsarəti Mərkəzi Asiyanın və Şərqin digər ölkələri xalqlarının əsrlər boyu yaratmış olduqları zəngin elmi və mədəni əlaqələrin daha da inkişaf etdirilməsi insanlığı heyrətə gətirib onların Biruninin həyat və yaradıcılığına olan marağını daha da artırmışdı.

Müxtəlif nəsillərin düşüncəsi, səyi və zəhməti sayəsində Mərkəzi Asiyanın quru səhralarıda yaradılmış suvarma sistemləri, zəngin memarlıq üslubunda tikilən böyük şəhərlər, inkişaf edən sənətkarlıq və ticarət, beynəlxalq karvan yolları, çaylar və dənizlər vasitəsilə genişlənən əlaqələr Mərkəzi Asiyanın Şərq və Qərb ölkələri ilə iqtisadi, siyasi və mədəni əlaqələrinə müsbət təsir etmişdi. Çoxəsrlik antik və ilkin orta əsrlər dövlət həyatının ənənələri, siniflər arasında davam edən mübarizə və ideologiya-

lar, yazınn (karosti, xarəzm, soqd və b. dillərin) inkişafı bu dövrün görkəmli şəxsiyyətlərinin – Biruni, İbn-Sina, Nasiri Xosrov, Ömər Xəyyam, Baləmi, Firdovsi, Rudəki, Narşahi və başqalarının formalaşmasına və elmi fikrin inkişafına şərait yaratmışdı.

IX əsin birinci yarısından etibarən Mərkəzi Asiyada hakimiyyət yerli feodal sülalələrin – Samanilərin və Xarəzmşahların əlinə keçir. Bu isə ölkədə iqtisadiyyatın və mədəniyyətin dirçəlməsinə, feodalizmin inkişafının sürətlənməsinə səbəb olur. Lakin X əsrin əvvələrində Mərkəzi Asiyada hakimiyyətdə olan Samanilər sülaləsinin ağır böhran keçirməsi, ölkədə feodallarla xalq kütlələri arasında ziddiyyətlərin getdicə kəskinləşməsi, dövlət hakimiyyətinin zəifləməsi feodal ara müharibələrinin artmasına, onsuzda ağırlaşmış iqtisadi və ictimai vəziyyətin daha da kəskinləşməsinə gətirib çıxardı. Vəziyyətdən istifadə edən türk Qaraxanilər dövlətinin Mavərənnəhri işğal etməsi ilə Samanilərin hakimiyyətinə son qoyuldu. Sonralar bütün Sır-Dərya hövzəsi başdan-başa Qaraxanilərin əlinə keçdi. Amu-Dəryadan cənuba İran və Əfqanıstanın çox hissəsini əhatə edən keçmiş Samani torpaqları isə vaxtilə onların vassalı olan Mahmud Qəznəvinin hakimiyyəti altında güclü feodal dövlətinə çevrildi. Bu dövrdə yaşayan Biruni Hindistana dair böyük tarixi əsərində şikayətlənərək yazırdı: «Bu dövr elm üçün əlverişli deyil. Bizim günlərdə elmi biliklərlə və yeni kəşflərlə irəliləyiş mümkün deyil. Elm sahəsində indi əlimizdə olanlar yalnız əvvəlki zamanların biliklərinin adda-budda qalıqlarıdır».

Ömrünün çoxunu vətəndən uzaqlarda keçirən Biruni çox gənc ikən, təqribən 20 yaşında Xəzərsahili bölgələrə - Curcana, Təbəristana və b. yerlərə getmiş, Curcanda müəllimi, həkim və astronom, xristian əbu Səhl İsa əl-Nəsihi ilə görüşmüşdü.

Biruni müasiri gənc İbn-Sina ilə məktublaşır, fəlsəfi görüşləri ilə onu tanış edirdi. Biruninin 18 sualına İbn-Sinanın verdiyi cavablar iki böyük alimin geniş dünyagörüşünə malik olduğuna dəlalət edirdi.

Biruni elmi işlə yanaşı siyasətlə də məşğul olmuş, hələ Xarəzmşahlar dövləti Sultan Mahmudun hakimiyyəti altına düşənədək diplomatik fəaliyyətə rəhbərlik etmişdi. Məlumdur ki, Məmunilər sülaləsinin son nümayəndəsi öldürüldükdən sonra Sultan Mahmud Qəznəvi Xarəzmi tutumuş, Sultan Mahmudun əmri ilə Biruni 1018-ci ildə Qəznəyə köçürülmüşdü. Yaqut əl-Həməvi bu barədə yazır: «Bəzi alimlər mənə danışmışlar: Biruninin Qəznəyə gəlməsinin səbəbi o idi ki, Sultan Mahmud Xarəzmi tutduqda Birunini və onun müəllimi Əbd əs-Səməd əl-Hakimini əsir almışdı». Sultan Mahmud Birunini kafir qərmətilərlə əlaqədə təqsirləndirmiş, ona ölümünün yaxınlaşdığını hiss etdirmişdi. Sultan Mahmud Biruninin onun tərəfinə keçəcəyni güman etmiş və uzun müddət ona hamilik edərək dəfələrlə ölümdən xilas etmişdi. Alimə demişdilər ki, sən Sultan sarayının səma cisimləri elmi sahəsində məşhur alimsən. Lakin hökmdarın sənin kimisinə ehtiyacı yoxdur. Bunun üçün Sultan onu özü ilə Hindistana aparmışdı. Biruni burada yoxsul əhali arasında yaşamış, onların dilini və adət-ənənələrini öyrənmiş, bundan sonra ömrünün sonunadək Qəznədə yaşamışdır.

Samanilər dövründə (IX-X əsrlər) ölkədə feodal münasibətləri inkişaf etməklə bərabər, siyasi qruplaşmalar arasında sinfi ziddiyyətlər və hakimiyyət uğrunda mübarizə daha ciddi xarakter almışdı. Bu dövrdə yeni siyasi qüvvə kimi Mərkəzi Asiyada meydana gələn Qaraxanilərin tərəfinə keçən Samani dövlətinin din xadimləri və hərbi rəhbərlərin bir hissəsinin köməyi ilə Qaraxanilər dövləti Samanilərin Amu-Dərya çayı boyundakı mülklərini tuturlar. 999-cu ildə Samani dövlətinin mövcudluğuna son qoyularaq onlara məxsus geniş ərazi Qaraxanilər və Qəznəvilər arasında bölüşdürülür. Lakin Amu-Dəryanın qərbində o zaman hələ böyük siyasi nüfuza malik olan Abbasilərin xəlifə hökmranlığı davam edirdi. Xarəzmşah dövləti və onun paytaxtı Kətdə Əbu Abdullah Məhəmməd yaşayır və hökmranlıq edirdi.

X əsrin sonunda – 995-ci ildə Ürgənc əmiri Məmnun ibn Məhəmməd Kəti zəbt edib, həm də Xarəzmşah titutulunu daşı-

mağa başlamışdı. O, vaxtdan Ürgənc Xarəzmşah dövlətinin paytaxtına çevrilmişdi.

Xarəzmşah Məmun ibn Məhəmməd (992-997) və onun varisləri Mahmud Qəznəvinin (998-1030), Sultan Məsudun (1030 - 1041) və Mahmudun (1041-1048) zamanında Xarəzmşah dövləti xeyli qüvvətlənərək ölkələri və vilayətləri öz hakimiyyətləri altında birləşdirmişdi. 1017-ci ildə Xarəzmi işğal edən Mahmud Qəznəvi Məmunlar sülaləsinə son qoymuşdu. Biruni və onun silahdaşları və məsləkdaşları Xarəzmi tərk edib Qəznəyə köçürlər.

Amu-Dərya ilə Hindistan arasındakı geniş ərazidə möhkəmlənən Mahmud Qəznəvinin hakimiyyəti Hindistan hökmdarlarını, Bağdad xəlifəsini, Qaraxaniləri və Xarəzm hökmdarı Məmunları qorxuya salmışdı. Şimalda Sır-Dəryadan aşağıdakı çöllərdən tutmuş Dnepr çayına qədər oğuz və peçeneq qəbilələrinin siyasi qəribi olan oğuz yabqularının dövləti mövcud idi. Sır-Dəryanın aşağısından başlayaraq Cənd və Yenikənd şəhərləri də daxil olmaqla bu ərazilərdə oğuz başçıları arasında ciddi çəkişmələr və vuruşmalar davam edirdi.

Xarəzm coğrafi mövqeyi etibari ilə əlverişli beynəlxalq ticarət yollarının kəsişdiyi ərazidə yerləşirdi. Buradan Mərkəzi Asiya vasitəsilə Volqaboyuna, Monqolustana, Çin və İrana geniş ticarət yolları keçirdi. Xarəzm həm də köçəri halda çöllərdə yaşayanlarla da iqtisadi əlaqədə idi.

X əsrin ikinci yarısında Şərqi Avropa ilə ticarət əlaqələrinin artması Mərkəzi Asiyanın şimal-qərbində iki müstəqil dövlət: 1) Paytaxtı və padşah iqamətgahı Ürgəncdə yerləşən Şimali Xəzərin; 2) Paytaxtı və hökmdar iqamətgahı Kətdə yerləşən cənubi Xarəzm feodal dövləti vardı. Məhz belə bir mühit Əbu Reyhan Biruninin dünyagörüşünün formalaşmasında mühüm rol oynamışdı. Biruninin doğma dili Xarəzm türkcəsi olmuşdu. Biruni öz əsərləri üçün ona daha yaxın olan fars dilini mükəmməl, hərtərəfli bildiyi ərəb dilini deyil, Xarəzm türkcəsini elmi məqsədinə çatmaqda yegənə dil kimi qəbul etmişdi. Gənc yaşlarından hərtərəfli biliyə yiyələnməyə, elmin zirvələrini fəth etməyə can atan Biruni nəzəri biliklərlə kifayətlənməyərək hər şeyi emprik (təc-

rübi) yollarla dərk etməyə çalışmışdı. Biruni harada olsa-istər Curcanda, istər Qəznədə, istərsə də Bəlxdə rəssədxanalar yaradır, təbiətin sirlərinə vaqif olmaq istəyirdi. Uzun müddətli səyahətləri zamanı alim əldə etdiyi biliklərini daha da dərinləşdirmiş, təfəkkürünü zənginləşdirmişdi. Biruni siyasi çəkişmələrin biri digərini əvəz etdiyi, cəmiyyətin mütərəqqi qüvvələri ilə mürtəce qüvvələri arasında sinfi ziddiyyətlərin kəskiləşdiyi bir dövrdə yaşayıb yaratmışdı.

2.2. Əl-Biruninin həyat və yaradıcılığı

Əbu Reyhan Məhəmməd İbn əl-Biruni hicri tarixinin 362-ci ilinin zülhiccə ayının 2-də (miladi tarixi ilə 4 sentyabr 973-cü ildə) Xarəzm feodal dövlətinin paytaxtı Kət şəhərində anadan olmuşdu. Onun mənsub olduğu nəsil ilkin orta əsr Xarəzm əhalisindən ibarət idi. Biruni etnik mənşəyi etibarilə müasir Xarəzm özbək türklərini təmsil edirdi. Onun uşaqlıq və gənclik illəri haqında çox az məlumat vardır. Akad.İ.M. Muminovun Biruniyə həsr etdiyi əsərində onun yaxşı təhsil aldığını və gənc yaşlarıdan elmi yaradıcılıqla məşğul olduğunu göstərir. Onun doğulduğu yerin adı ilə əlaqədar soykökü Biruni ifadəsindən belə nəticə çıxarmaq olar ki, o, Kət şəhərinin mərkəzində (fars dilində-darun) deyil, şəhər ətrafında (birun) sənətkar ailəsində doğulmuşdu.

XIII əsr coğrafiyaşünas-səyahı Yaqut əl-Həməvi alimin həyatı haqqında məlumat verərək «Biruni» sözünün mənşəyini aydınlaşdırmağa çalışmışdır. Onun fikrincə, bu söz fars dilindəki «birun» (şəhərkənarı) sözündəndir. Mən bəzi alimlərdən (Xarəzmi) bu haqda xəbər aldım. Təsdiq edib dedilər ki, o, (Biruni) Xarəzmdə az yaşamışdır; xarəzmilər isə vətəni tərk edən hər kəsə «əl qərib» deyirdilər.

Akad. İ.Y.Kraçkovskiyə görə, Biruni bu təxəllüsü şəhər əhalisinin aşağı təbəqəsindən çıxdığına görə qəbul etmişdir. Həmçinin, o, Əbu Reyhan Məhəmməd ibn Əhməd adının da şərti olduğunu bildirir.

Biruni adının digər izahı da vardır. XIII əsrin tanınmış coğrafiyaçısı Yaqut əl-Həməvi monqol işğallarından bir az əvvəl Xarəzmdə olmuş və özünün «Tərcümeyi-hal lüğəti» adlı əsərində Xarəzmin yerli əhalisinin Biruni ifadəsi haqqında izahatını verərək yazırdı: «Xarəzmlilər öz vətənini tərk edən hər nəfəri Biruni adlandırırdılar. Əbu Reyhan Biruni isə vətənini üç dəfə tərk etmişdi. Buradan belə qənaətə gəlmək olar ki, dövrünün mühüm tarixi hadisələrinin şahidi olmuş Biruninin həyatı məşəqqətli və əzablı olmuş, tale onu uzun illər vətənindən didərgin salmışdı. O zaman Xarəzmdə baş verən siyasi hadisələrlə əlaqədar o, təxminən 998-ci ildən 1004-ilədək vətəni tərk edib Xəzər dənizinin cənubi-şərqində yerləşən Ürgənc şəhərinə köçüb orada yaşamışdı. Bu dövrdə o, iri həcmli «Keçmiş nəsillər haqqında abidələr» və ya «Xronologiya» adı ilə məşhur olan tarixi əsərini yazmışdı.

Elm aləmində Biruni özünü ilk dəfə astronom kimi göstərmişdi. Onun astronomik tədqiqatlarla 21 yaşı olduğu zaman məşğul olduğu göstərilir. Lakin Biruni irsini tədqiq edən rus şərqşünası R.Y.Bulqaqov sübut etmişdir ki, o, 17 yaşında Həbəş əl-Nalibin astronomiya cədvəlindən istifadə edərək 990-cı ildə astronomik müşahidələrini aparmışdı. Buradan məlum olur ki, aşağı təbəqədən olan Biruni artıq X əsrin 90-cı illərinin sonunda savadlı və kamil təhsil görmüş astronom və riyaziyyatçı kimi tanınmışdı. Biruni Xarəzmin bir sıra yaşayış məntəqələrini ölçmək üçün xüsusi astronomik alətlər ixtira etmişdi.

990-992-ci illərdə Samanilər dövlətini məğlub edən Qaraxani hökmdarı Xarəzmi tutur. Ürgənc əmiri Məmun ibn Məhəmməd Kət şəhərini işğal edib Xarəzm hakimi Əbu Abdullah Məhəmmədi öldürməyi əmr edir və onun ölkəsinin hər iki hissəsini öz torpaqlarına birləşdirib Xarəzmşah titulunu qəbul edir. Feodal-partiarxal qruplaşmaları arasındakı mübarizədən cana gələn Biruni Xarəzmdən qaçmağa məcbur olur. O, Tehran yaxınlığındakı Rey şəhərinə gələrək sultan Fəxr-əz-Dövlənin sarayında çalışır. Xocəndi Biruninin ixtiraları ilə tanış imiş və ona yüksək qiymət verirdi.

Qeyd etmək lazımdır ki, bundan hələ xeyli əvvəl Xarəzmşah dövlətinin zəifləməsi və 995-ci ildə onun müstəqilliyinin ləğvi ilə əlaqədar Biruni Xarəzmi müvəqqəti tərk edib Məmunların hökmran olduğu paytaxta-Ürgəncə köçməyə məcbur olmuşdu.

988-ci ildə Biruni Xəzər dənizinin cənub-şərq sahilində yerləşən Cürcan vilayətinin paytaxtı Cürcan şəhərinə hökmdar Kabus İbn-Vəşmgirin dəvəti ilə gəlib elmlə məşğul olmağa başlayır. Cürcanda Biruni 11 il – 998-1000-ci illərdə yaşamışdı. Burada o, özünün ilk əsərini – «Əsarrabaqiyə an əl-quruni əl-haliyə»ni – «Keçmiş nəsillərdən qalan izləri» («Xronologiya») ona ithaf etmişdir. 1009-cu idə o, yenidən Xarəzmə qayıdaraq 1017-ci ilə kimi Əbu Abbas ibn Məmunun sayında Xarəzmşahın siyasi məsləhətçisi kimi çalışmışdır.

Görkəmli ərəb alimi, coğrafiyaçı Yaqul əl-Həməvinin (1179-1229) yazdığına görə hökmdar Kabus Biruniyə sarayında vəzir vəzfəsini təklif etmiş, lakin Biruni bütün həyatını elmə həsr etmək arzusunda olduğundan onun bu təklifindən imtina etmişdi. Ehtimal ki, bu hadisə onların münasibətlərinin pozulmasına səbəb olmuşdu. 1109-cü ildə Xarəzmin yeni hökmdarı Əbu Nəsr Əli ibn-Məmunun təklifi ilə vətənə qayıdaraq onun yeni paytaxtı Ürgəncdə yaşamağa başlayır. Biruni həyatının üçüncü dövrü – Xarəzm həyatı (1009 -1017) haqqında sonralar yazdığı «Xarəzm tarixi» əsərində xeyli məlumat verir. Bununla əlaqədar dövrün görkəmli tarixçisi Əbül Fəzl Beyhakinin «Məsudun tarixi» kitabında da məlumat vardır. Xarəzmdə şah sarayında onun hansı vəzifə tutması məlum olmasa da, lakin əsərdəki məlumatlardan aydın olur ki, Biruninin Xarəzm hökmdarı ilə münasibətləri yaxşı imiş. Xarəzmşahın məsləhətçisi olmuş Biruni eyni zamanda astronomiya və digər elmlərlə yaxından məşğul olmuşdu.

1017-ci ildə Qaraxani hökmdarı Mahmud Qəznəvinin Amu-Dəryanın sol sahillərini işğal edib Xarəzmi alması, ilk dövrlər Xarəzm hökmdarı ilə onun dostluq münasibətləri, hətta Məmunun Mahmud Qəznəvinin bacılarından birinə evlənməsinə baxmayaraq sonralar Mahmud Qəznəvi Məmuna siyasi təsir və təzyiq göstərərək onun idarə etdiyi Xarəzm şahlığını özünün bir

əyalətinə çevirmək siyasəti yeritməyə başlayır. Mahmud Qəznəvi tezliklə Xarəzmi işğal edib çoxlu adamları, o cümlədən Biruni və onun müəllimi İbn İrakı əsir götürdükdən sonra onlar Qəznəyə (Əfqanıstanın cənub-şərqinə) getməyə məcbur olurlar. O, burada ömrünün sonunadək yaşayır. Beləliklə, Biruninin həyatının Qəznə dövrü başlayır. Onun ilk illəri burada ağır keçir, alimin həyatı bir neçə dəfə təhlükəyə məruz qalır. Hətta Mahmud Qəznəvi onu imansızlıqda ittiham edərək Qəznəlilərin düşmənləri olan qərmətilər hərəkatı haqqında yazdığı əsərə görə edam etmək haqqında əmr verir. Birunini bu cəzadan Mahmud Qəznəvini vəziri Xacə Həsən xilas etmişdi.

Biruni dövrünün ensiklopedik biliyə malik alimi idi. Onun üçün heç bir şeyin gizli qalmadığını yəqin etmək məqsədilə bir gün Mahmud Qəznəvi Biruniyə təklif edir ki, onların yerləşdikləri binanın arxa tərəfindəki 12 qapının hansından onun çıxacağını söyləsin. Biruni astronomik hesablamalarla onun hansı qapıdan çıxmaq ehtimalını hesablayıb nəticəsini onun oturduğu kürsünün altına qoyur. Mahmud Qəznəvi həmin kağızı oxuduqdan sonra onun arxasındakı divarın sökülüb hansı qapıya çıxacağını yoxlamaq istəyir. Biruninin qeydlərindəki qapı ilə sökülən divarın arxasındakı qapı onun çıxış yolu olduğu müəyyən edilir və Mahmud Qəznəvinin Biruniyə olan münasibəti dəyişir.

Biruninin elmi yaradıcılığı, dərin təfəkkürü Qəznəvi sarayında olan astroloqların Biruniyə düşmən münasibətinə səbəb olmuşdu. Biruni onların ikiüzlü və fırıldaqçı olmasını bilirdi və öz elmi yaradıcılığında ardıcıl və prinsipial mövqe tutaraq heç bir düşmənçiliyə rəvac vermirdi. Biruninin Qəznə dövrü Mahmud Qəznəvi ilə münasibətlərində ağır mərhələ olsa da, bu dövr onun yaradıcılığının məhsuldar illəri hesab olunur. Məhz o, burada özünün bir çox əsərlərini yazır. Qəznəyə gəldikdən sonra o, «Xarəzm tarixi» əsərini qələmə almağa başlayır. Bu əsərin hissələri ilə tanış olan Ben Əbülfəzl təsdiq edir ki, əsər Mahmud Qəznəvinin Xarəzmi işğal etməsindən sonra yazılmışdır. Əsərdə təsvir olunan hadisələr müəllifin şəxsi xatirələrindən ibarət olub Xarəzmin faciəli günlərindən bəhs edir. Vətənpərvər alim kimi

siyasi fəaliyyətini davam etdirən Birunini vətəninin taleyi narahat edir. Bu əsərdə Xarəzmin qədim tarixinə dair maraqlı məlumatlar çoxdur.

Biruni Mahmud Qəznəvinin Hindistana səfərində iştirak edir, hətta bir müddət şimali Hindistanda Nandna qalasıda olur.

Biruni hind mədəniyyətinə yüksək qiymət verir, onların əldə etdiyi elmi nailiyyətləri başqa xalqların, o cümlədən islam dünyası ölkələri alimlərinin ixtiraları ilə müqayisə edirdi. Özünün hind alimləri ilə münasibətlərindən bəhs edən Biruni yazırdı: «Əvvəllər mən hind asironomları içərisində şagirdin müəllimə olan münasibəti səviyyəsində idim, çünki mən onların arasında həm qərib, həm də onların elmi nailiyyətləri və metodları ilə yaxıdan tanış deyildim. Sonralar mən bir qədər sərbəst hərəkət edib, onların nəzəriyyə və təcrübələri ilə tanış olub öz elmi baxışlarımı və münasibətimi, məntiqi mühakimələrimi və riyaziyyat elmi sahəsində həqiqi metodlarımı onlara göstərib sübut etdikdən sonra onlar mənə yaxınlaşdılar və məndən məsləhət almağa başladılar. Mən hind alimlərinin bir sıra əsərlərini ərəb dilinə tərcümə etməklə yanaşı Evklidin «Başlanğıc», Ptolomeyin «Almaqest» və özümün «Astrologiya» əsərini hind dilinə tərcümə etdim.

1030-cu ildə Mahmud Qəznəvinin ölümündən sonra Biruninin həyatında yeni dövr başlayır. Mahmud tax-tacını kiçik oğlu Məhəmmədə vəsiyyət etsə də, o cəmi bir neçə ay hökmranlıq edir. Qardaşlar arasında hakimiyyət uğrunda mübarizədə qalib gələn Məsud (1030-1041) müxalifət dairələrində özünə dayaq tapmaq məqsədilə kömək axtarır. Baş verən hadisələr Biruninin saray həyatına da təsir edir. Məsud ona himayədarlıq etməyə başlayır.

Yaqul əl-Həməvi qeyd edir ki, sultanın (Mahmudun) oğlu Məsud astronomiya ilə maraqlanır və elmi-tədqiqatlara həvəs göstərirdi. Bir dəfə Biruni və Məsud elmi məsələlərin müzakirəsi ilə məşğul ikən gecə və gündüzün fərqi və uzunluğunu dəqiqləşdirərək Biruni ona deyir: «Sən hökmdarlar içərisində Şərqlə Qərb, habelə yer üzərini idarə etməyə qadir yeganə hökmdarsan.

Bu nüfuza malik olan adam gecə və gündüzün bir-birini əvəz etməsini və onların fəaliyyətini, yer üzərində həyatı və hətta səhraları yaxşı bilməli, tanımalıdır». Yaqul əl-Həməvi qeyd edir ki, Biruni hökmdara ərəb dilini öyrədirdi. Məsud isə öz mehribanlığı və elmə olan həvəsi ilə müəllimini razı salır, Biruniyə sevinc bəxş edirdi. Biruni «Məsudun Qanunu» kitabının müqəddiməsində yazırdı: «O, (Məsud) hələ gənc yaşında ikən mənə həyatımı elmə xidmət etməyimə şərait yaratmışdı. O, mənə sərbəstlik verməklə bərabər, həm də qayğıma qalırdı. Onun mənə yaxınlıq göstərməsi və mehribanlığı, mənə göstərdiyi şərəf və hörmət, xəzinə və bəxşeyşlər başıma yağış kimi yağırdı».

Biruni özünün ən böyük elmi əsəri olan «Astronomiya və ulduzlar haqqında Məsudun Qanunu» kitabını hökmdara – Məsuda həsr etmişdi. 1036-1037-ci ildə yazıb başa çatdırdığı bir əsərinin girişində o, Məsud haqında yazırdı: «O, mənə həyatımın qalan hissəsii tamamilə elmə həsr etməyə imkan yaratmış, mənə onun diqqət və nüfuzu altında yaşamaq imkanı vermişdi». Lakin Məsudun hökmranlığı çox davam etmədiyi kimi, Biruinin də xoşbəxt günləri uzun sürmür. 1040-cı ildə Qəznəvi dövləti üzərinə hücum edən köçəri səlcuqlarla döyüşdə əsir düşən və 1041-ci ildə qəhrəmancasına həlak olan Məsudun ölümündən sonra onun mülklərinin kiçik bir hissəsində hökmranlıq edən oğlu Məsudun vaxtında (1041-1048) Biruninin vəziyyəti ağırlaşır. Məsudun həlak olması Birunini sarsıdır. Biruni özünə hami (himayədar) axtarmayıb ömrünün sonuna kimi Məsudun sarayında qalıb ona xidmət edir. Ölümündən br qədər əvvəl – 1048-ci ilin ortalarında o, «Qiymətli daşlar haqqında məlumatlar», yaxud «Minerologiya» traktatını yazıb qurtarır. Ömrü boyu topladığı zəngin materiallar əsasında yazılmış bu kitab Şəqrdə minerologiya elmi sahəsində ilk sanballı tədqiqat əsəri idi. Ömrünün sonunda ağır xəstələnən Biruni «Kitab əs-soydana» («Tibbi dərmanlar haqqında kitab») əsərini tamamlayır. Yaqul əl-Həməvi «Məəsum əl-Übadə» («Ədəbi seçimlər») əsərində görkəmli ərəb alimi Hadi Kəsir ibn Yaqut əl-Bağdadidən öz kitabında istifadə etdiyi rəvayətdə göstərir ki, Biruni can üstündə ikən ona öz

dostlarından ixtisasca hüquqşünas olan Əbül Həsən Əli ibn İsa əl-Vəlvələçi yaxınlayşır. Əbu Reyhan ondan soruşur: «Bir dəfə sən mənə «Cəddad əfəsidə» haqqında danışmışdın ki, o nə idi»-deyə izah etməsini xahiş edir. Vəlvələçi ona yazığı gələn kimi baxıb deyir: «Məğər belə vaxtda elmi problemlərlə məşğul olmaqmı olar?». Əbu Reyhan ona cavabında: «Ey mənim dostum, məğər bu məsələləri bilib dünya ilə vidalaşmaq yaxşıdır, yoxsa bilmədən o dünyaya getmək». Onda müsahibi həmin məsələni ona söyləyir və Əbu Reyhan bimədiyini öyrənir.

Vəlvələçi otaqdan çıxıb evinə dönmək istəyərkən Biruninin evində ağlaşma səsi eşidir və ona məlum olur ki, Biruni artıq yoxdur».

Buradan belə nəticəyə gəlmək olar ki, böyük alim ölüm ayağında ikən belə elmi, biliyi insan həyatının mənəvi borcu hesab edirdi.

Biruni təxminən 80 yaşına yaxın, hicri tarixinin 440-cı il rəcəb ayının 2-də (11 dekabr 1048-ci il) Qəznədə vəfat etmişdir. Onun ölümündən təxminən bir əsr yarım sonra tarixçi Şəhrazuri Biruni haqqında yazırdı: «Biruni ən zəruri və vacib adətlərlə kifayətlənməyə ciddi riayət edirdi. Maddi nemətlərə, şöhrət və vara meyl etmədən onlara adi hal kimi baxan, özünü tamamilə elmə həsr edən, həmişə əyilərək kitab tərtib etməklə (yazmaqla) məşğul olan, əli qələmdən heç vaxt ayrılmayan, gözləri ilə daim müşahidələr aparan, ürəyi və beyni düşüncələrə dalan Biruni ildə yalnız iki gün – Yeni il – Novruz günü və Mərcan günü özünə ərzaq, paltar ehtiyatı qayğısına qalardı. Bu zaman çətinlik pərdəsini üzündən atar və uzanan dırnaqlarından utanıb tutardı».

Dünya malında gözü olmayan Biruni haqqında çoxlu rəvayətlər və əfsanələr mövcuddur. İki etibarlı mənbədə göstərilir ki, Məsud Birunini mükafatlandırmaq məqsədilə ona göndərdiyi fil sümüyü və gümüş pulları qəbul etmiş, sonra onları xəzinəyə qaytarmışdı.

Biruni yaradıcılıq xarakterinə görə Şərqin əksər alimlərindən fərqlənirdi. İlahiyyət, hüquq, quranşünaslıq, fəlsəfə fənlərinə xüsusi diqqət yetirən görkəmli alimin əsərlərinin böyük hissə-

si fizika-riyaziyyat, geologiya, coğrafiya, tarix-ədəbiyyat və digər humanitar elmlərə həsr olunmuşdu. O, orta əsrlər elmində təcrübi metodun banilərindən biri idi. Biruniyə görə yalnız təcrübə nəzəriyyənin əsası və həqiqətin meyarı ola bilər. O, təcrübə və müşahidələrə xüsusi əhəmiyyət verirdi.

Biruni yaadıcılığının səciyyəvi əlamətlərindən biri də, yalançı elmlərə rasional skeptik münasibət bəsləməsi idi. Onun sosiologiya, əxlaq və etika məsələləri ilə bağlı maraqlı mülahizə və fikirləri, cəmiyyət həyatına dair ideya və arzuları vardı. O, bütün dilləri təbliğ etməkdən uzaq olsa da, onların hamısına hörmətlə və bərabər tərzdə yanaşırdı.

Biruni dövrünün digər alimləri kimi insan cəmiyyətinin strukturundan həbs edərkən onu iki qrupa: qeyri-maarifçi kütləyə və maarifçi elitaya, və ya yuxarı təbəqəyə bölürdü. O, özünü cəmiyyətin yaxşı hissəsinə mənsub edir, bir çox məsələləri həll edərkən əqlin, dözümlülüyün və obyektivliyin gücünə arxalanmağı əsas tuturdu. Özu mərd və cəsarətli olduğundan düzgünlüyü və həqiqəti söyləyənləri müdafiə edənlərə hörmət bəsləyidi. O, dəfələrlə doğma şəhəri Xarəzmdə böyük çətinliklə üzləşdiyi anda, hətta Mahmud Qəznəvi sarayında əsir olduğu günlərdə belə mərdlik və cəsarətlilik göstərmiş, həqiqəti söyləməkdən çəkinməmişdir. Onun yaradıcılığı Yaxın və Orta Şərqin bir çox görkəmli alimləri nəslinə böyük təsir göstərmiş, onun sənət ilhamından və elmindən bəhrələnən XIII əsrin mütəfəkkiri görkəmli riyaziyyatçı və astronom Nəsirəddin Tusi Birunini «böyük alim və müəllim» adlandırmışdı. N.Tüsinin muasiri və həmkarı Suriya alimi və həkimi Əbül-Fərəc (Bar Erbey) Biruni haqqında yazırdı: «Onun çoxsaylı əsərləri kamil və son dərəcə etibarlıdır, müasirləri və ondan sonrakı alimlər arasında onun tayı-bərabəri yoxdur».

Biruni riyaziyyat, astronomiya, coğrafiya, naturfəlsəfə, minerologiya, təbabət, təbiətşünaslıq, tarix, etnoqrafiya, filologiya və elmin bir çox sahələrinin aktual məsələlərinə dair 170-ə yaxın əsər yazmışdır. Bunların 143-ü onun özü tərəfindən tək müəllif kimi, 27-si isə yaxın tələbələri və məsləkdaşları Əbu Nəsr

ibn İraq, Məsihi, Əbu Əli Həsən ibn-Əli Cəlil və b. iştirakı ilə yazılmışdır.

2.3. Biruninin humanitar irsi, ictimai-siyasi baxışları

Orta əsr Şərqində Biruni qədər elmin qarşısında duran, elm adamlarının vəzifələrini dərindən dərk edən insan və cəmiyyət qarşısında duran vəzifəsini başa düşən elm xadiminin adını çəkmək çətindir. Biruniyə görə alimin vəzifəsi, borcu elmə şəxsi məqsədləri və nüfuzu üçün deyil, elmin və insanların tələblərini həyata keçirmək üçün sədaqətlə xidmət etməkdən ibarətdir. Biruni yer kürəsini idarə edən və onun bünövrəsini qoyan yaradıcının – Allahın rolunu qəbul edirdi. O, elmi dini və dünyəvi elmlər qrupuna bölür, dini elmlərin ilahiyyata, dünyəvi elmə, əqlə, düşüncəyə əsaslandığını göstərirdi. Bu cür tələb şübhəsiz o dövr üçün mütərəqqi və inqilabi tələb idi. Belə bir ideyanı irəli sürən Biruni dərk edirdi ki, o, hakimiyyətdə olan din xadimləri və dünyəvi hökmdarlar tərəfindən nə qədər hədələrə və təhlükələrə rast gələcək. Lakin o, bunların qarşısından geri çəkilməyərək elmə qarşı mübarizə aparan qüvvələri nifrətlə ifşa edirdi. Onun üçün dəqiq və humanitar elmlər bir-birindən təcrid edilmiş sahə deyil, vahid bilik kompleksi idi. Bütün elm sahələri nümayəndələrindən universallığı tələb edən Biruni «Geodeziya» əsərində yazırdı: «Həyatını müəyyən elm sahəsinə həsr edən şəxs elmi və təcrübi tədqiqatlarında dəqiq olmaq üçün fəlsəfə, tarix, coğrafiya və xronologiyanı bilməlidir. Əlbəttə, bütün elmlərin əsaslarını ayrılıqda öyrənməyə bir insanın ömrü çatmaz». Biruni göstərirdi ki, tarixi, coğrafiyanı və xronologiyanı bilmək dəqiq emlər sahəsi ilə məşğul olan alimlərə, astronomiyada keçmiş dövrlərdə aparılan müşahidələrin nəticələrini və hansı şəraitdə aparıldığını, buraxılan qüsurların düzədilməsini tarixi cəhətdən bilmək zəruridir. O, «Məsudun…Qanunu» kitabında bir sıra nümunələr gətirməklə sübut edir ki, qədim tarixi dərindən bilmək antik alimlərin astronomik müşahidələrin düzgün tarixini müəyyənləşdirmək və keçmiş müşahidələrlə bu gün apardığımız

müşahidələrin zaman etibari ilə fərqini öyrənmək vacib şərtlərdəndir. Biruninin dəqiq elmlər sahəsinə həsr olunmuş əsərlərində tarix, fəlsəfə, filologiya baxımından bağlılıq və qarşılıqlı əlaqə güclü idi.

Biruni tarixçiyə məxsus iki keyfiyyəti əsas götürürdü :1) Bütün xalqlara bərabər münasibət və son dərəcə obyektiv olmaq, ayrı-ayrı şəxslərin fəaliyyət və xidmətlərini tarixi nöqteyi-nəzərindən qiymətləndirərkən irqi, dini və yaxud sülalə təsirinə qapılmamalı; 2) Hər bir hadisəni öyrənməyə cəhd edərkən, xüsusən etnoqrafiya sahəsində müxtəlif xalqların, yaxud dini qrupların müqayisəli planda ətraflı araşdırıb öyrənmək lazımdır. Bu iki cəhət Birunini digər orta əsrlər Yaxın və Orta Şərqin görkəmli tarixşünaslarından fərqlənirdi.

Özünün ilk əsərlərindən olan «Xronologiya» da Biruni tarixçinin qarşısına aşağıdakı tələblər qoyurdu: əvvəlcədən insanların əksəriyyətinin beynini korlayan (pozan) axmaq keyfiyyətlərdən qəlbini təmizləmək, həqiqət naminə mübarizədə insanları kor edən rəqabət, hakimiyyət uğrunda vuruşmadan və digər adətlərdən təmizləmək zəruridir. Yalançılığı və qeyri-obyektivliyi öz əsərlərində təbliğ edən tarixçiləri Biruni xalqın və dövlətin düşməni adlandırırdı. O, tarixi tədqiqatları mövzularına görə beş qrupa ayırırdı:

1. Qədim və Orta Şərqin ümumi tarixi. Biruni burada müxtəlif xalqların-yunan, yəhudi, Bizans, İran, Suriya, soqdi, Xarəzm xalqlarının, ərəblərin və hindlilərin xronoloji sistemi ilə maraqlanmış, əsərlərini astronomik cədvəllərdən istifadə olunmaqla yazıldığı dövrün tarixi hadisələrini müqayisə etmişdi. Biruninin ikinci və üçüncü kitabı olan «Məsudun … Qanunu» və «Xronologiya» əsərlərində Şərqin müxtəlif dövlətlərinin hökmdarlarının hakimiyyət illəri, onların idarəçilik qaydaları, müharibələr və xalq üsyanları, kənd təsərrüfatı işlərinin gedişi, vergi siyasəti və s. haqqında çoxlu məlumatlar vardır.

2. Mərkəzi Asiyanın müasir (Biruni yaşadığı dövru nəzədə tutur) tarixi. Doğma vətəni Xarəzmin və Qəznəvilər dövlətinin tarixi ilə xüsusi maraqlanan Biruni «Geodeziya», «Minerolog-

iya» və «Hindistan tarixi» əsərlərində Xarəzm, habelə Qəznə hökmdarları haqqında maraqlı məlumatlar vermişdi. O, əsərlərində Mahmud Qəznəvinin Hindistana işğalçılıq məqsədilə etdiyi hərbi səfərlərə üstü örtülü şəkildə toxunmuş və onu ittiham etmişdi. Mahmud Qəznəvinin sonuncu səfərini qiymətləndirən Biruni yazmışdı: «Mahmud tərəqqi edib çiçəklənən hindliləri məhv etdi, onların ölkələrində elə möcüzələr yaratdı ki, onlar sovrulmuş külə döndülər. Nəticədə onların qalıqları müsəlmanlara yad münasibət bəsləməyə başladılar. Bu səbəbdən də, onların elminə son qoyuldu, ölkənin işğal olunmuş hissəsində həyatın-yaşayışın mövcudluğuna son qoyuldu, nəticədə onlar belə ucqar yerlərə köçdülər ki, heç kəs – yad əllər onları tuta bilməzdi».

Birüni «Geodeziya» əsərində Qəznə hökmdarı Mahmud tərəfindən Xarəzmşaha edilən təzyiq və təsirlərdən bəhs edərək Xarəzmşahı fəaliyyətsizlikdə, müqavimət göstərməməkdə, xalqı öz ətrafına toplayıb mübarizə aparmamaqda təqsirləndirir.

Biruni Xarəzm tarixinə və Qəznəvilərin evi (dövləti) tarixinə iki xüsusi tarixi əsər həsr etmişdi. Onların heç biri bizə gəlib çatmamışdır. Lakin Yaqul əl-Həməvi qeyd edir ki, mən onları görmüşəm, bunlar «Xarəzm haqqında xəbərlər söhbəti» və «Sultan Mahmud günlərinin tarixi, onun atası haqqında xəbərlər» dir.

3. Şərq xalqları elminin tarixi. Biruni yuxarıda adları qeyd olunmuş əsərlərində ilk dəfə olaraq orta əsrlər elminin tarixini ətraflı şərh etmiş, Hippokratdan başlamış öz dövrünə qədər elmin, o cümlədən astronomiyanın tarixinə dair əsərləri ilə elm tarixçisi olduğunu sübut etmişdir. Biruninin əsərlərində İbn Sinanın, Xarəzm riyaziyyatçısı və astronomu Azarhur ibn Camnasın, digər mənbələrdən bizə məlum olmayan Əbu Bəkr əl-Razinin, müəllimi Əbül Abbas əl-İranşəhrinin həyatı və elmi fəaliyyəti haqqında maraqlı məlumatlara rast gəlirik.

4. Şərq xalqlarının etnoqrafiyası. Biruni «Hindistan tarixi» əsərində özünü etnoqraf kimi göstərmişdir. Əsərlə tanışlıq göstərir ki, o, hind xalqının keçmişindən başlayaraq yaşadığı dövrə

qədərki çoxəsrlik tarixi ilə maraqlanmışdı. Sanskrit mənbələrinə və şəxsi müşahidələrinə əsaslanan Biruni əsərində hindlilərin adət-ənənələri, bayramları, kastaları (təbəqələri) ərzaq, paltar, yemək, kəbin növləri, ailə münasibətləri, cinayət, irsi hüquq qaydaları və s. barədə maraqlı və zəngin məlumatlar verir. O, hind xalqı ilə yanaşı islamaqədərki ərəb, fars (İran) və digər orta əsr Şərq xalqlarının müqayisəli etnoqrafiyasını yarada bilmişdir. Biruni «Xronologiya» və «Məsudun … Qanunu» adlı tarixi əsərlərində Mərkəzi Asiya xalqları: xarəzmlilərin, soqdilərin və türklərin tarixi, etnoqrafiyası və onların zəngin irsi haqqında yeni məlumatlar vermişdi.

5. Şərqdə dinin və yeserlərin tarixi. Biruni «Fixrist» əsərində hələ gəncliyindən bütün həyatı boyu axtarıb topladığı islam dini qanunlarına görə qadağan olunmuş dini nəzəriyyələri – «Mani» çiliyi, «ağ adamlar» haqqında təlimə dair nəzəriyyələri izləmişdi. Onun «Xronologiya» və «Məsudun … Qanunu» kitabının ikinci hissəsində həmin dini təriqət və ehkamlar, islamaqədərki ərəb Şərqində xristian kilsələri, iudaizm – İsa peyğəmbərin dini sektaları və ayinləri, Mərkəzi Asiyada qeyri-müsəlman adətləri və ehkamları haqqında xeyli məlumat vardır.

Biruninin bizə gəlib çatan mühüm əsərləri aşağıdakılardır:

1. «Əl-əsər əl-baqiyyə ən əl-durun əl-xaliyyə» (Keçmiş nəsillər haqqında abidələr» və ya «Xronologiya»;

2. «Təhdid nihayət əl-əməkin il təhih məsafət əl-məskun» («Yaşayış məntəqələri arasındakı məsafəni dəqiqləşdirmək üçün yerin son sərhədlərinin təyin edilməsi»);

3. «Qanun əl-Məsudu fi-l-həya və ən-nücum» («Astronomiya və ulduzlara aid Məsudun cədvəli» ;

4. «Ət-təhfim li əvail sinayət əttəncim» («Nücum sənətinin ibtidaisinə dair anlayış»);

5. «Təhir məli-l-hind min məqalə fi-l-ədlav-mərzulə» (Ədl tərəfindən qəbul və ya inkar edilən, hindlilərə məxsus kitabə»);

6. «Kitab əl-cəmahir fi məraifət əl-cəvahir») «Mineralogiya», «Qiymətli daşların (Cəvahirlərin) öyrənilməsi üçün məlumat kitabı»);

7. «Kitab əs-saydana fi-tibb» («Farmakonoziya», yaxud «Təbabətdə əczaçılıq haqqında kitab»);

Biruninin qeyd olunan əsərlərinin bəzilərinin məzmununa diqqət yetirək.

a) Biruninin «Keçmiş nəsillər haqqında abidələr» və yaxud «Xronologiya» əsəri.

Biruninin ilk iri həcmli əsərlərindən olan «Əl-əsər əl-baqiyyə ən əl-durun əl-xaliyyə» (Keçmiş nəsillər haqqında abidələr» və yaxud Avropada «Xronologiya» adı ilə məşhur olan bu əsər hicri tarixinin 390-cı ilində (miladi tarixinin 1000-ci ilində) yazılıb başa çatdırılmışdır. O vaxt Biruninin 27 yaşı olmuşdu. «Bu əsərə indi də Yaxın Şərq ədəbiyyatı və tarixində bərabər əsər yoxdur»-deyən akad. İ.Y. Kraçkovski və akad. S.R. Tolstoy onu Yaxın və Orta Şərq, o cümlədən Mərkəzi Asiya xalqlarının təsərrüfat həyatının, əxlaqının, adət-ənənlərinin və dini inamlarının ensiklopediyası» adlandırmışlar.

Əsərdə müəllif Mərkəzi Asiyanın və Şərqin görkəmli maarifçilərindən biri kimi çıxış edir. Qərbi Avropada Biruni bu əsərlə tanınmışdır. Əslində bu əsər Biruninin ilk qələm təcrübəsi deyildi. Ancaq müəllifin ilk əsərləri dövrümüzədək gəlib çıxmamışdır.

«Xronologiya»da Biruni özünün dörd əsərinin adını çəkir. Tarixi mənbələrdə tez-tez adı çəkilən «Ağ geyimli adamlar və qərmətilərin tarixi» əsəri də bunlardan biridir. Biruni öz əsərini Cürcanda olarkən yazmış, onu Cürcan və Təbəristan əmiri Ziyari Kabus ibn Vaşigirə itfah etmişdi. Yaqul əl-Həməvinin verdiyi məlumata görə, Kabus Biruniyə vəzirlik təklif etmiş, Biruni isə onun təklifini qəbul etməmiş, az müddətdən sonra yəqin ki, Xarəzmşahın dəvəti ilə Xarəzmə – vətəninə qayıtmışdı. Biruninin bu əsər üzərində işləməsi və onu tamamlaması haqqında müxtəlif rəylər mövcuddur. Burada İranla əlaqədar sülalələrin nəsil şəcərəsi tarixi və xronologiyası əsas yer tutur. Kitabda müxtəlif xalqlarda gecə-gündüzün başlanğıc vaxtının təyini, şəmsi (günəş) və qəməri (ay) illər, qərinə və s. haqqında da maraqlı məlumatlar verilmişdir. Əsərdə Biruniyə məlum xalqların – farsların, soq-

dilərin, xarəzmlilərin, umların, yəhudilərin, xaçpərəstlərin, müsəlmanların bayramları və dinləri haqqında zəngin məlumat vardır. Biruni onun dövründə keçirilən bayramları belə səciyyələndirir: «Bu bayramlar arasında elələri vardır ki, səbəbi dünyəvi işlər, elələri və vardır ki, dini işlərdir». Biriniyə görə, dünyəvi bayramlar insanların ruhunu şadlandırmaq, xüsusilə kasıbların ağır güzəranını yüngülləşdirmək, dərdlərini azaltmaq, ümidlərini artırmaq məqsədilə keçirilir. Dini bayramları isə din xadimləri, onların qanunvericilikləri təsdiq edir. Belə bayramlar yalnız «gələcək həyat» – «o dünya» naminə qeyd olunur. Dünyəvi bayramlar içərisində Biruni özünün də həmişə qeyd etdiyi Novruz bayramı haqqında xüsusi danışır. «Novruz... ilk yağış damcısının düşdüyü gündən güllərin açdığı, ağacların çiçəklənməyindən sonra meyvələrin yetişdiyi, heyvanların şikara çıxmasından həyəcana gəldikləri, cücərtilərin yaranmaları ilə tam inkişaf» vaxtı keçirilir. Biruni Novruz haqqında söylənilən müxtəlif rəvayətlərdən bəhs edir, onların yaranması səbəblərindən danışır, bu bayram münasibətilə xalq arasında yayılmış adət-ənənələri göstərir.

Biruni müsəlmanların qeyd etdiyi əlamətdar günlərin də geniş təsvirini vermişdir. Əsərin «Yalançı peyğəmbərlər və onlar tərəfindən aldadılmış xalqların qərinəsi haqqında söz» fəsli məzmun və ideya baxımından maraqlıdır. Burada Biruni müxtəlif cərəyan və təriqətlərə tənqidi yanaşmaqla yanaşı, qərmətilərə olan hüsn-rəğbətini də gizlətməmişdir. Əsərdə Biruninin vətəni – Xarəzm haqqındakı məlumatlar da maraqlıdır. Biruni burada Azərbaycanın bəzi yerləri (təsvirdən məlum olur ki, söhbət Xəzərin cənub-qərb sahili ərazilərindən gedir) haqqında belə yazır: «Deyirlər ki, xəlifələrdən biri mənim gümanıma görə, xəlifə əl-Məmun Azərbaycanda 40 gün olmuş, bu müddətdə yağış kəsməmişdir. Xəlifə demişdi: daim isladan, su sıçradan bu yerdən bizi çıxarın. Hər hansı yer Təbəristana yaxın olsa, onlarn havası bir o qədər rütubətli, yağışı isə bol olur». Buradan ehtimalnəticə söyləmək olar ki, bu ərazi indiki Lənkaran-Astara subtropik zonası olmuşdur.

b) Biruni «Avesta» haqqında. Mərkəzi Asiya, İran, Azərbaycan, ümumiyyətlə, Yaxın və Orta Şərq xalqlarının ictimai fikrinin məhsulu olan «Avesta» dünyanın ən qədim əsərlərindən biri hesab olunur. Burada Şərq xalqları arasında geniş yayılmış dualist dünyaya baxış: xeyirlə şər arasında həyatda baş verən hadisələr öz əksini tapmışdır. Xeyir işləri Hörmüzdün, şər işləri Əhrimanın adı ilə əlaqələndirilir. Bütün həyat prosesi bu iki qüvvə arasında gedən mübarizədən ibarətdir. Son qələbə isə xeyir qüvvələrinə məxsusdur.

Zərdüştlük və «Avesta» ya dair bütün materialları və məlumatları ətraflı öyrənən Biruni «Keçmiş nəsillər haqqında abidələr» əsərində yığcam və lakonik bəhs edir. Biruninin məlumatlarından aydın olur ki, «Avesta» nın əlyazması İran hökmdarı Daranın xəzinəsində saxlanılırdı. 12 min inək dərisi üzərində qızıl su ilə yazılmış bu əsəri Makedoniyalı İsgəndər yandırmağı əmr etsə də, onun üçdə iki hissəsi məhv edilməmiş qalmışdı. Biruinin məlumatlarından aydın olur ki, «Avesta» 30 nəshdən (bölmədən) ibarətdir. Onu oxumaq hər adama nəsib olmamışdı. Biruni qeyd edir ki, bu şərəfə layiq olanlar yalnız xeyirxah və düzgün olan, əxlaqlı və ləyaqətli adamlara mənsub olmuşlar. Onu oxumaq icazəsi xüsusi fərmanla müəyyən edilirdi.

«Avesta» Zərdüşt dininin müqəddəs kitabı olub. Əsas bölmələrinin müəllifi bu təlimin banisi Zərdüştün adına yazılır. Şərq yazılı mənbələrində «Avesta» haqqında daha maraqlı məlumatlar ilkin orta əsrlərə aiddir. «Avesta» və Zərdüştülük haqqında əl-Təbərinin «Tarix» əsərində və Biruninin «Keçmiş nəsillərin abidələri» kitabında fikirlər söylənilir. Lakin bunların birbirindən fərqi ondan ibarət idi ki, Təbəri istifadə etdiyi ilk mənbələr haqqında heç bir məlumat vermir. Biruni isə bu ilk məxəzləri, o cümlədən Zərdüştün «Kitabın yaranması haqqında» əsərindən iqtibaslar gətirir. Buradan məlum olur ki, Zərdüşt «Avesta» dan başqa, həm də «Kitabın yaranması» adlı tərcümeyi-hal xarakterli əsər yazmışdır. Biruni bu əsərdə məlumat verir ki, Zərdüşt əslən Azərbaycandandır, lakin o, İranda və Mərkəzi Asiyada yaşamışdır. Təbərinin məlumatına görə, isə o, həm də

Hindistanda olmuşdur. Biruni isə onun bir müddət Seylonda olduğunu qeyd edir. Təbəri Zərdüştü «Zərdüşt ibn Yunan» adlandırmaqla onun yunan mənşəyinə mənsub olduğuna işarə edir. Biruni isə dəqiq məlumat verir ki, Zərdüşt Səfid Tuman adında bir azəbaycanlının oğludur. Onun soykökü aristokrat nəslə mənsuğ olub, İran hökmdarı Mənuçöhrün ailəvi nəslindəndir. O, Hərranda oxumuş, müəllimi İlyasdan dərs almışdı. Zərdüşt öz kitabında bu haqda özü yazmışdı. Təbərinin məlumatına görə, Zərdüşt peyğəmbər Əzizin şagirdi olmuş, tezliklə müəllimi ilə onun arasında ixtilaf baş vermiş və Zərdüşt bütün kitablarını yığışdırıb Hindistana yola düşmüdü. Orada, öz təlimini davam etdirərək bir il sonra oxumaq üçün Babilistana gəlmişdi. Sonradan bir illik azuqə toplayıb orada dağlıq bir dərəyə gedərək iki kitab yazmışdı. Onlardan birini «Zəid», digərini «Avesta» adlandırmışdı.

Biruni Zərdüşt haqqında məlumatlara əsaslanaraq yəhudilər, rumlular, iranlılar arasında Zərdüştlə bağlı rəvayətləri nəzərdən keçirmiş və onun yəhudi olmasını inkar etmişdi. Zərdüştün dediklərinə əaslanan Biruni «ola bilsin ki, rumlular Azərbaycan sərhədləri ilə Mosul sərhədi ərazisinə aiddir»-deyə mülahizələr irəli sürür.

Biruninin məlumatına əsaslanaraq Zərdüştün sosial mənşəyini, onun yaratdığı təlimin tarixini, köklərini müəyyən etmək mümkündür. Zərdüştün təlimi Pifaqor təliminə söykənir və ondan Brahmanizm hind nəzəriyyəsi yaranmışdı.

Biruni yaradıcılığı, o cümlədən «Xronologiya» əsəri, qərb, rus və digər ölkələrin alimlərin diqqətini cəlb etmişdir.

Avropa elmində «Avesta» nın öyrənilməsinin başlanğıcı fransız alimi Antekel Dyu Perrona məxsusdur. O, 1761-ci ildən 1773-cü ilədək «Avesta» nı öyrənmək və tərcümə etməklə məşğul olmuş, Cənubi Hindistanda və İranda zərdüştülüyün tərəfdarları olan farslar arasında yaşamış, topladığı mənbələr və materiallar əsasında «Avesta» nın tam mətnini sistemləşdirib Fransada çap etdirmişdir. Sonralar bu əsər Avropada ərəb orijinalı və yeni izahlı ilə görkəmli alman şərqşünası Edhard Zaxau tərəfindən

1878-ci ildə Leypsiqdə, bir ildən sonra isə Biruninin əlyazmalarının köçürmə variantları əsasında hazırlanmışdı. 1912-ci ildə əsərin daha iki köhnə əlyazması tapılmışdı. Bunladan biri hazırda Rusiya EA Şərqşünaslıq İnstitutunun Sankt-Peterburq şöbəsində saxlanan variant olub Tehranda rus diplomatik nümayəndəsi L. Boqdanov tərəfidən 1912-ci ildə aşkar edilmişdi; ikinci nüsxə isə İstanbulda tapılmış və hazırda İstanbul xalq kitabxanasında saxlanılır. 1943-cü ildə bu əsərin fars variantı İran alimi Əkbər Danə Səyfəri tərəfindən fars dilinə tərcümə edilmişdi.

Alman alimləri K. Qarbers və İ. Fyukk İstanbul nəşrində vaxtilə E. Zaxaunun boş qoyduğu yerləri doldurmuş və 1952-ci ildə özbək A.V. Xalidov tərəfindən rus dilinə tərcümə olunmuş və ona əlavə materiallar daxil edilmişdi. Son illər R.Q Bulqakov əsərin Məşhəd nəşrinin mikrofilmini Daşkəndə gətirməyə müvəffəq olmuşdu.

Rusiyada «Avesta» nın öyrənilməsi ilə ilk dəfə 1912-ci ildə akad. İ.Y, Kraçkovski məşğul olmuşdu. O, vaxtilə Tehrandan alınmış və Rusiya EA Şərqşünaslıq İnstitutunun Sankt-Peterburq şöbəsində saxlanılan nüsxəsi üzərində işləyərək öyrənməyə başlamış və 1940-cı ildə «Əl-Biruni və XI əsr Şərq coğrafiyaşünasları» əsərini yazmışdı. Bu, akad. İ.Y.Kraçkovskinin «Ərəb coğrafiya ədəbiyyatı» adlı fundamental əsərindən bir bölmə idi. Bu məqalədə İ.Y.Kraçkovski «Xronologiya» nın dünya elmində böyük əhəmiyyət kəsb etdiyini bildirmişdi.

Özbəkistanda Biruni yaradıcılığının və irsinin, o cümlədən «Xronologiya» nın öyrənilməsinə İkinci Dünya müharibəsindən sonra başlanmışdır. 1950-ci ildə Biruninin vəfatının 900 illiyi münasibətilə Daşkənddə özbək dilində nəşr edilən «Biruni urta asninq budok olimi» («Biruni orta əsrlərin böyük alimidir») məqalələr toplusunda və həmin toplunun çap edilən variantında Biruninin «Xronologiya» əsərinə geniş yer verilmişdir.

«Xronologiya» əsəri ərəb dilinin görkəmli bilicisi A.Rəsulov tərəfindən özbək dilinə tərcümə olunmuşdur. 1957-ci ildə M.A.Salve bu əsəri yenidən rus dilinə tərcümə etmiş, 1960-cı ildə yenə onun özbək dilində «Əbu Reyhan Biruni», 1963-cü ildə

Q.M. Matviyevskayanın «Biruni va tabii fanlar» kitabçası çap olunmuşdu. 1973-cü ildə Biruninin anadan olmasının 1000 illiyi münasibətilə R.Q.Bulqakovun rus dilində «Бируни» adlı iri həcmli fundamental əsəri və «Бируни и драматургие науки» məqalələr məcmuəsi çap olunmuşdu.

Qeyd olunan əsərlərdə və məqalələr toplularında Biruni yaradıcılığı, o cümlədən «Xronologiya» əsəri hərtərəfli təhlil olunmuşdu.

c) Biruninin «Hindistan tarixi» əsəri. Əbu Reyhan Biruninin bəşər dünyasının nadir sənət abidələrindən sayılan «Təhrir mə-li-l hind min məqalə məqbulə fi-l-əqd zu mərzulə» («Hind alimlərinə məxsus münasibət və ya rədd edilən müxtəlif fikirlər») qısa şəkildə «Hindistan tarixi» şərti adı ilə qəbul edilən əsərini 1030-cu ildə tamamlamışdı. Kitab Qərb, Şərq, habelə hind aliməri tərəfindən yüksək qiymətləndirilmişdi. Əsər Hindistan haqqında məlumatların bolluğu, faktik materialların orijinallığı və zəngindliyi ilə fərqlənir. Müəllif əsər üzərində işləyərkən Hindistanın ictimai və mənəvi həyatının müxtəlif problemlərinə, ona qədər ərəb coğrafiyaşünaslarının və səyyahlarının bu ölkə haqqında verdikləri məlumatlara özünəməxsus qaydada yanaşmışdır.

Orta əsrlər ərəb dilli ədəbiyyatda öz obyektivliyi və maraqlı məzmunu ilə fərqlənən bu əsər tədqiqat üsulları və yetginliyi ilə diqqəti cəlb edir. Əsər X-XI əsrlər Hindistan həyatının bir növ ensiklopediyasıdır. Yüksək zəka və təfəkkür sahibi olan Birunin orta əsrlərin məhdud siyasi və dini görüşlərindən kənara çıxaraq Hindistanın əhalisi, dini, idarəçilik sistemi, adət-ənənələri, elm və mədəniyyəti haqqında verdiyi məlumatlar sistemliliyi və ardıcıllığına görə tədqiqatçı alimlərin marağına səbəb olmuşdur.

Orta əsrlər Hindistanı haqqında xeyli əsər yazılmışdır, lakin Biruninin əsəri əlçatmaz zirvədir. Görkəmli alim uzun müddət Hindistanda yaşamış, burada yaşayan xalqların həyat və mədəniyyət tarixini, sanskrit dilini öyrənmişdi. O qədim hind yazılı abidələri ilə yaxından tanış olmuş, onları öyrənmiş, öz şəx-

si müşahidələrini də buraya əlavə edərək hind mədəniyyətinin çoxəsrlik tarixini öyrənmişdir. O, hindlilərin dünyagörüşünə tənqidi yanaşmış, digər xalqların dini görüşləri ilə müqayisə etmişdir. Hindistana dair əsərinin 31-ci fəslinin sonunda Biruni Hindistanda olduğu yerlərin en dairəsini, müəyyənləşdirdiyi məntəqələrin siyahısını verir. Siyahı ilə tanışlıqdan aydın olur ki, şimal-şərqi Hindistanın bəzi vilayətlərində – Kabul çayı vadisində, Pəncəbdə olmuşdur. Lakin onun Hindistan səyahətinin məqsəd və vəzifəsini aydınlaşdırmaq mümkün olmamışdır. Güman edilir ki, Biruni saray münəccimi kimi hərbi səfərlərdə Mahmud Qəznəvini müşayət etmişdi. E.Zaxauya görə görkəmli alim məhz bu dövrdə 1030-cu illə 1031-ci il dekabrın 19-u arasındakı müddətdə Hindistan tarixini yazmağa başlamışdır.

Biruninin həyatının son 18 ili haqqında məlumat azdır. Göründüyü kimi, Sultan Mahmudun oğlu Məsudun hakimiyyəti dövrü (1030-1041) alimin həyatının nisbətən sakit illəri olmuş, onun elmi fəaliyyətinə müsbət təsir göstərmişdi. Biruninin bu dövr yazılarında Mahmud Qəznəvi vaxtındakı şikayət motivləri azalır.

Alman alimləri E.Zaxau və V.R. Rozen təqribən bir əsr bundan əvvəl «Hindistan tarixi» əsərinin geniş təhlilini vermiş və orijaniallığını qeyd etmişlər. Səksən fəsildən ibarət olan bu əsərdə Hindistanın o dövr elmi, mədəniyyəti ilə yanaşı, hindlilər, onların dünyagörüşləri, dinləri və adət-ənənələri haqqında da geniş məlumat vardır. Biruni hind məxəzlərindən topladığı qeydlərini qədim yunanların, iranlıların, müsəlmanların nəzəriyyələri ilə müqayisə edərək obyektiv nəticələr çıxarmağa çalışmışdır. Biruni öz əsərlərində böyük polyak alimi Kopernikdən 500 il əvvəl yerin hərəkət etməsi haqqında nəzəriyyəsini irəli sürmüşdür. Biruni bu məsələyə çox ehtiyatla yanaşmışdır. O, Ptolomeydən başlayaraq bir çox orta əsr alimlərinin (əl-Fərabi və b.) yerin sabitliyi haqqındakı nəzəriyyələrini inkar etmiş, cəhalətin hökm sürdüyü bir zamanda mövcud fikirləri alt-üst edərək yeni nəzəriyyə irəli sürmüş, dövrünün məşhur hind astronomu Brahma-

quptanın «Yer hərəkətdədir, göylər isə sabitdir» nəzəriyyəsinə tərəfdar çıxmışdır.

d) Biruninin «Xarəzm tarixi» əsəri. Bu əsər də Biruninin bir sıra əsərləri kimi dövrümüzə gəlib çıxmamışdır. Lakin həmin dövrdə yazılmış əsərlər içərisində «Xarəzm tarixi» nin adı «Kitab əl-müsamirə fi əxbar Xarizm» («Xarəzm haqqında söhbətlər») adlanır. XIII əsrin görkəmli tarixçisi Əbülfəzl Beyhaki Biruninin «Xarəzm tarixi» əsərini «Maşahir Xarizm» («Xarəzmin çox gözəl adamları») adlanlırmışdı. Yaqut əl-Həməvi isə hər iki əsərin olduğunu təsdiq edirdi. Biruninin «Xarəzm tarixi» adlı əsərinin olması haqqında Qərbi Avropa şərqşünaslarının ilkin məlumatı XIX əsrin 60-cı illərinin əvvəllərində Biruninin müasiri və onunla bir yerdə – sarayda xidmət edən Əbül Fəzl Məhəmməd ibn Hüseyn Beyhakinin (995-1077) «Tarixi Beyhaki» (3 cilddən ibarət) adlı böyük tarixi əsərinin bir hissəsinin çap edilməsindən sonra məlum olmuşdu. Bu, həmin əsərə verilən şərti addır. Əsər müəllif tərəfindən zamanında necə adlandırıldığı məlum deyil. Sonrakı əsrlərin şərq tarixşünaslığında bu əsərin 7-yə yaxın müxtəlif adlarına rast gəlinir.

Əbül Fəzl Beyhaki və Əbu Reyhan Biruni eyni vaxtda sultan Mahmud Qəznəvinin sarayında olmuşlar. Beyhaki Qəznəvilər sarayı dəftərxana rəisinin köməkçisi idi və saraydakı adamlar müxtəlif işlərlə əlaqədar ona müraciət edirdilər. Mahmud Qəznəvinin ölümündən sonra onlar onun varislərinin sarayında çalışmışlar, ehtimal etmək olar ki, xeyli yaş fərqlərinə baxmayaraq onlar bir-biri ilə tanış idilər.

Beyhakinin nəşr olunmuş əsərinin əlyazmasında Biruninin «Xarəzm tarixi» haqqında keçən əsrin alman şərqşünası E.Zaxaunun əsərlərində və görkəmli rus-sovet şəqşünası və tarixçisi akad. V.V.Bartoldun əsərlərində XI əsrin görkəmli tarixçisi Əbül Fəzl Beyhakinin hicri tarixinin 421-431-ci illərdə (miladi tarixi ilə 1030-1041-ci illərdə) yazdığı 30 cilddən ibarət «Tarixi Beyhaki» əsərində Biruninin «Xarəzm tarixi» ndən xeyli iqtibaslar gətirilir.

XII əsrin sonu XIII əsrin əvvəlinin görkəmli ərəb tarixçisi Yaqut Ben Abdullah ər-Ruminin 1933-cü ildə Londonda çap olunmuş əsərlərinin 6-cı cildində Biruninin «Xarəzm tarixi» əsəri haqqında məlumat verilir. Orada, həmçinin Biruninin «Kitab tarix əyyam əs-Sultan Mahmud uya axtar abihi» (Sultan Mahmud günlərinin tarixi və onun atası haqqında xəbərlər») əsəri haqqında da məlumata rast gəlirik.

Biruninin riyaziyyat və coğrafiyaya dair üçüncü böyük əsəri «Əl-qanun əl-Məsudi fil-həya və n-nücum» (Astronomiya və ulduzlara dair Məsudun cədvəli) adlanır. Əsər XI əsrin 30-cu illərində yazılmağa başlanmış və hakimiyyəti silah gücünə ələ keçirmiş Sultan Mahmud Qəznəvinin oğlu Məsuda ithaf olunmuşdur.

Bu əsərdə iqlimlər və bir çox şəhərlərin en və uzunluq dairələri göstərilmişdir. Şərqşünaslar dəfələrlə bu əsərin ayrı-ayrı hissələrinə müaciət etmişlər. A.Zəki «Dünyanın Biruni tərəfindən verilən şəkli» kitabında «Məsud cədlvəli», «Geodeziya» və «Minerologiya» əsərlərindən çıxarışlar vermişdir. «Məsudun cədvəli» nin X fəslində başqa ölkələrlə birlikdə Azərbaycanın da müxtəlif şəhərlərnin en və uzunluq dairələri göstərilmişdir. Biruni en və uzunluq dairələrini əbcəd hərfləri (ərəb əlifbasının hərfləri ilə işarə edilmiş rəqəmlərlə) ilə işarə etmişdir. Bir çox orta əsr ərəb müəlliflərində olduğu kimi, Biruni də Azərbaycan şəhərləri ilə Ərməniyyə (Ermənistan) şəhərlərini qarışdırır. Məsələn, Ərməniyyənin Dəbil şəhərini Azərbaycana, Azərbaycan və Arranın Beyləqan, Şirvan kimi şəhərlərini isə Ərməniyyəyə aid edir. Maraqlıdır ki, Biruni cədvəlin nahiyə və məmləkət bölməsində Ərməniyyə yazdığı halda, Bərdə sözündən sonra «buranın paytaxtıdır» sözünü yazmışdır. Bab əl-Əbvab şəhərini Ərməniyyə ölkəsinə daxil etməsinə baxmayaraq, onun qarşısında «bura Xəzərin Dəbəndi də adlanır» sözlərini yazmışdır. Bu isə yəqin ki, Biruninin özünün bir çox yerlərdə olamaması üzündən irəli gələn səhvlərdir.

«Məsud cədvəli» əsərində Biruninin astronomiyaya aid fikirləri də diqqətəlayiqdir.

e) **Biruninin «Minerologiya» əsəri.**

Biruninin Sultan Məsud dövründə (1041-1048) yazılmış böyük əsərlərindən biri də «Kitab əl-cəmahir» dir. («Qiymətli daşların (Cəvahirlərin) öyrənilməsi üçün məlumat kitabı»). Əsər yuxarıda qeyd etdiyimiz kimi, elmi ədəbiyyatda «Minerologiya» adı ilə məşhurdur. 1048-ci ildə tamamlanmış bu əsər müəllifin gərgin əməyinin məhsulu olub. Giriş və qiymətli daşlara və materiallara həsr edilmiş iki fəsildən ibarətdir.

Kitabda müxtəlif mineral və qiymətli daşlar, onların mənşəyi, xarakteri, yeri haqqında geniş məlumat verilir. Bu əsərin dörd əlyazması bizə gəlib çatmışdır. Əlyazmalardan biri İspaniyanın Eskurial kitabxanasında saxlanılır. 20-ci illərdə Türkiyədə daha iki əlyazma aşkar edilmişdir. Məşhur ərəbşünas F.Krenkov bu əlyazmalar əsasında əsərin tənqidi mətnini hazırlamışdır. Dördüncü əlyazma isə Qazaxıstan Milli Kitabxanasının Teymuriyyə fondundadır. Şərqşünaslar (E.Videman, M.Haşimi, Z.V.Toqan, Q.Q. Lemmeyl, A.M.Belenitski və başqaları) Biruninin bu əsərindən dəfələrlə istifadə etmişlər.

Akad. İ.Y. Kraçkovski yazmışdır ki, Biruni bu əsərində yalnız elmini deyil, həm də bədii yaradıcılığını vermiş, ərəb dilindən, həmçinin, başqa dillərdən çevrilmiş ədəbiyyatı gözəl bildiyini göstərmiş, xüsusi araşdırmaların çoxillik təcrübəsinin nəticələrini ortaya qoymuşdur. Biruni adlarını çəkdiyi qiymətli daş və metalların mənşəyini göstərmiş, onların ərəb, Çin, yunan, türk, fars dillərində adlarını vermiş, bu daşları və metalları bərkliyinə, xüsusi çəkisinə görə ayırmış, onların dəyərindən və müalicəvi keyfiyyətlərindən bəhs etmişdi.

Biruninin «Geodoziya» əsəri. Biruninin Qəznə dövrü fəaliyyətindən dövrümüzə gəlib çatan əsərləri XX əsrin 20-ci illərində aşkar edilmiş «Təhdid nəhayət əmakin il-təshihi məsafət əl-məsakin» (Yaşayış məntəqələri arasındakı məsafəni yoxlamaq üçün yerlərin son sərhədlərinin təyini» və ya «Geodeziya») coğrafi əsəridir. Biruninin öz məlumatına görə, o, əsər üzərində işi Qəznəyə gələn kimi, təqribən 1011-ci ilin əvvəlində başlamış, 1025-ci il oktyarın 20-də tamamlamışdır. Kitab girişdən, bir nə-

zəri fəsildən və bir çox təcrübənin nəticələrindən bəhs edən bölmələrdən ibarətdir.

Biruninin Qəznə dövrü yaradıcılığından dövrümüzədə gəlib çıxan ikinci əsəri 1029-cu ilin məhsulu olan «Təhfim il avasana-at-təncim» (**«Nücumluq sənətinin ibtidaisinə dair anlayış»**) əsəridir. İ.Y.Kraçkovsknin qeyd etdiyi kimi bu əsər texniki sualları, həndəsə, hesab, astronomiya, coğrafiya, xronologiya, (astronomik cihazların təsviri ilə birlikdə) və astrologiyanın terminlərini izah edən ensiklopediyadır.

Kitabın astronomiyaya həsr olunmuş üçüncü hissəsində coğrafiyaya dair bir neçə bölmə verilmişdir. Bu bölmələrin birində dənizlər haqqında ətraflı məlumat vardır. Yaqut əl-Həməvi «Mü-cəm əl buldan» əsərində Biruninin Xəzər dənizinə aid məlumatını vermişdir: «Təbəristan yaxınlığında Cürcan körfəzinin dənizidir. Abaskun şəhəri onun sahilindədir. Dəniz də bu adla adlanır. Sonra sahil xətti Təbəristan, Deyləm torpağı, Şirvan, Dərbənd, alanların, daha sonra İtil çayının ona töküldüyü yerədək xəzərlərin yaşadıqları vilayətlərindən keçir, sonra Abaskuna yetişənədək quzzların vilayətinədək uzanır. Bu dəniz sahilində olan bütün vilayətlərin adı ilə tanınır»

Biruninin Baltik dənizi və Ağ dəniz haqqında da məlumatı var idi. O, Avropanın Şimal və Şərqində yaşayanlara, xüsusilə Skandinaviya varyaqlarına yaxşı bələd idi. Biruninin Sibir və onun bəzi xalqları, Anqara çayı və s. haqqındakı məlumatı xüsusilə maraqlıdır. Yaqut əl-Həməvinin qeyd etdiyinə görə, dənizlər haqqında geniş məlumatı Biruni vermişdir.

Biruninin son əsəri «Əs aydan fi-t-tibb» (**«Təbabətdə əczaçılıq»**) adlanır. Əsərin dövrümüzə yetişən XIII əsrə aid yeganə əlyazmasında 1116 bitki, mineral, canlı aləm mənşəli dərmanların təsvirləri, müxtəlif dillərdə onların adları verilir. Əsərin ilk əlyazması 1927-ci ildə Zəki Validi Toğan tərəfindən aşkarlanmışdır. 1932-ci ildə M.Meyerhof əsərin girişini ingilis dilinə, 1937-ci ildə Seyfəddin Yaltaqaya türk dilinə tərcümə etmişdi.

Əbu Reyhan Biruni öz dövrünün istedadlı alimlərindən olmuşdur. Onun əsərlərinin yalnız bir qismi zəmanəmizə gəlib

çatmışdı. Yaqul əl-Həməvi Biruni əsərlərinin 60 səhifəlik siyahısını gördüyünü qeyd etmişdir. Biruni 427-ci ildə (1035-1036) məşhur alim Əbu Bəkr Zəkəriyyə ər-Razinin əsərlərinin siyahısı ilə yanaşı, öz əsərlərinin də siyahısını «Fihrist» adı ilə təqdim etmişdi. Bu siyahıda adı çəkilən əsərlərin 27-si dövrümüzə qədər gəlib çatmışdır. Ümumiyyətlə, Biruni 150-dən çox əsər yazmışdır. Onun əsərlərinin bir hissəsi itib-batmış, məhv olmuş, yaxud da hələ bu günədək üzə çıxarılmamışdır.

Əbu Reyhan əl-Biruni irsi bütün dövrlərdə tədqiqat obyekti olmuş, onun ictimai-siyasi, fəlsəfi və tarixi görüşləri haqqında İ.Abdullayev, S.A.Əzimcanova, A.K.Arends, V.V.Bartold A.M.Belinintski, R.Q.Bulqakov, Y.Q.Qulamov, A.İrisov, Yaqut əl-Həməvi, U.İ.Karimov, A.R. Kasumov, İ.Y.Kraçkovski, İ.M.Muminov, T.İ.Paykov, A.Rəsulov, V.A.Rozenfeld, S.R.Tolstov, A.B.Xalidova, V.Q.Erman, X.Həsənov, K.Şaniyazov, A.D.Şariov və başqaları elmi axtarışlar aparmış, sanballı tədqiqat əsərləri yazmışlar.

Əbu Reyhan əl-Birninin elmi fəaliyyət dairəsi çox geniş olmuşdur. Onun simasında yorulmaq bilmədən həyatını elmi axtarışlara həsr edən orta əsr mütəfəkkiri və həqiqət carçısını, müxtəlif elm sahələrinin inkişafında müstəsna rolu və böyük xidmətləri olan ensiklopedik alimi görürük. Onun riyaziyyat, astronomiya, fizika, kimya, təbiətşünaslıq elmləri sahələrində yaradıcılığı, fəlsəfi, etik-estetik görüşləri, ictimai-siyasi baxışları bu gün də tədqiqatçıların diqqətindədir. Biruni yaradıcılığının təsiri altında Yaxın və Orta Şərqdə, o cümlədən Mərkəzi Asiyada görkəmli alimlər və sənət adamları formalaşmışdır. Başqa sözlə, Biruni irsi və yaradıcılıq diapozonu inkaredilməzdir. Şərqin tarixini və fəlsəfi irsini öyrənən və əxz edən Biruni öz orijinal əsərləri ilə dünya sivilizasiyasının inkişafına əvəzsiz töhvələr vermiş və bəşər elmini zənginləşdirmiş nadir elmi istedad sahibi olmuşdu.

Xarəzmin böyük aliminin əsərlərində humanizm, vətənpərvəlik kimi ümumbəşəri ideyalar yer almışdır. Onun geniş müşahidəçilik bacarığı, məlumatları toplamaq və sistemləşdir-

mək məharəti, həqiqəti dərk etmək, ümumiləşdirmək və nəticə çıxarmaq istedadı, orta əsrlərin elmi metodunu yaratmaq sahəsindəki xidmətləri ona dünya şöhrəti qazandırmışdır.

Ərəb, yunan, fars, hind və digər dilləri yaxşı bilən Biruni həm gözəl filosof, tarixçi və filoloq, həm də din və təbiət elmləri sahəsində böyük ağıl sahibi idi.

ÜÇÜNCÜ FƏSİL

ƏMİR TEYMUR (1336 -1405): DÖVRÜ, HƏYATI VƏ FƏALİYYƏTİ

3.1. Teymurun siyasi hakimiyyətə gəlməsinə qədər Mavərənnəhrdə sosial-iqtisadi, ictimai-siyasi vəziyyət (XIV əsrin 30-60-cı illəri)

3.1.1. Mavərənnəhrdə ictimai-siyasi və sosial-iqtisadi həyat

XIV əsrin əvvəllərindən Mavərənnəhrdə Cağatay xanları arasında mübarizə son həddə çatmışdı. Burada keçmiş köçəri adət və ənənələrini davam etdirəməyə cəhd edən hərbi-köçəri aristokratiyası ilə ölkənin qonşu dövlətlərlə möhkəm əlaqələrinin tərəfdarı olanlar arasında davam edən daxili mübarizədə ikinci istiqamətin arzularını təmin edən Cağatay xanı Kəbək (1318-1326) Nəsəf şəhərinin 12-14 km-liyində özünə saray tikdirmişdi. Sonralar bu ərazi şəhərə çevrilmiş və ona Karşi adı verilmişdi. Kəbək xan tənəzzülə uğrayan və zəifləyən Nəsəf şəhərindəki bütün xan sarayını və işgüzar qüvvələri Karşiyə köçürmüşdü. Onun dövründə Mavərənnəhrdə idarəçilik sistemində mühüm dəyişikliklər aparılmış, ölkədə inzibati və pul islahatları keçirilmişdi. Kəbək xanın dəyişiklikləri ölkənin oturaq əhalisi tərəfindən rəğbətlə qarşılanmışdı. Lakin Kəbək xanın ölümündən sonra hərbi-köçəri aristokratiya nümayəndələri

bütün qüvvələri öz ətrafında birləşdirməyə nail olaraq Kəbək xanın tərəfdarlarına qarşı mübarizəni genişləndirirlər. Xanlarla köçəri bəylər arasındakı daxili mübarizədə Kəbək xanın qardaşı Tarmarşirin (1326-1334) öldürülür. Hətta Cağatay paytaxtı Karşidən müvəqqət Yeddisuya köçürür. Yalız Çingizlilərin son nümayəndəsi Qazan xanın hakimiyyətə gəlməsindən sonra Mavərənnəhr yenidən xan qərargahına qaytarıldı. Qazan xanın Kəbəkin siyasətini davam etdirməsi Cağatay qəbiləsi başçılarının müqavimətinə rast gəldi. Narazı qüvvələrin başında Əmir Kazaqan dururdu. Onların arasında baş verən döyüşdə Qazan xan öldürüldü və Mavərənnəhrdə hakimiyyət Kazaqanın əlinə keçdi. O, özünü «xan» deyil, «əmir» adlandırmaqla kifayətləndi. O, qış aylarını Sali Sarayda, yayı Xuttalayda keçirirdi.

Köçəri-hərbi aristokratiyanın ideoloqu və onların maraqlarının müdafiəçisi kimi çıxış edən Kazaqan (1346-1358) qonşu ölkələr üzərinə hərbi yürüşlər və soyğunçu səfərlər təşkil etmişdi. Yürüşlərini Herat vilayətindən başlayan Kazaqan şəhər ətrafında böyük soyğunçuluq etsə də, Heratı ala bilmədi. Kazaqan 1358-ci ildə ovda olarkən moqol xanı Tuğluq Teymur tərəfindən öldürüldü, hakimiyyətə oğlu Abdulla keçdi.

Abdulla atasının dövründə Səmərqənddə yaşayırdı. Bu səbəbdən də, mərkəzi (paytaxtı) Heratdan Səmərqəndə köçürməyə cəhd etdi. Herat əmirləri ona qarşı mübarizəyə başladılar və bu mübarizədə Abdulla öldürüldü.

Əmir Kazaqanın və oğlu Abdullanın ölümündən sonra Mavərənnəhrdə hakimiyyət zəifləmişdi. Ölkə yenidən tam feodal dağınıqlığı şəraitində qalmışdı. Nizaməddin Şaminin dediyinə görə, XIV əsrin 50-ci illərindən burada bir neçə irili-xırdalı malikanələr və mülklər mövcud idi ki, bunlar heç vaxt bir-birinə tabe olmur və öz aralarında düşmənçilik edirdilər. Mavərənnəhr onların arasında xırda feodal mülklərinə bölünmüşdü. Şəhrisyabz (Keş) vilayəti Hacı Barlasın, Xocənd və onun vilayətlərinin bir hissəsi Kazaqanın nəvəsi Əmir Hüseynin əlində idi. Bəlx vilayətinin digər hissəsi Ulçay-buda, Suldza, Şaburqana Məhəmməd xoca Anerdi başçılıq edirdi. Bədəxşan dağlarında yerli

əhali, ilk növbədə kəndlilər əziyyət çəkirdilər, bu səbəbdən də, ildən-ilə Mavərənnəhrdə sosial-iqtisadi vəziyyət ağırlaşır, siyasi həyat gərginləşirdi. Orada güclü dövlətdən heç bir əsər-əlamət olmadığını yaxşı bilən qonşu dövlətlər, xüsusən moqol xanı Tuğluq Teymur Mavərənnəhr üzərinə hücuma keçib onun vilayətlərini işğal etmək fikrinə düşmüşdü.

1360-cı ildə moqol xanı Tuğluq Teymur qoşunu ilə Mavərənnəhrə daxil oldu. Müqavimətə rast gəlməyən Tuğluq Teymur Kaşqa-Dəryaya qədər irəlilədi. Kaşqa-Dərya hakimi Hacı Barlas da ona qarşı mübarizədən çəkindi. Şərafəddin Əli Yəzdi yazırdı ki, bu zaman (1360-1367-ci illərdə) Tuğluq Teymurun qoşunlarından qorunmaq üçün Kaşqa-Dərya səhrasının əmiri Hacı Barlas Xorasana qaçmışdı. Onu müşayət və əvəz edən gənc Teymur başa düşürdü ki, «Başsız ölkə cansız bədən kimidir. Ruhsuz bədən isə ölümə bərabərdir». Ona görə vətəndə qalmasını qərarlaşdırdı, əmirə: «Yaxşı olar ki, siz Xorasana gedəsiniz. Mən isə vilayəti dağıntılardan xilas etmək üçün xanın yanında (Tuğluq Teymur nəzərdə tutulurdu) xidmətə girim»-dedi.

Tuğluq Teymur 1360-1361-ci illərdə Teymuru Şəhrisyabza və Karşiyə hakim təyin etdi. Bu zaman onun cəmi 25 yaşı vardı. Ona məxsus olan vətənpərvərlik, ictimai-siyasi hadisələrə düşüncəli münasibəti tezliklə Teymurun ağıllı, müdrik, görkəmli hərbi xadim kimi yetişməsinə şərait yaratdı. 1360-cı ildə türk əyanları nəslindən olan atası Əmir Turqay vəfat etdi.

1361-ci ildə moqol xanı Tuğluq Teymur Mavərənnəhr hücumlarını davam etdirdi. Bu zaman siyasət meydanına Teymur çıxdı. O, belə qərara aldı ki, indiki vaxtda Tuğluq Teymurla mübahisə etmək, mübarizə aparmaq vaxtı deyil. Həm də Tuğluq Teymur ona yanında xidmətə girməyi təklif etmişdi. Teymur bu təklifi məmnuniyyətlə qəbul etdi. Tuğluq Teymur Moqolustana geri qayıdarkən Kaşqa-Dərya vilayətini idarə etməyi ona tapşırdı. Beləliklə, Teymur 25 yaşında qaçan Hacı Barlasın yerinə böyük olmayan bu vilayətin hakimi – sahibi oldu.

Monqolların Mərkəzi Asiyaya hücumu dövründə (1218-1220-ci illərdə) Mavərənnəhrdə monqol qəbilə və tayfaları ilə

yanaşı türk tayfaları da yaşayırdılar. Onlar əvvəllər monqollarla müttəfiq olduqlarından Tyan-Şan vadilərindən və Altay dağlarından Mavərənnəhrə gəlib Ceyhun (Amu-Dərya) çayı sahilində məskən salmış, qədimdən burada yaşayan türk tayfaları ilə qarışmış və yurd salmışdılar. Monqollara qarışıb gələn Altay türkləri burada Cağatay tərəfindən yaxşı qəbul edilmiş, onlar Cağatayın etibarını qazanmışdılar. Çingiz xan nəslindən olan Cağataylara sadiq olan türklər ilk dövrlər onlara qulluq göstərir və xidmət edirlər. Lakin Cağatay nəslinin qüdrəti və gücü zəiflədikcə türklər bu dövlətə və hökumətə sahib olmaq haqqında düşünməyə başladılar. Nəhayət, Cağatay dövləti süquta üğrayaraq bir neçə hissəyə ayrıldı. Cəlair və Sulduz adlı türk nəsilləri Səmərqəndin şimalında hakimiyyəti ələ aldılar. Cənub tərəfdə Keş və Növşad, Nəxşab tərəfdə Barlas türk sülaləsi Moğollar məmləkətinin xərabələri üzərində istiqlal bayrağı qaldırdılar.

Barlas türk tayfasından olan Teymur hicri tarixinin 736-cı ilin şəban ayının 5-də (miladi tarixinin 9 aprel 1336-cı ilində) Keş qəsəbəsində anadan olmuşdu. Bu qəsəbə yaşıllığa qərq olduğundan o «Şəhri-siyabz» («Yaşıl şəhər») adlanırdı.

Teymurun atası Turqay, Barlas qəbiləsinin rəisi və ağası olduğuna görə Qazan xan Keş və Nəxşab vilaətinin idarə olunmasını ona tapşırmışdı. Turqay ömrünün sonlarına qədər (1360) Qazan xanın (əmirin) ən sadiq xidmətçilərindən olmuşdu.

Teymurun uşaqlıq və gənclik dövründən şücaətli və qeyrətli olduğunu, süvarilik məharətini görən atası ona son dərəcə diqət yetirmiş, islam əqidəsi və ruhunda təlim və tərbiyə vermişdi. Teymurun gəncliyindən siyasi əqidəsi monqol hakimiyyətini devirmək əməlləri ilə yüksələn bir məsləkdə formalaşmışdı. Teymur dost və sevimliləri tərəfindən gözəl və xoş simalı, sağlam və mütanasib bədənli, ağıllı-kamallı, kişilərə məxsus gözəlliyə malik olan bir şəxs kimi təsvir olunduğu halda, düşmənləri tərəfindən o, çirkin cöhrəli, zəif, nataraz əndamlı, eybəcər görünüşlü təsvir edilmişdir.

Öz əli ilə yazdığı tərcümeyi-halında Teymur qeyd edirdi ki, mən 12 yaşında olanda özümdə fövqəladə bir fərasət və əzəmət

hiss etdim. Məni ziyarət edən hər kəsi ciddi və izzətlə qəbul edirdim. 18 yaşında olanda mən özümün süvarilik və ovçuluqda olan ustalıqlarım barəsində düşünməyə başladım. Əksər vaxtımı Quran oxumaqda, şahmat oynamaqda və xüsusən süvarilik məşğələlərində keçirdim.

Bu arzularını həyata keçirmək üçün o, Qazan xanın hüzuruna gedib onun bayrağı altında hərb dərsləri keçmək fikrinə düşür. 20 yaşna çatan Teymura atası bir yurd (aul) bağışlayır. Özünün arzusuna və israrına görə 1356-cı ildə atası onu Qazan xanın hüzuruna göndərir. Fəal və diribaş olan Teymur Qazan xanın ordusunda son dərəcə uğur qazanıb özünü bəyəndirə bilir. Ona görə də, Qazan xan nəvəsi, oğlu Sələyxanın qızı və Əmir Hüseynin bacısı olan Olcay Xatunu 1358-ci ildə Teymura nigah edərək Xorasan hökmdarı Hüseyn Kürdə qarşı səfərində onu minbaşı vəzifəsinə təyin etmişdi. Bu səfər parlaq qələbə ilə başa çatmışdı. Lakin çox çəkmədən Qazan xan bir qatil tərəfindən xəyanət nəticəsində öldürüldü. Yuxarıda qeyd etdiyimiz kimi, bu əsnada Teymurun atası da vəfat etmişdi. Bu zaman əmir Hüseyn Qazan xanın intiqamını almaq üçün Teymura ittifaq təklif etdi. Teymur bu dostluq təklifini qəbul etdi. Onların monqollara qarşı birgə mübarizə aparmaq haqqında qəbul etdiyi qərardan sonra baş verən müharibələr nəticəsində monqollara qarşı şiddətli müqavimətlə yanaşı, yerli əhali də ağır məhrumiyyətlərə və əzaba düçar oldu.

Tuğluq Teymurun mənsub olduğu monqol sülaləsi ağır sarsıntılardan sonra təhlükə qarşısında qaldı. Monqol ulusunun (qəbiləsinin) müvəqqəti rəisi olan Tuğluq Teymur artıq bu sülaləni qəti və son fəlakətdə oduğunu yəqin edərək türk qəbilələrini Mərkəzi Asiyadan çıxarmaq və öz sələfini hakimiyyətə gətirmək üçün bir ordu yaradaraq Almalıqdan Səmərqənd üzərinə yürüş etdi. O, Mavərənnəhrdə qaldığı müddətdə hər tərəfdə sakitlik və asayiş hökm sürürdü. Lakin Teymurun Mavərənnəhrin şərqinə doğru kiçik dəstə (1000 nəfər) ilə hərəkəti sakitliyi və asayişi pozdu. Sakit qəbilə başçıları və sərkərdələr monqol rəisinə qarşı çıxdılar və Keş şəhəri alındı. Üsyançıları cəzalandırmaq üçün

Səmərqəndə gələn monqol hakimi oğlu İlyas Xocanı kiçik xan və ona sadiq olan Teymuru oğluna müşavir təyin etdi. Teymur Əmir Xocanın yanında xidmət etmək istəmədiyindən onunla əlaqəni kəsdi, təkbaşına və müstəqil olaraq Mavərənnəhri idarə etməyə başladı. Əmir Hüseynin onu müdafiə etməsi öz təsirini göstərmişdi. Teymurla Əmir Hüseyn arasında yaxınlaşma və dostluq sonralar onların qohum olmaları ilə daha da möhkəmləndi. Onlar Mavərənnəhrdə daha güclü qüvvəyə malik oldular. Lakin onların arasındakı ittifaqdan hərə öz xeyri üçün istifadə etmək istəyirdi. Çoxlu gəlir əldə etmək məqsədilə tez-tez qonşu vilayətlər üzərinə hücum edirdilər. Amma heç də həmişə tale onların üzünə gülmürdü. 1362-ci ildə onlar 62 gün türkmən Əlibəyin yanında – Maxan kəndində (indiki Mari şəhərində) əsir olmuşdular.

Tuğluq Teymurun ölümündən sonra Mavərənnəhrdən qovulmuş İlyas Xoca düşdüyü vəziyyətlə barışmayaraq Mavərənnəhr üzərinə səfərə hazırlaşdı. 1365-ci ildə onun böyük ordu ilə Mavərənnəhr üzərinə yüoüşündən xəbər tutan Hüsyen və Teymur ona qarşı hərbi qüvvə yeritdilər. Tarixə «Cəngi-Lou» («Lou yaxınlığında döyüş») adı ilə daxil olan bu vuruşma Çinaz və Şaş (Daşkənd) altında baş verir. Döyüş zamanı yağan güclü yağış (leysan) sürüşkən duru palçıq əmələ gətirir və atlar öz müvazinətlərini itirib yıxılırlar. Döyüşün şiddətli vaxtında Teymurun ordusu böyük üstünlük əldə edir. Hüseynin ordusu isə cəsarətsizlik göstərir. Teymurun Hüseynin tabeçiliyində olmasına baxmayaraq ondan daha ciddi əməliyyatlar aparmağı tələb edir. Teymur və Hüseyn döyüşü uduzurlar. Hər iki əmir döyüş meydanından cüzi qüvə ilə çıxaraq əvvəlcə Səmərqəndə tərəf, sonradan Amu-Dəryanın cənubuna gedib Bəlx vilayətində gizlənirlər. Düşmən qabağından qaçan hər iki sərkərdə bununla İlyas Xocanın Səmərqəndə doğru yolunu açmış olurlar. Hüseyn şəhərdə heç bir hərbi və canlı qüvvə qoymadığından Səmərqəndin taleyi özbaşına, yəni İlyas Xocanın mərhəmətinə buraxılmışdı. Xöşbəxtlikdən *sərbədarlar* hərəkatının xeyli qrupları qalırdı. Bu hərəkat XIV əsrin birinci yarısında Xorasanda meydana gəlmişdi.

Monqol hakimiyyətinə qarşı çevrilən bu çıxışda sənətkarlar, xırda ticarətçilər və b. vardı. Onlar Xorasanın Mərkəzi Səbzivarda müstəqil dövlət yaradaraq təxminən 45 il (1337-1381-ci illərdə) bu dövləti yaşatmışlar. Onun banisi sərbədar Xoca Yəhya idi.

Sərbədarların İlyas Xoca üzərində qələbə xəbəri Teymur və Hüseynə çatdıqda (Teymur qışı Kaşqində, Hüseyn isə Amu-Dərya sahilində keçirirdilər) onlar 1366-cı ilin yazında birləşərək Səmərqəndə doğru hərəkət etdilər. Burada sərbədarlarla görüşüb onların bu hərəkətlərini bəyəndilər. Lakin bir gün sonra Teymur və Hüseynin yanına gələn sərbədarlar tutulub edam edildilər. Sərbədar Mövlanazadə isə Teymurun köməkliyi ilə azad edildi.

Hüseyn və Teymur yenidən Səmərqəndi tutudlar. «Birgə çıxış» etmələrinə baxmayaraq onların münasibətləri gündən-günə pisləşirdi. Səmərqənddə olan sərbədar qrupları Mövlanazadənin rəhbərliyi ilə 10 min nəfərə yaxın şəhər əhalisini İlyas Xocaya qarşı mübarizəyə qaldırmış və son nəticədə düşmən üzərində qələbə çalmışdılar.

1360-1370-ci illər Teymurun qüvvətlənməsinin ilkin mərhələsi olur. O, bu dövrdə hərbi işlərlə ciddi məşğul olmağa başlayır. Hələ gənc yaşlarında olduğu zaman Cağataylarla monqollar arasında olan müharibədə gah bir tərəfə, gah da digər tərəfə keçən Teymur qohumları ilə olan əlaqələrini ittifaqa çevirir, ətrafına toplaşanlar içərisində Barlas tayfasından olanlara üsiünlük verir. Onlar da ona ömürləri boyu sədaqətlə xidmət etmiş, hətta tək qaldığı çətin günlərdə onu tərk etməmişlər.

1362-ci ildə Hüseyn ilə birlikdə 62 gün türkmən Əlibəyin yanında əsirlikdə keçirdiyi əzablı günlər, nəhayət Əlibəyin onları buraxması və heç nə ilə təchiz etməməsi, bu çətin dövrdə Maxan kəndinin varlı türkmənlərindən olan Mübarək şahın onların köməyinə yetişməsi Teymura təsir etmişdi. Bu xidmətə görə sonralar Teymur Mübarək şahın nəslinə hörmətlə yanaşmışdı. Amu-Dəryada Teymura böyük bacısı Kutlu-Türkan ağa böyük kömək etmiş, Buxara ətrafından əsirlikdə olan qardaşının yanına gəlmiş və sonralar Teymur 48 gün Səmərqənddə bacısının

evində gizlənməli olmuşdu. Bundan sonra Teymur və Hüseyn 1000 nəfərlik dəstənin başında Seyistan vilayətinə getmiş, vilayətin yerli hakimləri olan düşmənləri onları geri qaytarmışlar. Burada Teymura zəhərli oxlarla zərbələr endirilmiş və o ağır yaralanmışdı. Aldığı xəsarətdən və şikəstlikdən bütün həyatı boyu əzab-əziyyət çəkmişdi. Tarixçi Klavixonun qeyd etdiyi kimi, bu zaman onun sağ əlində bir neçə əzələsi, bundan əlavə həmin əlindəki iki barmağı kəsilmiş və sol əli qurumuşdu. Həmin ox zərbələrindən sonra sol ayağından axsamağa başlamışdı. Bu hadisədən xeyli keçəndən sonra – 1383-cü ildə Teymur Seyistanda onu oxa tutan tayfa başçısına rast gəlmiş və onu oxa tutduraraq öldurtmüşdü.

Teymur və Hüseyn başlarına gələn və yuxarıda nəql olunan hadisədən sonra öz daxili və xarici düşmənləri üzərində qələbə çalaraq Mavərənnəhrdə hakimiyyəti ələ keçirmişlər. Hüseyn baş əmir, Teymur isə ona köməkçi olmuşdu. Lakin qohumluqları onların arasındakı münasibətləri nizamlamamışdı. 1366-cı ildə Səmərqənddə xalq hərəkatını sakitləşdirdikdən sonra Hüseyn Teymurun dostları üzərinə vergi qoyur. Teymur dostlarına kömək üçün varını, hətta arvadının sırğalarını da Hüseynə verir. Hüseyn sırğaları tanıyır, lakin geri qaytarmır. Hüseynin bacısı-Teymurun arvadı olan Ulcay-Türkan ağanın ölümündən sonra onların arasındakı dostluq və yoldaşlıq münasibətləri tamamilə kəsilir və düşmənçiliyə çevrilir. 1366-1370-ci illərdə Teymur Hüseynlə gah barışır, gah düşmənlərlə birləşir, gah da Hüseynin tapşırığı ilə özünün əvvəlki müttəfiqləri ilə vuruşmalı olur. Odur ki, bu cəhətdən daha çox diqqəti cəlb edən Teymurla Xuttalayan (Vəhc çayı ilə Pəncab çayları arasında) vilayətinin hakimi Əmir Keyxosrov arasında münasibətlər qaydaya düşür. Hələ 1360-cı ildə Hüseyn Keyxosrovun qardaşı Keyqubadı edam etdirmişdi. 1361-ci ildə o, Şaşa (Daşkəndə) qayıdarkən Teymur Hüseynlə ədavət aparırdı. Ona görə də, Teymur Keyxosrovla yaxınlaşır və oğlu Cahangirə onun qızı Rakiyə xanımı alır. 1369-cu ildə onların münasibətləri pozulur. 1370-ci ildə Hüseynlə mübarizənin qızğın vaxtında Teymur özünə yeni dini himayədar seçdiyi *Seyid*

Bərəkəni öz tərəfinə cəlb edir və ona Teymur dövləti tərkibində qalmaqla Andxou şəhərini hədiyyə edir.

Seyid XV əsrdə hakimiyyətdə olan Teymurlular dövründə tutduğu vəzifədə qalmışdı. Şərafəddin Yəzdinin sözlərinə görə bundan sonra Seyid Teymurun dəfn olunduğu mavzoleydə basdırılmış və Teymurun üzü Seyidə tərəf yönəlmişdi. Termez çeyidləri Əbül-Məali və Əli Əkbər qardaşları da Teymur dövlətində nüfuzlu şəxslərdən olub onun hakimiyyətinin sonuna kimi onun sarayında qalmışlar.

Lakin seyidlərin həyatında yeni hökmdara qısa müddətli xəyanət hallarına da təsadüf olunur. Belə ki, onun hakimiyyətinin ilk ilində ona qarşı bir neçə din xadimi, o cümlədən Şeyx Əbül-Leys Səmərqəndi və Termezdən olan Şeyx Əbül Məali xəyanət edərək sui-qəsd təşkil etmək istəmişlər. Lakin Teymur onlara son dərəcə yüngül cəza verərək Şeyxə Məkkəyə getməyə icazə vermiş, seyid isə saraydan qovulmuşdu. Amma bir müddət sonra Teymur onu bağışlamış, o, 1372-ci ildə Teymurun Xarəzm üzərinə səfərində iştirak etmişdi. Bundan sonra Termez seyidləri də ömürləri boyu Teymura sədaqətli qalmış və 1404-cü ildə Teymur özünün sonuncu qərb səfərindən qayıdarkən Termezdə Xudafəndzadə Əli əl-Mülkinin evində qalmışdı.

Termezdən başqa Mavərənnəhrin başqa şəhərlərində də din xadimləri vardı. Bunların arasında Teymurun doğma şəhəri Keş və paytaxt Səmərqənd ruhaniləri Teymurun əsas dayağı idilər.

Əmir Hüseyn də ona məxsus olan Bəlx şəhərini möhkəmləndirmək qərarına gəlmişdi. O, orada Ninduvan qərargahı tikərək şəhərin qala divarlarını möhkəmləndirmiş, bura öz vardövlətini, habelə xeyli silah gətirmişdi. Teymur başa düşürdü ki, bütün bü tədbirlər ona qarşı çevrilmişdi. O, bir neçə dəfə Hüseyni dilə tutub Bəlxdə yeni möhkəmləndirilmiş qalalar tikmək təklif etsə də, Hüseyn onun təkliflərinə qulaq asmamışdı. Bu səbəbdən də, Əmir Hüseynə qarşı mübarizə aparan Teymurla Xuttalyan hakimi Keyxosrov birləşirlər. Teymur əmir Hüseynə xəbərdarlıq etdikdən sonra 1370-ci ildə yaxşı silahlanmış or-

du təşkil edib Keyxosrovla birlikdə Bəlx üzərinə hücuma keçərək şəhəri mühasirəyə almış və ciddi mübarizədən sonra Bəlx işğal olunmuşdu. Əsir alınan əmir Hüseyn 1370-ci ildə Keyxosrov tərəfindən öldürülmüş, Teymur isə bu hadisəyə reaksiya verməmişdi.

Teymur siyasi mübarizədə əsas rəqiblərini sıradan çıxardıqdan iki il sonra (1372) xarəzmlilərlə müharibə dövründə ona xəyanət edib xarəzmlilər tərəfinə keçən Keyxosrovu da xainlikdə ittiham edərək edam etdirmişdi.

Teymur siyasi hakimiyyətə gəldikdən sonra şahzadə *Syuqatmışı* xan elan etdi. Teymurun Syuqatmışı xan elan etməsinin səbəbi onunla əlaqədar idi ki, Teymur rəsmən Çingizlilər nəslinə məxsus deyildi, yəni monqol deyil, türk idi. Türk Barlas qəbiləsində doğulan Teymurun hakimiyyəti əslində rəsmən qəbul olunmurdu. Teymurun isə monqollara qarşı, ilk növbədə, Tuğluq Teymura və onun oğlu İlyas Xocaya qarşı mübarizədə məqsədi güclü türk dövləti-imperiyası yaratmaq idi. 1388-ci ildə *Syuqatmış* xan öldükdən sonra taxt-taca onun oğlu Sultan Mahmud çıxarıldı. Əvvəlki dövrlərdən fərqli olaraq Teymur artıq bu xanları Səmərqənddə gizli saxlamır, hərbi səfərlər zamanı onları özləri ilə aparırdı. Lakin bir çox qəbilələr, xüsusən də Mavərənnəhrin şimalında Xocavənd şəhəri yaxınlığında yaşayan cəlairlər tayfası ona tabe olmaq, onu hökmdar kimi qəbul etmək istəmirdi. Teymur altı illik daxili mübarizə nəticəsində cəlairlər ulusunun sonuna çıxdı və onun qalıqları 1376-cı ildə başqa əmirlər arasında bölüşdürüldü.

Teymur hakimiyyətinin ilk dövründə qarşısına qoyduğu məsələləri reallaşdırmaq üçün 1365 -1366-cı ilin qışında Kayşi şəhəri ətrafında qalalar tikildi, 1370-ci ildə Səmərqənd hündür divarlarla əhatə olundu və ölkənin qüdrətli istinadgahına çevrildi. 1380-ci ildə Şəhrisyabzda Teymur Cağatay tayfaları ilə ədavətə və incikliyə son qoydu. Onlardan xarici görünüş etibarilə müsəlman ordusundan fərqli olan hərbi qüvvə yaratdı. Bu qüvvə öz türk başçısına (Teymura) sadiq idi.

Teymur cağataylara böyük güzəştlər etdi və onlara əlavə səlahiyyətlər verdi. Klavixonun yazdığına görə, cağataylar öz mal-qara sürüləri ilə istədikləri hər yerə gedə bilər, qış və yayda istədikləri yerdə yaşaya bilərdidər. Onlar hökmdara olan vergidən azad edilmişdilər. Hərbi səfərlər zamanı özləri ilə arvad və uşaqları, mal-qaralarını apara bilərdilər.

Teymur monqol və türk qaydalarına uyğun hərbi quruluş yaratmışdı. Monqollarda olduğu kimi, böyük qəbilələrdən olan qrupları uluslar, hərbi dəstələrin qrupları tümən (on min), xırda hərbi hissələr qoşun adlanırdı. Çingizin dövründə də 1000 nəfərlik dəstə bu adı daşıyırdı. Teymur ordusunda qoşun ifadəsi 50-100 nəfər əsgərə şamil edilirdi.

Təbii ki, Teymur hər şeydən əvvəl monqol tipli döyüşçü və hakim, sonra isə müsəlman idi. Teymur monqol adət-ənənələrinə riayət edərək Çingiz xan nəslindən olan və ona qohumluğu çatanlara böyük üstünlük verirdi.

3.1.2. Əmir Teymurun siyasi hakimiyyətə gəlməsi

Teymur Mavərənnəhrin xırda mülklərini ələ keçirərək mərkəzləşdirilmiş dövlət yaratmaq uğrunda mübarizəsini davam etdirdi. Bəlxin alınması və Hüseynin öldürülməsi bu mübarizəni sürətləndirdi. Bu işdə din xadimləri də ona kömək etdilər. Bəlx alınmamışdan əvvəl əslən Məkkədən olan, sonralar onun dini dayağına çevrilən Şeyx Bərəkənin Teymura təbil və bayraq verməsi onu bir az da həvəsləndirmişdi. Özündə böyük cəsarət və hünər hiss edənTeymur qurultayda özünü Mavərənəhrin böyük bir hisəsinin hakimi elan etdi, ordu rəisləri onu yeganə hökmdar kimi qəbul etdilər. Artıq daxildə heç bir siyasi rəqibi olmayan Teymur din xadimlərini ətrafına topladı, müharibələrdən əldə etdiyi qənimətlərdən onlara da pay ayırdı.

Teymur başa düşürdü ki, dağınıq feodal mülklərini özünə tabe etdirib ilk növbədə siyasi cəhətdən güclü dövlət yaratmalıdır. Keşdə olarkən yaxın silahdaşlarından olan Davudu özünə vəzir təyin edən Teymur Kəbək xanın (1318-1326) islahatlarını

davam etdirərək ölkəni inzibati tümənlərə bölmüş, onlara hərbi rəislərini başçı təyin etmiş və onları ordu ilə təmin etmişdi. Səmərqənd monqol işğalından 150 il sonra qala divarları ilə möhkəmləndirilərək mərkəzə çevrilmişdi. Bununla da, Teymur yerli hakimlərin müqavimətini qırmış, kənardan gözlənilən təhlükəyə hazırlaşmışdı. Ona yaxşı məlum idi ki, öz daxili rəqiblərini, ilk növbədə sakit dayanmayan monqol-türk tayfalarından olan cəlairlərdən, barlaslardan, sulduzlardan və b. qorunmaq və onları ələ almaq üçün möhkəm hakimiyyət vacibdir. O, Mavərənnəhrin yerli hakimlərinin qazanc və gəlir hərisi olduğunu bildiyindən hakimiyyətinin ilk illərindən özündən əvvəlki hakimlər kimi sırf işğalçılıq xarakteri daşıyan hərbi səfərlər keçirərək kifayət qədər maddi və hərbi güc toplamağa çalışırdı. Qarşısında güclü hakimlər olmayan Amu-Dərya və Sır-Dərya arasındakı torpaqları, habelə Fərqanə və Şani vilayətlərini özünə tabe etmək yolunda çətinliyə rast gəlmədi.

Əsas çətinlik monqollara qədərki dövrdə Mərkəzi Asiyanın mühüm iqtisadi, siyasi, hərbi və mədəni mərkəzlərindən olan Xarəzmlə bağlı idi. Şəhər hələ monqol hücumları dövründə inadlı müqavimət göstərdiyinə görə iki hisəyə bölünmüşdü. Şimali Xarəzm Ürgənc şəhəri də daxil olmaqla Qızıl Ordanın tərkibinə, şəhərin cənubu Keş şəhəri ilə birlikdə Cağatay ulusuna verilmişdi. XIV əsrin 50-ci illərinin sonunda – 1359-cu ildə Xarəzm hökmdarı Berdi bəyin ölümündən sonra şəhərdə daxili mübarizə və özbaşınalıq tüğyan etdiyindən şəhər Qızıl Ordadan ayrılaraq sufi sülaləsindən olan hakimlər tərəfindən müstəqil idarə olunurdu. Kunqat tayfasından olan Hüseyn Sufi 1361-ci ildən şəhərin cənub və şimal hissələrini tutmaqla onu vahid Xarəzm dövləti kimi birləşdirməyə başlamışdı. Sonralar Xivə də Xarəzmlə birləşdirilmişdi. Cağatay ulusu mülklərinə sahiblik etmək istəyən Teymur isə Hüseyn Sufinin hərəkətlərindən narazı qaldığından Xarəzmi yeni yaratmaqda olduğu dövlətin tərkibinə qatmağa cəhd göstərirdi.

1372 ci ildə Teymur Hüseyn Sufini yanına öz səfirini göndərərək ondan tutduğu əraziləri qaytarmağı tələb etdi, onun bu

tələbini rədd edən Hüseynə qarşı öz qoşunlarını göndərdi. Ürgəncə gedən yol Keş şəhəri içərisindən keçirdi. Ürgənc çox da güclü olmayan bir sıra həmlələrdən sonra alınır. Keşin itirilməsi Hüseyn Sufiyə ağır təsir edir. O, Teymurla barışıq bağlamağa və onun tələblərini yerinə yetirməyə hazır olsa da, Teymurun sərkərdələrindən olan Xutalyan hakimi Keyxosrov Teymurun tezliklə yüksəlməsindən və nüfuza sahib olmasından narazı olduğundan Hüseyn Sufini dilə tutaraq Teymurun qabağından qaçmamağı məsləhət görüb Teymura qarşı mübarizədə ona kömək edəcəyini bildirir. Nəticədə Keyxosrovla Hüseyn Sufi 1372-ci ildə Teymura qarşı çıxsalar da, tezliklə məğlub oldular, Ürgənc ətrafında gizlənən Hüseyn Sufi bir müdətdən sonra vəfat etdi. Teymur Hüseyn Sufinin yerini tutan qardaşı Yusif Sufiyə sülh müqaviləsi bağlamağı təklif etdi, oğlu Cahangirə Hüseyn Sufinin qızını aldı. Teymur qiyamçı sərkərdə Keyxosrovu həbs edərək edam etdirdi. Lakin Yusif Sufi öhdəsinə götürdüyü şərtlərə əməl etmədi. O, Teymur gedəndən sonra Keş şəhərini yenidən tutaraq Mavərənnəhr hakiminə qarşı çıxışa başladı. Teymur 1373-1374-cü illərdə ikinci dəfə Xarəzm üzərinə hərəkət etdi. Səhv etdiyini etiraf edən Yusif Sufi Teymurdan üzr istəyərək onun şərtlərini yerinə yetirməyə hazır olduğunu bidirdi. Bununla da, Cənubi Xarəzm Teymur dövlətinin tərkibinə daxil oldu. Bu, gənc hökmdarın böyük hərbi qələbəsi idi.

3.1.3. Teymurun Qızıl Orda hakimiyyətinə qarşı hərbi əməliyyatları

Teymur Xarəzm üzərinə daha üç səfər etmişdi. Bunun sonuncusu Qızıl Orda xanı Toxtamışın vahid hakim olmaq siyasəti ilə bağlı olmuş və nəticədə Teymurun Toxtamışa qarşı mübarizəsi xeyli kəskinləşmişdi. Teymur yaxşı başa düşürdü ki, Qızıl Orda kimi qüdrətli dövlətin mövcud olması onun Mavərənnəhrdə yaratmaq istədiyi qüdrətli dövlət üçün çox ciddi maneədir. Ona görə də, o, hakimiyyətinin ilk günlərindən Ağ Orda ilə Qızıl Orda arasındakı daxili çəkişmələri, xüsusən 1360-1380-ci illərdə

Qızıl Orda daxilində baş verən parçalanma və zəifləməni, son 20 ildə xanlıqda 25 xanın bir-birini əvəz etməsini, Cuci ulusunun qoşun başçıları arasındakı münaqişəni və daxili ziddiyyətləri diqqətlə izləyirdi. Teymur 1376-cı ildə Qızıl Orda xanı Toxtamışla Ağ Orda xanı Urus xan arasında mübarizədə Toxtamışın məğlubiyyəti və Toxtamışın Teymurun yanına gələrək ona xidmət etmək istədiyini bildirməsi Teymuru qəti hərəkət etməyə sövq etdi. Teymur Toxtamışa çoxlu hədiyyələr və hərbi dəstə verərək 1376-cı ildə rəqibi Urus xana – Ağ Ordaya qarşı mübarizəyə göndərdi. Lakin Toxtamış məğlub olduğundan Teymur özü 1376-cı ilin qışında Ağ Ordaya qarşı səfər planlaşdırmış, lakin güclü şaxtalar başladığından bu yürüş təxirə salınmışdı.

1377-ci ilin yazında Teymur Sır-Dərya üzərinə hücum etdi. O, bu dövrdə – 1379-cu ildə həm də Ağ Orda taxt-tacını tutmağa müvəffəq olmuş və Toxtamışı Ağ Ordaya xan təyin etmişdi. Lakin Toxtamış onun ümidlərini doğrultmadı. O, Ağ orda xanı olandan sonra Urus xanın yolu ilə gedən Toxtamış Cuci ulusu daxilində birləşmə və güclü Qızıl Orda dövləti yaratmaq siyasəti yeritməyə başlamışdı. Mamayın 1380-ci il sentyabrın 8-də Moskva böyük knyazı Dmitri İvanoviç tərəfindən Kulikova çölündə məğlubiyyətə uğradıqdan sonra Toxtamış Mamayın üzərinə hərəkət edərək Kalka çayı üzərində onu ağır məğlubiyyətə uğratmış, Qızıl Ordanın hakim idarə sisteminə sahib olaraq Qızıl Orda qüvələri ilə Cuci ulusunun hər iki hissəsini birləşdirmişdi.

Teymurla onun qorxulu rəqibi Toxtamış arasında ziddiyyət getdikcə artır və güclənirdi. Toxtamış Qızıl Ordanı Özbək xanın dövründəki (1312-1340) qüdrətə qaldırmaq istəyir, Ordanın ərazisini genişləndirmək məqsədilə 1385-ci ildə ön və arxa Qafqaza, o cümlədən Azərbaycana böyük bir hərbi qüvvə göndərərək Təbrizi tutmaq istəyirdi. Toxtamış Qızıl Ordanın hakimiyyətini möhkəmləndirmək, mədəni səviyyəcə üstün olan Krım, Volqaboyu və Xarəzm əhalisi üzərində hakim olmaq istəyirdi. Əhali isə monqollardan qurtulmaq və onun devrilməsini gözləyirdilər.

Toxtamış Teymurun 1387-1388-ci illərdə Mavərənnəhrdə olmamasından istifadə edərək oraya hücumlar etmiş, əhalini Teymura qarşı üsyan qaldırmağa çağırmışdı. Xarəzm hakimi Süleyman Sufi də 1388 -ci ildə Xarəzm üzərinə sonuncu hərbi səfər edərək Ürgənci tutmaq istəmişdi. Süleyman Sufinin bu xəyanətindən son dərəcə qəzəblənən Teymur Ürgənci tutmuş və Sufi sülaləsini ləğv edərək şəhər əhalisini Səmərqəndə köçürməyi, Ürgəncin torpaqlarını viran qoyaraq orada ağac əkməyi əmr etmişdi. On gün ərzində şəhər Teymur ordusu tərəfindən talan edilmiş, sənətkarlar Səmərqəndə köçürülmüşdü. Sonralar, Toxtamışa qarşı 1391-ci ildəki səfərində Teymur Ürgəncin yenidən bərpası əmrini vermişdi. Beləliklə, Xarəzm dövlətinin müstəqilliyinə son qoyulmuşdu.

Teymurun Toxtamışa qarşı müharibələri Mavərənnəhr torpaqlarının monqollar tərəfindən tutulmasına imkan vermədi, yalnız Sır-Dərya boyunda Şaurandan aşağı tərəfdə yerləşən ərazilər işğal olundu. Cuci ulusunu zəiflətməyə çalışan Teymur Qızıl Ordanın yenidən dirçəlməsini istəyən Toxtamışın şəxsində öz rəqibini görür və onu aradan götürmək istəyirdi. Bu məqsədlə Teymur 1380-ci ildən başlayaraq 1389, 1391, 1394, 1395-ci illərdə dörd böyük hərbi səfər təşkil etdi, həm də Xarəzm, Qafqaz və Rusiyanın cənub sahillərinə, həmçinin İrana qarşı da hərbi yürüşlərini davam etdirdi.

1391-ci iln yayında 200 minlik ordu ilə Səmərqənddən çıxıb qışı Şaşda (Daşkənddə) keçirən Teymur Toxtamışla Gündüzgə adlı yerdə qarşılaşdı. İyunun 18-də Toxtamışın məğlubiyyəti ilə nəticələn bu döyüşdən narazı qalan Teymur müharibələrə ciddi hazırlaşmağa başladı. 1395-ci ildə Şimali Qafqazda, Terek sahilində yenidən Toxtamışla qarşılaşdı və onu məğlub etdi. Beləliklə, Teymurun Volqa sahillərinə yolu açıldı, Qızıl Ordanın paytaxtı Saray-Berke tutuldu, şəhər yandırıldı. Eyni aqibəti Hacı Tarxan-Həştərxan, Krım və Şimali Qafqazda yaşadı.

3.1.4. Teymurun şəxsiyyəti, hərbi qaydaları, dini etiqadı, maarifçilik və himayədarlıq sahəsində xidmətləri.

Hərb tarixində, xüsusilə Orta Asiya sərkərdələri içərisində xüsusi yer tutan görkəmli hərb xadimi, ordu təşkilatçısı və başçısı olan Teymurun əsas və etibarlı dayağı ordu idi. Onun ordusu onluq, yüzlük, minliklərə bölünüb atlı və piyada əsgərlərdən ibarət idi. Əmir Xoca Seyfəddin, Şeyx Əli Bahadur, Davud Barlas, oğlu Cahangir və Miranşah, nəvələri Pirməhəmməd, Uduğbəy sərkərdələr kimi yetişmişdilər. 1403-1404-cü illərin qışında Qarabağa hücum edən Teymurun ətrafında Seyid Bərəkə, Xoca Abdulla, Xoca İsaməddin, Səmərqənd şeyxüslamları Əbdülhəmid və Əbdürrəhman, Keş xocaları toplaşmışlar. Onun qərargahında kəşfiyyat mühüm yer tuturdu.

Teymur din xadimlərini Məhəmməd peyğəmbərin varisləri hesab edir və onlara xüsusi hörmət bəsləyirdi. Hafizi Əbru göstərirdi ki, Əmir Teymur şəriətin və ona olan inamın nümayəndələrinin pul məsələlərinə qarışmazdı. Hafizi Əbru göstərirdi ki, Teymur elm adamlarına himayədarlıq edir, dünyəvi elmlərdən daha çox tarixi öyrənir, filosoflara hörmətlə yanaşırdı. Onun tarix haqqında bilikləri arsında türk, ərəb və İran tarixi mühüm yer tuturdu. O, eyni zamanda təbabət və astronomiyaya dair biliklərə də malik idi. Onun Səmərqəndə gətirdiyi alimlər arasında Hüsaməddin İbrahim şah Germanlı Teymur dövrünün Hippokratı kimi şöhrət qazanmışdı. Həkim və astronom olan Mövlanə Əhməd Teymur sarayında 200 il üçün astroloji hesablamalar aparmışdı. Teymurun astrologiyaya dair inamı barəsində birmənalı fikir olmasa da, dövrün alimləri onun Qurani-Kərim ilə hadisələri məyyən etdiyini göstərirlər. Teymur üçün din yalnız siyasət məqsədlərinə çatmaq vasitəsi deyildi, dindar olub islama müqəddəs din kimi baxırdı. Suriyanı işğal edən zaman həzrəti Əli və onun nəslindən olanları ziyarət etmişdi. Suriyalılar onu şiə təriqətinə mənsub hesab edirdilər. Müsəlman din xadimləri ondan çəkinir və qorxurdular. Nizaməddin Şami nəql edirdi ki, Teymur 1403-cü ildə Azərbaycanı işğal edib Kür çayı sahilində

dayanarkən öz qulamlarından islamın əvvəlki nümayəndələrindən öz sultanlarınızdan bir ibrət nümunəsi götürmədiklərinin səbəblərini soruşanda onlar hökmdarlarının (Teymurun) daha yaxşı nümunə olduğunu söyləmişlər.

Teymur öz döyüş yoldaşlarından sadaqətli olmalarını tələb edirdi. Teymurilər imperiyası onun müstəsna sərkərdəlik istedadının gücünə bariz nümunədir. Bir vilayət hakimi səviyyəsindən yüksələn Əmir Teymur orta əsr Mərkəzi Asiyanın və türk dünyasının şanlı döyüş ənənələrini davam etdirmişdi. O, şəxsi igidlik göstərər, qılınc oynatmaqda sərkərdələrinə və əsgərlərinə nümunə olardı. Dərin zəka sahibi olan Əmir Teymur atasına və ustadına ehtiram göstərər, bilmədiklərini öyrənməyə cəhd edərdi. Hələ kiçik yaşlarından müəllimi və yaxın məsləhətçisi Seyid Bərəkənin məsləhəti ilə Qurani-Kərimi oxumağı və türkcə yazıb-oxumağı öyrənmişdi. Teymur at üstündə cəng etməyi, şahmat oynamağı sevirdi. Teymurun yaratdığı imperiya türk-monqol dövlətçiliyni və hərbi quruluşunu və müsəlman-islam mədəniyyəti ünsürlərini özündə əks etdirən və uzlaşdıran güclü siyasi qurum idi.

Mərkəzi Asiyanın tez-tez dəyişən hərbi-siyasi şəraiti, bir - birindən cəsur olan türk sərkərdələri arasında baş verən sonsuz çəkişmələr və ziddiyyətlər, güclü dövlət yaradılmasına maneçiliklər mürəkkəb vəziyyətlərdən çıxış yolları axtarışı Əmir Teymuru tarixi şəxsiyyət kimi formalaşdırmışdı. Cəsur sərkərdə kimi şöhrətlənən Əmir Teymur həm də incə siyasətçi idi. Əldə etdiyi mühüm qələbələrlə öyünməsi düşmənlərinin saynın artmasına şərait yaratmışdı. Bununla belə, uzaqgörənliyi, səmimiliyi, dostluqda vəfalı olması və igidliyi sayəsində Mərkəzi Asiyanın qüdrətli hökmdarına çevrilmiş, şöhrət nərdivanının ən uca pilləsinə yüksələnə qədər rastlaşdığı xəyanətlər, məğlubiyyətlər, yaxın silahdaşlarının itgisi, arxadan vurulan zərbələr onda həm də qəddarlıq hissləri tərbiyə etmişdi.

Əmir Teymur zamanının-dövrünün ağıllı və müdrik insanların himayəçisi olmuş, tez-tez onların məclislərində iştirak edərək onlarla mübahisələrə girər, onun fikirləri ilə razılaşmayan

elm adamlarına böyük hörmət və qayğı ilə yanaşar, onların arzu və ehtiyaclarını nəzərə alıb mükafatlandırardı.

İşğal etdiyi ölkələrdə elm-sənət adamlarına, sənətkarlara, din xadimlərinə, tacirlərə toxunmazdı. Məşhur sənətkarları imperiyasının paytaxtı Səmərqəndə göndərər, şəhərin yenidən qurulmasını və abadlaşdırılmasını nəzarətdə saxlayardı.

Teymur Səmərqənddə (Səmərqənd – böyük kənd) Göy-Saray, Bibi-xanım məscidi və mədrəsəsi kompleksi, Şahı Zində movzoleyi, Səmərqənd ətrafında bağlar və saraylar – Bağı-Çinar, Bağı-Şamalş, Bağı-Dilguşə, Bağı-Behişt, Bağı-Növ və b. binalar tikdirmiş, Kuxak və Zərəfşan çayları üzərində körpülər salmış, yollar çəkdirmişdi. Amu-Dərya və Sır-Dərya üzərində körpülər, kanallar, irriqasiya tikililəri, Buxara, Şəhrisyabz, Fərqanə və Türküstandakı karvansaraylar dövrün memarlıq incilərıdir.

3.2. Teymurun yürüşləri

3.2.1. Azərbaycan uğrunda mübarizə

Əmir Teymur Turğay oğlu Bahadurun həyat və fəaliyyətini iki mərhələyə: bölmək olar: 1) 1360-1386-cı illər; 2) 1386-1405-ci illər

Birinci mərhələdə Teymur türk və tacik əyanları ilə birlikdə qüvvələri birləşdirməkdə maraqlı olub bəylər və sultanlar arasında davam edən çəkişmə və ara müharibələrinə son qoyaraq müstəqil Mavərənnəhr feodal dövlət yaradır.

İkinci mərhələdə Teymur Hindistan, İran, İraq, Qafqaz, Misir və Rus dövlətinin cənub sərhədlərini tutmaq üçün müharibələr aparır.

Əgər Teymurun Xarəzm və Qızıl Orda ilə mübarizəsi Mərkəzi Asiyanı güclü dövlətə çevirmək marağından irəli gəlirdisə, onun Qafqaz, İran, Osmanlı, Misir, Suriya, İraq, Hindistan və Çinə hərbi səfərləri imperiyanın ərazisini genişləndirmək, cahanşümul dövlət yaratmaq məqsədi daşıyırdı.

XIV əsrin 70-80-ci illərində Qafqazdakı qeyri-sabit siyasi vəziyyəti Əmir Teymur və Toxtamışın bu ölkələrə hücumu üçün əlverişli şərait yaratmışdı. Teymur 1385-1386-cı illərdə böyük ordu ilə Azərbaycana yürüş təşkil edərək Təbrizi tutur və əhali üzərinə böyük miqdarda vergi qoyur. O zaman Azərbaycanın bir hissəsini Cəlairi Əhməd (1382-1410), Şirvanı I İbrahim (1382-1417) idarə edirdilər.

Teymur 1385-ci ildə bir sıra qonşu dövlət başçılarına məktub göndərərək onlardan tabe olmağı tələb edir. Xorasan hakimi Şahvəli ətraf vilayətlərin hakimlərinə (o cümlədən Azərbaycan hökmdarı Cəlairi Sultan Əhmədə) xəbər göndərərək Teymura qarşı birləşməyi təklif etsə də, müsbət cavab almadığı üçün müharibə meydanında tək qalır və məğlub olur.

Teymurun Xorasanı tutub Azərbaycana tərəf irəlilədiyini eşidən Sultan Əhməd ona qarşı qoşun göndərir, Sultaniyyə ətrafındakı vuruşmada məğlubiyyətə uğrayır. Sutaniyyə şəhərini almış Teymur Orta Asiyada baş vermiş hadisələrlə əlaqədar Səmərqəndə qayıdır.

Sultan Əhmədin Bağdadda olması və Teymurun Səmərqəndə qayıtması nəticəsində yaranmış əlverişli vəziyyətdən istifadə edən Qızıl Orda xanı Toxtamış 1385-ci ildə 90 minlik ordu ilə Dərbənddən Şirvana keçərək Azərbaycana soxulur. Təbriz əhalisi şəhərin müdafiəsinə qalxır. Şəhərdə xəndəklər qazlır, səngərlər yaradılır. Toxtamış şəhərin möhkəm müdafiə olunduğunu görüb danışıqlar aparır və xərac kimi 250 min tümən qızıl pul almaq şərti ilə geri çəkiləcəyinə razılıq verir. Şəhər əhalisi sülh ümidi ilə silahı yerə qoyur.

Təbriz əyanlarının Toxtamışa veriləcək məbləğin toplanması ilə məşğul olduğu vaxt vəziyyətdən istifadə edən Toxtamış qoşunla şəhərə daxil olur. Əhali qarət olunur. Təbriz əhalisi 8 gün ərzində işğalçıların zülmünə məruz qalır. Marağa şəhəri düşmənin əlinə keçir və qarət olunur, iki hissəyə bölünən Qızılordalıların bir hissəsi Mərəndə və Naxçıvana gedib əhalini qarət edərək dağıdır, digər hissəsi isə Əhər istiqamətində irəliləyir. Hər

iki dəstə Qarabağda birləşərək şimala çəkilirlər. Toxtamış Azərbaycandan geri qayıdarkən 200 minə qədər adamı əsir aparır.

Toxtamışın ardınca Teymur 1386-cı ilin baharında Azərbaycana yürüş edir. Tarixdə üçillik yürüş kimi qalan bu yürüşdə Teymur əmirlərini Sultaniyyəyə göndərir. Onlar burada yerli hakim olan Adillə birləşərək Təbrizə gəlirlər. Sultan Əhmədin Təbrizdəki əmirlərinin bir hissəsi Əlincə qalasına, bir hissəsi isə Bağdada çəkilirlər. Təbriz Adilin ixtiyarına keçir. Sultan Əhmədin Təbrizə göndərdiyi qoşun məğlub olaraq geri qayıdır. Az sonra Adilin Teymuru qarşılamaq üçün Həmədana getdiyini eşidən Əhməd Təbizə hərəkət edir. Onun Marağa vilayətinə daxil olmasını eşidən Adilin əmirləri Təbrizi tərk edərək geri çəkilirlər. Adillə birləşmiş Teymur Uçana çatdıqda Sultan Əhməd müqavimət göstərmək iqtidarında olmadığı üçün Təbrizdən çıxıb Naxçıvana, ordan Bağdada çəkilir. Təbrizə daxil olmuş Teymur bir müddət sonra ordan gedir, Əlincə qalasında dağ ətəklərində bir günlük vuruşmadan sonra Qarabağa qışlamağa gəlir. Teymur Qarabağda olduğu zaman Şirvanşah I İbrahim qiymətli hədiyyələrlə onun yanına gedib öz itaətini bildirir və onunla ittifaq bağlayır.

XIV əsrin son rübündə Cənubi Qafqazda baş vermiş hadisələr (ilk növbədə Teymurun və Şirvanşah I İbrahimin fəaliyyəti) nəticəsində Azərbaycanın şimal-qərb sahələri genişləndi. Tarixçi Şərafəddin Əlinin yazığına görə, Azərbaycan ilə Gürcüstan arasındakı sərhəd Debed (Tebeder) çayı boyunca keçirdi.

1387-ci ildə Teymur Toxtamışın Buxara və Səmərqənd üzərinə hücumu ilə əlaqədar Azərbayacanı tərk etməli oldu. O, burada öz şahzadələrindən və yerli əyanlardan ibarət canişinlərini qoydu. Təbriz şəhərini Miranşahın başçılığı ilə Əmir Məhəmməd Dəvati və Qtrar Bəstama, Sultaniyyəni Əxi İranaha, Marağanı Şahəliyə, Pişkini Əmir Səbli və Hacı Əhmədə tapşırdı. Lakin tezliklə Teymurun canişinləri arasında çəkişmələr başlandı. Azərbaycanda hakimiyyəti ələ almağa çalışan bir sıra yerli feodal qrupları da mübarizəyə qalxaraq, həm Teymurilərlə, həm də öz aralarında toqquşurdular. Təbrizdə Sultan Əhmədin ha-

kimiyyətini bərqərar etməyə çalışan əmirlər, Mahmud Xalxalinin idarə etdiyi feodal qrupu, Qara Yusifin başçılığı ilə Qaraqoyunlular, Marağa hakimi Yadigar şahın dəstələri və hakimiyyətdə möhkəmlənməyə can atan Teymuri əmirləri bu çəkişmələrin başlıca iştirakçıları idi.

1387-ci ildə Təbriz hakimlərindən olan Qara Bəstam və Pişkin hakimi Əmir Şəbli ittifaqa girərək Məhəmməd Dəvatinin hakimiyyətini devirib buranı tutdular. 1388-ci ilin fevralında Əlincə qalasının kutvalı Xacə Gövhər Cəlairi əmir Altunun başçılığı ilə Təbrizə qoşun göndərdi. Şəbli Mərəndə onlara qarşı çıxdı, lakin məğlub oldu. O, əvvəlcə Təbrizdə, sonra isə Marağada əhalini qarət etdi.

Təbrizdə Şəblinin naibi Əmir Dövlətyar Qaraqoyunlu Qara Məhəmmədi şəhəri tutmağa çağırdı. Həmin ilin may ayının 25-də Qaraqoyunlu qoşunu Təbrizə çatdı, şəhərdə olan Şahəlini həbs edib Şəblinin ardınca getdi, onlar Həşruddakı vuruşmada qələbə çaldılar. Şəbli öldürüldü. Lakin Qaraqoyunlularla Ağqoyunlular arasında vuruşma başlandığı üçün Qara Məhəmmədin dəstəsi Təbrizdən çıxmalı oldu. Onlar şəhəri Qara Bəstama və Əmir Caliqə tapşırdılar. Tezliklə Qaraqoyunlu əmirləri geçə şəhəri tərk etdilər və Təbriz Şeyx Adilin sərəncamına keçdi. O, Əlincə qalasının kutvalı Gövhəri Təbrizə dəvət etdi. Gövhərin Təbrizi tutub Arrana qoşun göndərməsindən narazı qalmış Xalxali hakimi Mahmud ona qarşı qoşun yeritdi və Təbrizə yürüş edib şəhəri ələ keçirdi. Təbriz 5 ay müddətində Mahmud Xalxalinin başçılıq etdiyi əmirlər qrupunun (Şeyx Hacı, Məlik Nizaməddin, Satılmış, Xalıq və b.) ixtiyarında oldu. Lakin 1391-ci ildə Mahmud Xalxali yenidən Sultaniyyədən Təbrizə yürüş etdi, Altun ilə qanlı vuruşmalar apardı və qalib gələrək Təbrizdə hakimiyyəti ələ aldı. O, 6 aydan sonra Əmir Məlik Nizaməddini şəhərdə qoyub Xalxala qayıtdı. Vəziyyətdən istifadə edən Qara Yusif Xoydan Təbrizə gəldi, şəhəri tutub və bir neçə gündən sonra əmirlərini burada qoyub geri qayıtdı. Az sonra Əmir Altun bir daha Əlincə qalasından Təbrizə hücum etdi, şəhəri ələ keçirdi. O da öz nümayəndələrini şəhərdə qoyub geriyə –

Əlincəyə qayıtdı. Bu vaxt Mahmud Xalxali Təbrizə yürüş edərək Altun ilə 12 günlük vuruşmadan sonra qələbə çaldı və şəhərə daxil oldu. Lakin o, bu dəfə Təbrizdə möhkəmlənə bilmədi. 1392-ci ildə Aladağ yaylağından Təbrizə irəliləyən Qara Yusif şəhəri tutdu. Mahmud Xalxala çəkildi. Təbriz bir neçə gündən sonra Əmir Bəstamın və onun müttəfiqlərinin (qardaşı Mənsur və Xalıdın) əlinə keçdi. Qara Yusif şəhərdən çıxmalı oldu.

Bu zaman Marağada feodal çəkişmələri gedirdi. Ruyendey qalasında Əmir Məhəmməd Dəvatini həbsə almış Yadigar şah Marağada hökmranlığa başladı və bir neçə gündən sonra Təbrizə yürüş etdi. Lakin şəhəri tutmaq ona müyəssər olmadı.

Təbriz Bəstam, Cakir və onun müttəfiqlərinin ixtiyarında çox qalmadı. Qara Yusif şəhərə yürüş edib oranı tutdu və bir aya yaxın şəhərdə qaldıqdan sonra Əmir Satılmışı canişin təyin edib şəhərdən çıxdı. Bu xəbəri almış Yadigar şah yenidən Marağadan Təbrizə yürüş etdi, baş vermiş vuruşmalarda tərəflərdən heç biri qələbə qazana bilmədi. Bu əsnada Teymurun qoşunları Azərbaycan sərhədlərində göründü. Qaraqoyunlular Təbrizi tərk edib öz vilayətlərinə tərəf çəkildilər. Yadigar şah isə Marağaya getdi. Teymurun qoşunu 1392-ci ildə Təbrizə daxil oldu.

Cəlairi sultanı Əhmədin Azərbaycanda yeganə istinadgahı Əlincə qalası idi. Qala Sultan Əhmədin oğlu Sultan Tahirin başçılığı ilə Əmir Altun və qalabəyi Xacə Gövhər tərəfindən müdafiə olunurdu. Burada Cəlarilərin 300-dən artıq əsgəri var idi.

Azərbaycanı zəbt etmiş Teymur Sultan Əhmədə tabe olmaq barədə məktub yazdı, lakin rədd cavabı aldı. Buna görə də, o, Bağdada hücuma keçdi, şəhəri qarət etdikdən sonra geri qayıdıb Əlincəyə qoşun göndərdi. Qalanın müdafiəçiləri mərdliklə döyüşdülər. Teymur qalanın mühasirəsini daha da gücləndirərərək bütün giriş və çıxışını nəzarət altına aldırdı.

Əmir Teymur Əlincəni mühasirədə qoyaraq Gürcüstana yürüş etdi, əraziləri viran qoydu və 1393-cü ildə Şəki vilayətinə soxuldu. Şəki hakimi Seyid Əli düşmənə müqavimət göstərə bilmədiyi üçün qaçdı. Teymur Muğana qayıtdı və Mahmudabadda qışladı.

1395-ci ilin baharında Teymur Dərbəndi keçərək Qızıl Orda üzərinə hücum etdi. Şirvanşah I İbrahimin və Marağa hakimi Əmir Yadigarın iştirak etdiyi bu yürüşdən 1396-cı ilin baharında qələbə ilə qayıdan Teymur şimal sərhədlərinin qorunması məqsədilə Dərbəndin müdafiə istehkamlarını daha da möhkəmləndirdi. Şirvanşah I İbrahim Şirvanın hakimi kimi tanındı və o, da şimal sərhəddinin müdafiəsi ilə məşğul oldu.

Əlincə qalası istisna olmaqla bütün Azərbaycanı tutmuş Teymur oğlu Miranşahı Dərbənddən Bağdada, Həmədandan Ruma qədər olan böyük əraziyə hakim təyin etdi və Səmərqəndə qayıdaraq Hindistan səfərinə hazırlaşmağa başladı.

Teymur Hindistan səfərində olarkən, Azərbaycanın, eləcə də Cənubi Qafqazın bir çox yerli feodalları müstəqillk uğrunda mübarizə apararaq Teymurilərə itaətdən boyun qaçırdılar. Əlincə qalasının müdafiəçiləri ilə birləşmiş Şəki və Gürcüstan hakimləri Teymurilərlə vuruşurdular və hətta bir çox hallarda onlara qalib gəlirdilər.

Miranşahın yeritdiyi mənfur siyasət bir çox feodalların və xalq kütlələrinin narazılığına səbəb olurdu. Azərbaycanda və Cənubi Qafqazda baş verən hadisələrdən xəbərdan olmuş və Miranşahın vəziyyəti nizamlamaqda acizliyini hiss etmiş Teymur Hindistan səfərindən qayıtdıqdan sonra (1399-cu il sentyabr) Azərbaycana yürüş etdi. Bu yürüş tarixdə «Yeddi illik müharibə» adlanır.

Azərbaycana gəlmiş Teymur Qarabağdan Gürcüstana getdi və Kür çayının sahillərində məskən saldı. Bu zaman Cənubi Qafqazın bir sıra vilayət hakimləri onun hüzuruna gəlib itaət etdiklərini bildirdilər. Həmin hakimlərlə Teymur arasındakı münasibətlərin yaxşılaşdırılmasında Şirvanşah İbrahimin böyük rolu oldu. Seyid Əli öldüyü üçün Şəki vilayətinə hakimlik edən oğlu Seyid Əhməd, həmçinin gürcü çarı Georgi Şirvanşah İbrahimin vasitəçiliyi ilə Teymurun yanına gedib ittifaqa girdilər.

Uzun müdət mərdliklə müdafiə olunan Əlincə qalası da feodal çəkişmələrinin qurbanı oldu və süqut etdi. Teymur bir müddətdən sonra Səmərqəndə qayıtdı və Azərbaycan bu dövrdə

Miranşahın oğlu Mirzə Ömərin ixtiyarında, Şirvan isə I İbrahimin hakimiyyəti altında idi.

Teymurilər Şirvanın müstəqilliyini tanımalı oldular. 1392-ci ildə Ermənistan və Gürcüstanı, 1397-ci ildə Azərbaycanı soyub qarət edən Teymur bu xalqların tarixində işğalçı kimi qaldı.

3.2.2. Teymurun İran səfəri və onun nəticələri

XIV əsrin ikinci yarısında İran vahid dövlət deyildi. Hülakü dövləti (1256 -1336) süquta uğradıqdan sonra ölkə bir neçə mülklərə bölündü. Onların arasında birinci olaraq Azərbaycanda Cəlairilər dövlətini (1336-1441) və Sərbədarda, habelə Xorasan vilayətlərində fəaliyyət göstərən Sərbədarlar dövlətini misal göstərmək olar. Bunlardan əlavə, Hülakülər dövləti dağıldıqdan sonra Herat və onun ətrafında kürdlərin mülkləri vardı və bu dövlət quruluşu cəmi bir neçə onillik yaşayaraq 1381-ci ildə dağılmışdı. Bu dövrdə yaranan siyasi şərait xırda mülklərin vahid dövlətdə birləşməsinə imkan vermədiyindən onlar Teymurun yürüşləri qarşısında dayana bilmirdilər. Onun 1381-ci ildə Herat və onun ətraf mülkləri üzərinə hücumu başlandı. Şəhərin hər tərəfdən möhkəmləndirilmiş qalalarla əhatə olunması, şəhər başçısının heratlıları mübarizəyə həvəsləndirməsinə baxmayaraq onlar Teymurun onlara verdiyi vədə – əgər onlar öz evlərində oturub şəhərin müdafiəsinə çıxmasalar onların həyatı və əmlakına toxunmayacağına – əməl etməyə məcbur oldular. Şəhərə müqavimətsiz daxil olan Teymur şəhərin nüfuzlu adamları olan ülamələrə, imamlara və b. Heratı tərk edib Şəhrisyabza getməyi əmr etmişdi. O, bu şəhəri nə yolla olur-olsun böyütmək və gözəlləşdirmək istəyirdi. Şəhərin qapıları və bütün maddi mədəniyyət abidələri, dəmir xətlərlə bəzədilmiş divar ornamentlər və s. qiymətli əşyalar çıxarılıb Keşə (Şərisyabza) göndərilmişdi. Əhali üzərinə ağır vergilər qoyulmuşdu. Baş verə biləcək şəhər əhalisinin üsyanından qorxan Teymur divar qalalarının, digər müdafiə qalası İxtiyarəddinin möhtəşəm bürcünə toxunulmamışdı.

Teymurun ehtimalı düz çıxmışdı. 1383-cü ildə Herat əhalisi üsyan etmiş, lakin qələbə çala bilməmişdilər. Üsyan amansızlıqla yatırılmışdı. Əhali üzərinə əlavə vergilər qoyulmuş və əvvəlki vergilərin miqdarı artırılmışdı.

XIV əsrin 80-cı illərində artıq Xorasan Teymura tabe idi. Bundan əlavə o, İran üzərinə daha üç səfər keçirərək 1386, 1392 və 1396-cı illərdə üçillik, beşillik və yeddiillik əməliyyatlar nəticəsində bütün İran Teymur tərəfindən zəbt edilmişdi. Bu səfərlərdə onun hətta sıravi əsgərləri əhaliyə qarşı qəddar olub, onların nəinki əmlakını, hətta həyatını təhlükədə qoymuşdular. Bu səfərlər nəticəsində əldə edilmiş böyük qənimət Keş və Səmərqədə aparılmışdı.

1397-ci ildə Teymur İran səfəri zamanı fars və İsfahan vilayətlərinə hücum edib gözəl, zəngin, varlı və mədəni İsfahan şəhərini tutub onun məhəllələrini ordu başçıları və əsgərlər arasıda bölüşdürmüş, əhali üzərinə vergi qoymuşdu. Lakin şəhər əhalis əmirə tabe olmaq və vergi vermək istəməmişdilər. Onlar İsfahan dəmirçilərindən birinin başçılığı ilə böyük olmayan Teymur hərbi hissələrdə qarşı üsyan edirlər. İsfahan yaxınlığında olan Teymur bundan xəbər tutub dəhşətə gəlmiş və şəhəri tutmağı əmr etmiş, din və elm adamlarına toxunmamaq şərti ilə hamını öldürməyi tapşırmışdı. İşğal olunmuş şəhərin var dövlətini əsgərlər arasında bölüşdürülmüş, əhalinin hər nəfərindən 20 dinar almaq tapşırılmışdı. İsfahan döyüşündə 70 min nəfər öldürülmüşdü.

3.2. Teymurun Kiçik Asiya, Yaxın və Orta Şərq ölkələrinə yürüşü. Teymurun Hindistan səfəri və Çinə hücum planları

Teymur Avropaya çıxmaq məqsədilə 1393-cü ildə Kiçik Asiyaya doğru hərəkət edib Şərqi Anadolunu, Suriya və Fələstini tutmaq istəyirdi. Bu dövrdə Osmanlı sultanı İldırım Bəyazid idi.

Teymurun qoşunlarının Mesapotamiyaya hücumu və onu tutmasından sonra 1394-cü ildə o, Bağdada daxil olmuşdu. Sul-

tan Bəyazid Teymurun bu hərəkətinə onun maraqlarına toxunmaq və mənafeyini pozmaq kimi baxırdı. Bəyazidin bu etirazına Teymur biganə qala bilməzdi. Ona görə də, Azərbaycanda onun hakimiyyəti altında olan bir türk ordu korpusunu ona qarşı göndərmişdi. Lakin Teymur Avropada ad çıxarmış və Qərb dövlətləri tərəfindən müdafiə olunan Sultan Bəyazidin son dərəcə qorxulu düşmən olduğunu və onun ordusunda Avropa muzdlu əsgərlərinin çoxluq təşkil etdiyini bildiyindən, türk ordusunun Avropa odlu silahları ilə təchiz olunduğunu nəzərə alıb 1400-cü ilin yazınadək gözləməyi və Gürcüstanda istirahət etməklə ordunu yenidən hazır vəziyyətə gətirib 800 minlik qüvvə ilə Gürcüstanla həmsərhəd olan Anadolu vilayəti üzərinə hücuma keçmişdi. Teymur Anadolunu qarət edib boşaltdıqdan sonra onun paytaxtı Sebestiyanı tutdu. Buradan keçib Suriyaya daxil olaraq onun varlı və zəngin şəhərləri Aleppo və Dəməşqi işğal etmişdi.

Dəməşqi yandıran Teymur şimala doğru hərəkən edib ona qarşı çıxan Bağdada hücuma keçib onu darmadağın edərək 1401-ci ilin yazında böyük qənimətlə çox sevdiyi Gürcüstana qayıtdı. Sultan Bəyazid isə bu dövrdə Konstantinopolun mühasirəsi ilə məşğul idi. Bu müddət ərzində Teymurla Bəyazid arasındakı məktublaşmalardan aydın olur ki, hər iki türk sərkərdəsi bir-birini təhqirəmaz sözlərlə və vəhşi hərəkətlərlə hədələmişdilər. Bəyazid istəyirdi ki, Teymur ondan əl çəksin. Ona görə də, Teymura Bizansa hərəkət etməyə imkan verirdi. Lakin bu, Teymurun ümidi və marağını təmin etmirdi və Teymurun hərəkəti Bəyazidi son dərəcə əsəbiləşdirirdi.

1402-ci ilin yazında Teymur Kiçik Asiyanın qərb vilayəti Anqora girdi. Həmin ilin iyun ayının 16-da tarixə «Ankara döyüşü» kimi daxil olmuş vuruşmada Asiyanın iki türk hökmdarı arasındakı döyüşdə Bəyazid rüsvaycasına məğlub edilib əsir alındı və bir neçə aydan sonra mənəvi və əzablı sarsıntıdan vəfat etdi.

Ankara döyşünün şahidi olan Avropalı səyyahlar, habelə Kastiliya kralı Henrixin səfiri Teymurun yanına çoxlu bəxşişlər ilə gəlmişdi. Onların dediklərindən aydın olur ki, dahi sərkərdənin nizamlı-intizamlı türk ordusu monqol hərbi qaydaları əsasında döyüşə nizamlı cərgələrlə gedən, yaxşı silahlanmış yaralanmaqdan və ölümdən qorxmayan ordudan ibarət idi.

Ankara döyüşündən sonra Teymur qərbə doğru hərəkət edib Osmanlıların Bursa şəhərinə daxil olub əsir olan Bəyazidin var dövlətini və ailəsini ələ keçirdi. O, bacardığı qədər Kiçik Asiyanı soyub 2-3 ay müddətinə Bosfor körfəzi sahillərində yeni türk sultanına qarşı mübarizə aparmaq fikrində idi. Lakin birdən ordunu geri çevirərək dəfələrlə soyub taladığı Gürcüstana qayıtdı.

Teymur «müharibə, müharibələri doğurur» keçmiş xalq rəvayətini əsas tutaraq bir müharibəni qələbə ilə başa vuran kimi, yenisinə hazırlaşır və başlayırdı. Heç bir siyasi zərurət olmadan Hindistana qarşı 1398-ci ildə başlanmış və bir il sonra qələbə ilə başa çatmış səfəri də belə əməliyyatlardan biri idi. Hindistanı işğal edən Əmir 100 mindən artıq silahsız hind əhalisini əsirə çevirmişdi. Sultan mahmudun xalqı Teymura qarşı mübarizəyə səfərbər edərək üsyan qaldırmaq istəməsini eşidən əmir hücuma keçib Dehlini və ətraf vilayətləri tutmuş və böyük qənimət əldə etmişdi.

Sultan Mahmud 1402-ci ildə Ankara döyüşündə iştirak etmiş və Osmanlı Sultan Bəyazidi əsir almışdı. Sultan Mahmud həmin il vəfat etmiş və Teymur ona hörmət əlaməti olaraq bir ildə sikkələri onun adına çıxarmışdı. Başqa sənəddə göstərilir ki, Teymur ondan sonra heç bir xanı taxta çıxarmamış və sikkələri Sultan Mahmudun adı ilə çıxarmışdı. Xanın adı həftənin beşinci günü məsciddə Xutbədə (minbərdə) yada salınır və onun ruhuna dua oxunurdu.

Bununla bərabər, heç bir sənəddə məlumat verilmir ki, Teymur orduda rəsmi şəkildə monqol adət-ənənələrində olduğu

kimi bu xanlara hesab verməmiş, əksinə, bunu həmişə özü qəbul etmişdi.

1403-cü ildə Gürcüstanda istirahət etmiş Teymurun Ankara döyşündə qələbəsi Bizansın süqutunu 50 il sürətləndirdi. O, 1404-cü ilin birinci yarısında təxminən 5 il olmadığı paytaxtı Səmərqəndə qayıtdı. Bu müddət ərzində şəhər əsir alınmış İran, Mesapotamiya, Hindistan, Suriyadan və b. ölkələrdən gətirilmiş ustalar tərəfindən abadlaşdırılaraq möhtəşəm binalar tikilmişdi. Şərqin görkəmli alimləri burada mədrəsələrdə elm və təhsillə məşğul olurdular. Səmərqənd yüksək müsəlman mədəniyyəti mərkəzi olmaqla yanaşı, həm də Asiyanın zəngin ticarət şəhəri idi. O zaman burada 200 min nəfərdən artıq əhali yaşayırdı. Teymurun isə artıq 69 yaşı tamam olmuşdu. Bu yaşda olan sərkərdəni Kiçik Asiyada və Şərqdə apardığı müharibələr qane etmirdi. Onun adına butun Asiya qitəsində və Misirdə sikkələr zərb olunur, müsəlman dünyası məscidlərində onun sağlamlığı şərəfinə dualar oxunurdu. Lakin onun şöhrətpərəstliyinin sonu görünmürdü. Onun hakimiyyətindən kənarda hələ Çin qalırdı və Teymur onu işğal etmək haqqında düşünür və plan hazırlayırdı. Bu səfərə o yazı gözləmədən 1404-cü il dekabrın 28-də başladı. Sır-Dəryanı keçib Çin sərhədlərinə qayıtmağa məcbur oldu və 1405-ci ilin martın 19-da Otrarda dünyasını dəyişdi.

Beləliklə, 35 illik hakimyyəti dövründə 30-a yaxın çətin hərbi səfərdə olan Əmir Teymur qüdrətli türk imperiyası yaratmaq və möhkəmləndirmək yolunda mübarizə aparmışdı. İslama sədaqətlə xidmət edən böyük sərkərdə müharibələrini islamı yaymaq üçün Məhəmməd peyğəmbərin dini arzuları ilə bağlı olduğunu iddia edir, müsəlman sünniləri üzərinə şiə imamlarının hücumları ilə əlaqələndirirdi.

Türk dünyasının sərkərdələri arasında Əmir Teymurun adı xüsusi yer tutur. Lakin tarixi ədəbiyyatda o, birtərəfli mövqedən araşdırılmış, çox vaxt qəddarlığı və işğalçılığı daha qabarıq nəzərə çatdırılmışdı. Ancaq yaddan çıxarmaq olmaz ki, Əmir Teymura xas olan keyfiyyətlər onun qüdrətli bir hökmdar olma-

sından irəli gəlirdi. O, həm də bütün Şərqdə dünyanın ən böyük fatehləri ilə müqayisə olunan sərkərdə kimi tanınırdı.

Əldə etdiyi qələbələr, fəth etdiyi ölkələrdə ona göstərilən ehtiram və hörmət Əmir Teymurda özünəgüvənmə, şöhrətpərəstlik yaratmış, dunyanın fatehi olmaq kimi xülyaya düşmüşdü. «Qələbə dalınca qələbə qazanan və özünü məğlubedilməz sayan Əmir Teymur» un fikrincə dünya o qədər böyük deyildi ki, onun bir neçə hökmdarı olsun. Əmir Teymur deyərdi: «Allah bir olduğu kimi, yer üzərində hökmdar da bir olmalıdır. Bu məqsədlə o, bütün dünyanı əhatə edən vahid islam imperiyası yaratmağa çalışırdı». Ancaq o yaddan çıxarırdı ki, İldırım Bəyazidin dediyi kimi, dünyanı İldırım Bəyazid kimi kor, Teymur kimi topal idarə edə bilməzdi.

Teymur imperiyasının mənafeyini hər şeydən üstün tutmuşdu. Bu mənafeyə xəyanət edən hər bir kəs ciddi cəzalandırılmışdı.

Əmir Teymur fəth etdiyi ölkələrin elm və sənət adamlarını, memarları və sənətkarları Səmərqəndə gətirmiş, şəhər ətrafında saldırdığı qəsəbə və kəndlərə həmin şəhərlərin adlarını vermişdi.

Teymur Səmərqəndi dünyanın ən gözəl şəhərləri sırasında görmək istəyirdi. Teymurun vaxtında tikilmiş bir çox binalar, mədrəsələr, özünün dəfn olunduğu Qur-Əmir türbəsi əzəmət və gözəlliyi ilə diqqəti cəlb edir.

Teymurun ölümündən sonra 12 il müddətində onun yaratdığı imperiya daxili çəkişmələr və xarici hərbi müdaxilə nəticəsində süqut etməyə başladı. Teymura qiymət verən muasirləri, sonrakı dövrlərin tarixçiləri onu müxtəlif mövqelərdən təhlil edirlər. Rus tarixçiləri tatar zülmünün ləğvində Rusiyanın Teymura minnətdar olduqlarını qeyd edirlər. Lakin bəzən Əmir Teymura böhtanlar da atılmış, islama qısqanclıq özünü birüzə vermişdir.

XX əsrin ikinci onilliyinin ortalarıda müsəlmançılığa xidmət edən təxminən 40 milyon adam, o cümlədən Rusiya imperiyası hakimiyyəti altında olan 20 milyon nəfər islam dininə

xidmət edən xalq Teymuru ötən əsrlərin böyük və qəhrəman sərkərdəsi kimi qəbul etsə də, işğalçılıq hərəkətlərinə görə onu Makedoniyalı İsgəndərlə müqayisə edənlər də vardı. «Müsəlmanlar onu Məhəmmədin adamlarından sonra birinci yerdə qoyurdular». Belə hesab edirik ki, Qərbi Avropa müəllifləri kimi, Teymuru «Dəmir axsaq» adlandıraraq ona köçəri və ya yarımköçəri damğası vuranları mənəvi cəhətdən o qədər də zəngin hesab etmək olmaz. Ayağını yüngülcə çəkdiyi üçün düşmənlərinin həqarətlə «Axsaq Teymur», «Topal Teymur» və «Tamerlan» adlandırdıqları Əmir Teymur uzaqgörən siyasətçi və yeni dövlət qurucusu, din, elm və incəsənətin hamisi olmuş hökmdar idi».

DÖRDÜNCÜ FƏSİL

MƏHƏMMƏD TARAQAY ULUQBƏY (1394-1449). DÖVRÜ, HƏYATI VƏ FƏALİYYƏTİ

4.1. XIV əsrin sonu-XV əsrin əvvəllərində Mavərənnəhrdə sosial-iqtisadi və ictimai-siyasi vəziyyət

XIV əsrin ikinci yarısından başlayaraq Mərkəzi Asiyada siyasi hakimiyyət uğrunda mübarizə genişlənməyə, ciddi və kəskin hal almağa başlamışdı. Bu mübarizədə Əmir Teymur xüsusi ilə fərqlənirdi. O, hakimiyyətə gəldikdən sonra ilk növbədə daxildə feodal çəkişmələrinə son qoymaq, öz mülklərini monqol hücumlarından müdafiə etmək məqsədilə tədbirlər həyata keçirdi. Xarici siyasətdə bir sıra uğurlar əldə edildi. Müvəffəqiyyətli hərbi əməliyyatlar nəticəsində Xarəzm, Qızıl Orda, İran, Gürcüstan, Azərbaycan kimi dövlətlər üzərində qələbə çalındı. Dehlidən Dəməşqə qədər keçirilən hərbi yürüşlər nəticəsində Teymur imperiyası Aral dənizindən İran körfəzinə qədər böyük ərazidə güclü feodal dövlətinə çevrildi. Feodal dağınıqlığına son qoyulması və mərkəzləşdirilmiş dövlətin yaranması iqtisadiyyatın dirçəlməsinə, uzun illər monqol əsarəti altında olan əhalnin vəziyyətinin qismən yaxşılaşmasına, əkinçilikdə, daxili və xarici ticarətdə inkişaf müşahidə olunmağa başladı. Elm, təhsil, ədəbiyyat və incəsənət sahəsində irəliyə doğru dönüş nəzərə çarpırdı.

Teymur ölkənin paytaxtı Səmərqəndin mühüm siyasi əhəmiyyət daşıdığını nəzərə alaraq onu daha abad, gözəl və möhtəşəm şəhərə çevirməyə çalışırdı. O, işğal etdiyi ölkələrdən mütəxəssislər, sənətkarlar, rəssamlar, memar və alimləri Səmərqəndə gətirirdi. Burada Xarəzm, Hindistan və Çindən, İsfahan, Şiraz və başqa ölkələrdən olan ustalara rast gəlmək olurdu.

4.2. Uluqbəyin həyatı və uşaqlıq illəri

Uluqbəy haqqında babası Əmir Teymura və atası Şahruxa nisbətən material çox azdır. Teymurun nəvəsi, Şahruhun böyük oğlu Uluqbəyin ata tərəfi Əmir Teymur, ana tərəfi qıpçaq əmiri Qiyasəddin -Tarxan nəslindən idi. O, 796-cı ilin I cumasında, ayın 19-da (22 mart 1394-cü il) indiki cənubi Azərbaycanın Sultaniyyə şəhərində anadan olmuşdur. Həmin dövrdə Əmir Teymur İraq və Azərbaycanda böyük hərbi səfərlərdə (döyüşlərdə) idi. Onun ordusu müasir İraqın dağ rayonlarında hərbi əməliyyatlar aparır və yaxşı müdafiə olunan Mərdin qalasını mühasirəyə almışdı. Döyüşçülər Teymurun iradəsini yerinə yetirərək görünməmiş qırğın keçirib hətta uşaqları belə öldürmüş, xalqı soymağa başlamışdılar. Bu zaman 17 yaşlı Şahruhun oğlu olması xəbəri Mərdin qalası əhalisini fəlakətdən xilas edir. Bu xəbərdən sevinən hökmdar qala əhalisinin qırğınına son qoyur, hətta onları vergi və təzminat verməkdən azad edir, bu yerləri Mərdin qalasının keçmiş hakimi Sultan Salehə verir.

Yeni doğulmuş uşağa Məhəmməd Taraqay, Uluqbəy ləqəbi (böyük bəy) adı verildi. 1394-cü ilin avqustun 28-də Şahruxun digər oğlu İbrahim Sultan dünyaya gəldi. Teymur 1395-ci ilin martın 11-də Uluqbəyin anasını və körpəni atası Şahruxun yanına – Səmərqəndə göndərməyi əmr etmişdi.

Teymur 1396-cı ilin avqustun 28-də (28 şəvvəl 796-cı il) İranın qalan hissəsini də özünə tabe edib Gürcüstana doğru hərəkət edir. Mənbələrdə sonrakı iki il müddətində Uluqbəy haqqında heç bir məlumata rast gəlmirik. Bu onunla əlaqələndirilir ki, Azərbaycan və İran üzərinə beşillik səfərdən 1395-ci ilin

payızında Səmərqəndə geri qayıdan Teymur 1398-ci ilin martından Hindistan üzərinə hücuma hazırlaşırdı. Hindistan üzərinə səfər zamanı Teymuru Kabul şəhərinə qədər Saray Mülk xanım və 4 yaşlı Uluqbəyi himayə edən adamlar müşayət edirlər. Yalnız 1398-ci ilin avqustundan Teymur onları Kabul ətrafında Səmərqəndə geri qaytarır. Sevimli nəvəsindən ayrılmaq Teymur üçün çətin olsa da, o, Hindistanın isti iqliminin uşağın səhhətinə pis təsir edəcəyindən qorxurdu.

Təxminən bir il davam edən Hindistan səfəri Dehlinin alınması və Hindistanın qarəti və qüdrətli dövlət qurumu olan Dehli sultanlığının dağılması ilə nəticələndi. 1399-cu ilin fevralında Hindistandan qayıdan Teymur qısa fasilədən sonra mart ayının 28-də axşam Amu-dəryanı keçib Termez şəhərinə doğru hərəkətə başladı. Orada onu arvadları Saray-Mülk xanım və Tumanağa, nəvələri Uluqbəy, İbrahim Sultan, habelə Səmərqənddən və digər vilayətlərdən gələn görkəmli məmurlar qarşılayırlar. Təxminən o, Termezdən ölkənin paytaxtı Səmərqəndə iki ay çəkən səfəri zamanı Şəhrisiyab-Dövlətabad, Çaharabad, habelə Hindistan səfəri ərəfəsində tikdirdiyi Bağı-Dilguşə və Kənci-Çalağanın vəziyyəti ilə tanış olur. Teymurun nəvəsi Uluqbəyə məhəbbəti o qədər güclü idi ki, Teymur Kiçik Asiyada Osmanlı Türkiyəsi I Bəyazidə qarşı apardığı hərbi səfər zamanı (1399-1404-cü illər) Uluqbəyi Səmərqəndə göndərmişdi. Hərbi səfər zamanı Uluqbəy qış aylarını Azərbaycanın Qarabağ diyarında keçirmişdi. Hərbi səfərdən geri qayıdan Teymurun sarayında nəvələri Uluqbəy və İbrahim Sultan İspaniyadan Çinə qədər olan ölkələrdən gələn qonaqları qəbul edir, sonra qonaqları babaları Teymurun hüzuruna gətirirdilər.

Teymur Çin üzərinə yürüş zamanı Uluqbəyi özü ilə götürmüşdü. Lakin səfər ərəfəsində 1404-cü ilin sentyabrında o, Sultan Bəyazid üzərində qələbə münasibəti ilə böyük şənliklər təşkil etmişdi. 40 gün davam edən bu təntənəli mərasimdə o, 5 nəvəsini evləndirmişdi. Onların arasında 10 yaşlı Uluqbəy də var idi. Onun nişanlısı yaxın qohumu Məhəmməd Sultanın qızı Ögəbəyimgirin (və ya Ögəbikə) yaşı haqqında məlumat yoxdur.

Səmərqəndin baş qazısı Səlahəddin yeniyetmələrin dini qaydada kəbinini kəsdikdən sonra məclis qurulumuşdu. Bu şənliklərdə Misir, Rum, Çin, İspan, Monqolustan, Dəşti-Qapçaq səfirləri iştirak etmişdilər. Maraqlıdır ki, məclisə Teymur oğlu Şahruhu və Miranşahı dəvət etməmişdi. Miranşah atasına qeyri-səmimi münasibət bəslədiyinə görə 1395-ci ildə Hülakü xanın hakimiyyətində olan Qərbi İran, İraq və Azərbaycan torpaqlarını idarə etmək hüququndan məhrum edilmiş və onun yerinə oğlu Mirzə Ömər təyin edilmişdi. Şahruh isə 1396-cı ildə Xorasan, Sistan və Mazandarana hakim təyin olunmuşdu. Qeyd edək ki, Şahruha qədər bu vilayətləri görkəmli hərbi və siyasi xadim olan Mirzə İsgəndər idarə edirdi. Lakin o, Teymura qarşı 1395-ci ildə Firuzqalada, Gilanda və Mazandaranda açıq qiyam təşkil etmişdi. Mirzə İsgəndər üç dəfə Teymur tərəfindən bağışlansa da, yenə də Əmirə qarşı düşmən münasibətindən əl çəkməmişdi. Bu dəfə isə Teymur İsgəndərin Miranşahla hərbi ittifaqa girməsindən ehtiyat edərək onu İsfahana hakim təyin etmişdi.

Tani-Çilədəki şənliklərdən sonra Teymur arvadlarının, şəhərlilərinin və saray əhlinin müşayəti ilə Səmərqəndə qayıdaraq Saray Mülk xanım məscidində müşavirə keçirir. Müşavirədə Çin üzərinə hərbi səfər müzakirə olunur. Ordunu möhkəmləndirmək məqsədilə o, Əfqanıstan və İrana nəvəsi Pirməhəmmədin rəhbərliyi ilə əlavə hərbi qüvvələr göndərir. Misir və Monqolustanla bağlanmış müqavilələrin daha etibarlı olması üçün yeni müqavilə bağlayır və hədiyyələr göndərilir. Bu müşavirədə Teymurun nəvələri Uluqbəyə Saraylı, Yanqın, Ajnada, Çətə vilayətlərinin – yəni Monqolustandan Çin sərhədlərinə kimi olan yerləri digər nəvəsi İbrahim Sultana isə Əndican, Axsikəb və Kaşqar da daxil olmaqla Xotana kimi vilayətlərin idarə edilməsi tapşırılır.

Çin üzərinə hücum ərəfəsində – 1403-cü ildə Teymrun oğlu Məhəmməd Sultan vəfat edir. Məhəmməd Sultanın ölümündən sonra onun oğlu Pirməmməd varis təyin edilir. Ancaq Əmir bütün diqqət və məhəbətini Uluqbəyə salır. O zaman Uluqbəy 9 yaşında idi. Pirməhəmməd isə 30 yaşına çatmış təcrübəli hökmdar və hərbi sərkərdə idi.

Uluqbəy babası Teymurun ölümünə qədər onun sarayında yaxşı təhsil alır, Teymurun keçirdiyi müşavirələrdə və görüşlərdə, xarici səfirlərin qəbulunda iştirak edir. Kastiliya kralı III Henrixin (1379-1406) səfiri 1403-1404-cü illərdə Səmərqəndə gələn Ryu Qonsales Klavinonun qəbulunda Teymurun üç nəvəsi: Ulubəy, İbrahim Sultan və Mirzə Cahangirin iştirakı bildirilir.

Saray Mülk xanım məscidində müşavirədən sonra Teymur əsas maliyyə vasitələri – qiymətli daş-qaşların toplandığı Köysaraya gələrək xəzinəni yenidən nəzərdən keçirib onun müəyyən hissəsini ordu və Çin səfəri üçün ayırdı. Qısa müddətdə Mavərənnəhr, Gürcüstan, Xarəzm, Bəlx, Xorasan, Mazandaran, Qum, Azərbaycan və İrandan 200 minlik ordu topladı, sol cinah polkuna Sultan Xəlil, sağ cinah polkuna isə Teymur özü başçılıq edirdi. Uluqbəy və İbrahim Sultan, habelə Teymurun saray əyanları və yaxın silahdaşları sağ cinah polkunda idilər.

1404-cü ilin noyabr ayının 28-də Teymur Səmərqənddən çıxaraq Sır-Dərya sahilləri boyunca Hindistana hərəkət etməyə başlayır. O, 1405-ci ilin 25 dekabr-yanvar ayının 14-də Fərqanəyə gəlir. 1404-1405-ci ilin qışını Amu-Dərya və Sır-Dəryanın buzla örtülü sahillərində keçirən Teymur burada müttəfiqləri ilə bir sıra görüşlər keçirib gələcək planlarını müzakirə edir. O, Toxtamış xanın Qızıl Ordadan qaçan səfirini Otrar şəhərində qəbul edərək Çin üzərinə səfərdən sonra Qızıl Orda üzərinə hücum edəcəyini və Toxtamışı yenidən hakimiyyətə qaytaracağını bildirmişdi. Lakin 1405-ci il fevralın 18-də Teymur vəfat edir.

Teymurun ölümü onun yaratdığı böyük imperiyada çəkişmə və mübarizəyə səbəb olmuşdu. Miranşahın oğlu Xəlil Sultan Səmərqəndi tutub bir həftə sonra öz adına pul kəsdirmişdi. Uluqbəy və İbrahim Sultan Şəhməliyin və Şeyx Nurəddinin müşayəti ilə Buxaraya hərəkət edib şəhəri asanlıqla tutmuşdular. Lakin bir neçə gündən sonra Buxara və Səmərqənd Xəlil Sultan tərəfindən işğal olundu. O böyük miqdarda var dövlət, eyni zamanda şahzadələrin xəzinəsini ələ keçirdi. Teymurun böyük oğlu və Xorasan hakimi Şahrux ona tabe olan ərazilərdə sakit-

liyi təmin edəndən sonra qardaşı Miranşahın oğlu Xəlil Sultanla mübarizəyə başladı. 1405-ci ilin yayında Şahruhun əleyhinə ilk dəfə Tus hakimi Süleyman çıxmışdı. Ona qarşı Şahruhun hərbi səfərində Uluqbəy də iştirak etmişdi. Lakin Süleyman Şahruha qarşı açıq çıxış etməkdən ehtiyat edib Herata gedir, lakin orada möhkəmlənə bilmir. Bu zaman Şahruh Səid Xocanın başçılığı altında oraya qoşun göndərir, davam gətirməyən Süleyman şah Səmərqəndə qaçıb orada Xəlil Sultanla birləşdi. Süleyman şahın Amu-dərya üzərində tikdirdiyi körpünü dağıdan Səndxoc Uqedata qayıtdı. Bu zaman Sultaniyyədə əmirlə – şah Əli, şah Kütbəddin, şah Cəlaləddin üsyan etdilər. Şahruh böyük çətiliklə bu üsyanı yatırdı. Eyni zamanda Tur və Tərmisdəki qiyamlara da son qoyuldu. İndi Xəlil Sultana qarşı mübarizə aparmaq vaxtı çatmışdı. Şahruh 1406-cı ilin noyabrında ordunu Amu-Dəryanın sol sahilinə topladı. Oraya ilk gələnlərdən və öndə duranlardan Uluqbəy və Şahməlik idi. Şahruh böyük qüvvə ilə Xəlil Sultanın Qızıl-Rəbatda qüvvələrini dağıtdı. Şahruh Uluqbəy və Şahməliklə çayın sağ sahilinə keçib burada Pirməhəmədlə birləşmək tapşırığı verdi. Bu zaman Xəlil Sultan Uluqbəyin və Şahməlikin qüvvələri üzərinə hücuma keçib keşikdə dayanan dəstəni dağıtdı. Uluqbəyin və Şahməlikin sülh bağlamaq təklifini qəbul etdi. Xəlil Sultan çayın sağ sahilinə, oradan isə Səmərqəndə qayıtdı. Sülh şərtlərini pozan Şahməlik və Uluqbəy Səmərqəndə doğru hərəkət etməyə başladılar. Xəlil Sultan onları Nəcəf şəhəri ətrafında məğlub etdi. Pirməmməd Bəlxə, Uluqbəy və Şahməlik Xorasana qaçdılar. 1407-ci ilin fevralında – Ramazan ayının sonunda baş vermiş bu ağır məğlubiyyətin xəbərini Şahruh Qızıl-Rabatda eşitdi. Səmərqənddən alınan xəbərlərə görə əmirlə Allahdad və Arqun Şahruhun Xəlil Sultana qarşı vuruşacağı təqdirdə ona kömək edəcəkləri xəbərini yollamışlar. Bu səbəbdən də, Şahruh ordunu Amu-Dərya sahillərinə toplayaraq Şahməliki Bəlxə göndərib Pirməhəmmədə tələsik çıxışa başlamaq xəbərini verdi. Lakin bu dəfə də, Şahruha Mavərənnəhr uğrunda müharibəyə başlamaq müyəssər olmadı. Belə ki, 1407-ci ilin iynunda Heratda ona qarşı vəzir Səid Xocanın başçılığı al-

tında üsyan başladı. Üsyançılar Cam şəhərinə doğru hərəkət edib burda özbaşınalıq edir, qayda-qanunu pozmağa başlayırlar.

Üsyan Şahruh üçün təhlükəli idi. Səid Xoca İsfahan hakimi İsgəndəri Heratda taxta çıxarmaq istəyirdi. Şahruhla üsyançılar arasında həlledici döyüş Astrabadın Styah-Bilad qalası ətrafında baş verdi. Burada sağ cinahda Şahruh, Uluqbəy, Şahməlik və əmir Mussa: sol cinahda Səid Xoca qardaşları durmuşdular. Şahruh bu döyüşdə qalib gəlir, üsyançılar məğlub olaraq Şiraza qaçırlar. Şahruh Uluqbəyi Xorasan hakimi, Mirzə Ömər-Turqan Astrabad və Sistan hakimi təyin edir. Lakin ölkədə sakitliyi və əmin-amanlığı bərpa etmək mümkün olmur. Qiyamlar və üsyanlar ara vermirdi.

1407-ci ilin yayı və payızında Bəlxdə Pirməmmədin vəziri Pirəli Tazənənin başçılığı altında çevriliş baş verdi. Qiyamçılar Pirməmmədi, onun arvadlarını və yaxın adamlarını öldürüb hakimiyyəti ələ keçirdilər. Bu zaman Astrabadda Mirzə Ömərin başçılığı altında Şahruha qarşı qiyam başladı. Bu döyüşdə Uluqbəy də iştirak edirdi. Cam qalası ətrafında vuruşmada məğlub olan Mirzə Ömər qaçdı, sonra isə Murqab çayı sahilində ağır yaralanıb əsir düşdü və Herata gətirilərkən yolda öldü. Uluqbəy bundan sonra həm Xorasan, həm də Mazandaran hakimi oldu.

Teymrun ölümündən sonrakı 1405 -1409-cu illərdə Azərbaycan Temyur imperiyasından ayrıldı. Belə ki, hələ 1406-cı ilin avqustunda Qara Yusif (1388 -1420) Türkmən sülaləsindən Qaraqoyunlu vilayətini Əbubəkrdən və Təbriz şəhəri daxil olmaqla Azərbaycanın bir hissəsini Miranşahdan almışdı. 1408-ci ilin martında Sultaniyyə, Azərbaycanın qalan hissələri və İraq azad edilmişdi. Sultaniyyə şəhəri yaxınlığında Şənbi-Qazan adlı yerdə Qara Yusiflə döyüşdə Miranşah həlak olmuşdu. Şahruhun Azərbaycanda baş verən hadisələrdən ətraflı məlumatı olsa da, orada baş verənlərin qarşısını ala bilmirdi.

1408-ci ilin yazında Qara Yusif tərəfindən Azərbaycanda məğlub edilən Əbu Bəkr əvvəl Kirmana, oradan da Sistana qaçaraq Şah Kütbüddinlə birləşdi. 1408-ci ilin oktyabrın 4-də Şahruh ona qarşı ağır döyüşlərə başlamalı oldu. Uzun sürən müha-

sirə və ciddi vuruşmadan sonra Şahruh Sistannın bir neçə şəhər-ətrafı qalasını tutdu. Əbubəkr və Şah Kütbüddin qaçdılar.

Göründüyü kimi, Teymurun ölümündən sonra Şahruhun vəziyyəti son dərəcə ağır idi. 1409-cu ilin yanvar-fevralında (Ramazan ayında) Şahruh Baqdisdən yeni səfərlərə başlamaq üçün hazılıq görür, İbrahim Sultan Herata hakim təyin olunur, Uluqbəy Tusdan Baqdisə çağırılır.

Şahruh 1409-cu ilin martından başlayaraq Mavərənnəhr üzərinə hücuma ciddi hazırlaşır. Bu müddətə qədər o, buradakı siyasi, iqtisadi vəziyyətə, Teymurun mülkləri, Xəlil sultanın ağır vəziyəti, orduda din xadimləri və əhali arasında ona qarşı olan böyük narazılıqlar haqqında xeyli məlumat toplayır. Bütün bunları nəzərə alan Şahruh 1409-cu ilin aprelin 25-dən başlayaraq Amu-Dərya sahillərinə gəlir və yaxın adamlarının köməyi ilə Səmərqəndə girməyə müvəffəq olur. Xəlil Sultan şəhərdən qaçmağa məcbur olur. Şəhər Şahruha təslim edilir.

Gərgin mübarizə nəhayət 1409-cu ildə Şahruhun qələbəsi ilə nəticələnir. Bu vaxtdan başlayaraq Teymurun mülklərində iki müstəqil dövlət: 1) Mərkəzi Herat olan və Şahruhun özü tərəfindən idarə olunan Xorasan dövləti; 2) Mərkəzi Səmərqənd olan Şahruhun oğlu Uluqbəy tərəfindən idarə olunan Mavərənnəhr dövləti yarandı.

1410-cu ilin martın 14-də Şahruh 10 minlik ordusuna Taşğıdan İraq və Azərbaycana hərəkət edərək bu əraziləri türkmənlərdən təmizləmək göstərişi verir. Səfər ərəfəsində Uluqbəyi Mavərənnəhr və Türküstan hakimi təyin edilir. Lakin Uluqbəyin Türküstan hakimi təyin edilməsi əslində formal xarakter daşıyırdı, çünki Türküstanda Şeyx Nurəddin möhkəm oturmuşdu. Uluqbəy Şahruhun köməkliyi ilə çətinliklə öz hakimiyyətini bərpa etməyə müvəffəq oldu. Uluqbəy hakimiyyətə gələndə onun cəmi 15 yaşı olduğundan Şahməlik ona qəyyum təyin olunmuş, hakimiyyəti öz əlində cəmləşdirmişdi. Uluqbəylə onun yaxın məsləhətçisi Şahməlik arasında fikir ayrılığı, qeyri-sağlam münasibətlər üzə çıxır. Özünü son dərəcə sərbəst aparan Şahməlik gənc hökmdarla hesablaşmaq istəmirdi. Nəticədə on-

ların arasındakı münasibətlər pozuldu və atası Şahruhun köməyi ilə Şahməlik istefaya göndərilir. Beləliklə, 1411-ci ildən etibarən Uluqbəy Şahməlikin himayəçiliyindən azad oldu.

4.3. Uluqbəy hökmdar kimi

Uluqbəy 1411-1447-ci illərdə Mavərənnəhri idarə etsə də, bu dövrdə buraxılan pulların üzərində atası Şahruhun adını qeyd etdirdi. O, bir neçə dəfə (1414,1422,1425, 1443-cü illərdə) Herata, atasının hüzuruna ziyarətə getsə də, müasirləri onu baş və ya udel hökmdarı hesab etmirdilər. Lakin bir sıra ilk mənbələrdə, o cümlədən 1425-ci ildə Cilanutin dərəsindəki bir qayaüstü yazıda Uluqbəy «böyük sultan, ölkələri və xalqları fəth etmiş Allahın yer üçtündə kölgəsi» adlandırılmışdı. 1427-ci ildə görkəmli alim Qiyasəddin Cəmşid Kaşi Uluqbəyə həsr etdiyi riyaziyyata dair əsərində onu böyük, ədalətli, geniş ürəyə malik alim və sultan, bütün ərəb, İran, Şərq və Qərb sultanlarının və xaqlarının sultanı adlandırmışdı.

Şahruh atasından sonra Teymurilər imperiyasını təkbaşına idarə etməyə başladı. Teymurun digər varisləri öz əvvəlki hüquq və nüfuzlarını itirdilər, 1435 -1436-cı illərdə Şahruha müraciət üçün tərtib edilmiş sənədlərdən aydın olur ki, varislər yoxsulluq içərisində yaşayırmışlar. Digər tərəfdən, Sultan özü də mütləq hakim idi, həqiqətdə isə dövləti onun böyük arvadı (Uluqbəyin anası) Gövhər şah, oğlanları və saray əyanları idarə edirdilər. Dövlətin idarə sisteminə təcrübəli məmurlar cəlb edilmişdi, bu isə idarəetmə dövrünün xeyli uzanmasına səbəb olmuşdu. 1407-1442-ci illərdə baş əmir vəzifəsini aparmış Cəlaləddin Firuz şah bütün saraya və orduya nəzarət edirdi. Səmərqənddə isə bu işlərə Şahruhun hökmranlığının sonuna kimi Qiyasəddin Pirəhməd Xaravi başçılıq etmişdi. Onun qohumu olan Nəsrəddin Nəsrullah Zaravi Uluqbəyin Mavərənnəhr sarayında nazir vəzifəsini tutmuşdu.

Babası Teymurdan və atası Şahruhdan fərqli olaraq Uluqbəy işğalçı yürüşlərlə maraqlanmırdı. O, yalnız ən zəruri halda,

ölkə təhlükə qarşısında olarkən onu düşməndən müdafiə etmək məqsədilə hərbi yürüşlərə başlayırdı. O, bütün əməliyyatlar ərəfəsində və dövründə atası ilə məsləhətləşər, ona hesabat verərdi. Onun razılığı olmadan heç bir tədbirə əl atmazdı. Uluqbəyin hakimyyəti dövründə Mavərənnəhrdə mərkəzi hakimiyyət xeyli möhkəmlənmiş, dövləti xarici hücumlardan qorunmaq üçün xeyli hərbi qüvvə – 90 min nəfərdən ibarət ordu təşkil edilmişdi. Uluqbəyin daxili siyasətində əsas yeri iri sənətkarlardan, ticarətdə **«tanqa»** adlı vergi toplamaq tuturdu. Ölkədə irriqasiya (suvarma) sistemini genişləndirmək və ölkə iqtisadiyyatını möhkəmlətmək məqsədilə o, iri tacirlərin nümayəndələrinə pul kreditləri verirdi.

Kəndlilərin ağır vəziyyətini başa düşən Uluqbəy onların ödəyəcəkləri torpaq vergilərini və digər mükəlləfiyyətləri azaldır, bəzən də ləğv edirdi. Əhalinin vergi ödəmə qabiliyyətini bərpa etmək üçün müvəqqəti güzəştlər verilir, kəndlilərin yaşaması üçün yerli hakimlərin və məmurların vergiləri artırmalarına və onların özbaşınalığına qarşı mübarizə aparırdı. İlk mənbələrdə özbaşına xalqı soyan məmurları nəinki vəzifədən azad edir, hətta onları ağır cəzaya-dar ağacından asmağa göstəriş verilməsi barədə faktlara təsadüf edirik.

Uluqbəy ölkə daxilində bir sıra tədbirlər də həyata keçirmişdi. Onun 1428-ci ildə xalqın xeyrinə və maraqlarına uyğun keçirdiyi pul islahatı pul dövriyyəsinin nizama salınmasında mühüm rol oynamışdı. İctimai ehtiyacları nəzərə alan hökmdar yollar çəkir, mədəni tikililərin inkişafına xüsusi diqqət yetirirdi. Uluqbəyin zamanında tikinti işləri bir neçə istiqamətdə aparılırdı. Bir tərəfdən ibadət binaları-məscidlər, mədrəsələr, movzoleylər tikilir, digər tərəfdən yarımçıq qalmış binaların tikintisi başa çatdırılırdı. Buxarada (1417), Səmərqənddə (1420) mədrəsələr tikilmişdi. Bu dövrdə bütün Xorasan və Mavərənnəhrdə tayı-bərabəri olmayan Səmərqənd hamamının inşası tamamlanmışdı. Onun dövründə ondan əvvəl tikilməyə başlamış Bibixanım məscidinin, Qur-Əmir movzoleyinin, Şahi-Zində ansamblının tikintisi başa çatdırılmışdı.

Bir sıra tarixi mənbə və sənədlərdə Uluqbəyin Mavərənnəhri müstəqil və sərbəst idarə etməsi haqqında verilmiş məlumatlara baxmayaraq sikkələrdə onun adı atasından sonra verilməsindən belə bir nəticəyə gəlmək olur ki, Uluqbəy atasının ölümünə qədər heç vaxt Mavərənəhrin birinci hakimi olmayıb, yalnız nominal olaraq buranı idarə edir və udel hökmdar adını daşıyırdı. Digər tərəfdən, Uluqbəyin ölkəni müstəqil idarə etmək iradəsinin və arzusunun əksinə olaraq Şahruh ona heç zaman belə imkan verməmişdi. Uluqbəy atasının ilk tələbi ilə öz hərbi qüvvələrini ona köməyə göndərmədən əlavə, özü də bu yürüşlərdə və döyüşlərdə iştirak edir, onun razılığı və məsləhəti olmadan heç bir tədbiri təkbaşına həyata keçirmirdi Belə bir siyasət ağıllı, tədbirli və ehtiyatlı olan Şahruhun öz oğlanlarına, qohumlarına həddindən artıq səlahiyyət verməmək iddiasından irəli gəlidi.

1414-cü ilin yazından başlayaraq Şahruh böyük hərbi qüvvə ilə Azərbaycan üzərinə – Qara Yusifə qarşı mübarizəyə başlamışdı. Oğlu Uluqbəyə Mazandarandan göndərdiyi əmrdə imperiyanın şimal sərhədlərini qorumağı tapşırmışdı. O, 1417-1418-ci illərdə bu məqsədlə Məhəmməd Cuci və Sultan Uvasın komandanlığı altında bu ərazilərə əlavə hərbi qüvvələr göndəmişdi. Bu qüvvələr XV əsrin 40-cı illərinin sonuna kimi bölgədə vəziyyətə nəzarət etməli olmuşdu.

1412-1413-cü illərdə Şahruhun hərbi əməliyyatlarında Uluqbəy Əmir Musanın rəhbərliyi altında Xorasanın müdafiəsi üçün 5 min nəfərlik qüvvə göndərmişdi. 1413-1414-cü illərdə atasına qarşı İsgəndərin başçılığı altında başlanan üsyanı yatırmaq üçün döyüş filləri və hərbi dəstələr göndərən Uluqbəy eyni zamanda atasına kömək məqsədilə İraq və Azərbaycan türkmənlərinə qarşı 1419-cu ildəki 2-ci yürüşü zamanı Mavərənnəhrə 2 min nəfərlik hərbi dəstə yola salmışdı. Qeyd edilənlər bir daha sübut edir ki, Uluqbəy atası Şahruha sədaqəti ilə fərqlənmiş, daxili və xarici siyasətdə onun xəttinin müti davamçısı və həyata keçirəni olmuşdu. Əks təqdirdə o, atasının tapşırıqlarına və məsləhətlərinə biganə yanaşdığı halda ağır cəzalandırılırdı.

Məsələn, Mirək Əhmədə qarşı Əndican və Axsiket əməliyyatlarına, 1427-ci ildə özbək hökmdarı Barak xana qarşı uğursuz əməliyyata, 1434-cü idəki feodal çəkişmələrinə görə Monqolustandan qaçmış Yunis xanla pis rəftar etdiyi üçün gənc vəliəhd-hökmdar Uluqbəy atası tərəfindən ciddi cəzalandırılmışdı. Uluqbəyin belə özbaşına hərəkətlərə yol verməsi ona öz qardaşlarından üstün olduğunu və digər qardaşlarından fərqləndiyini atasına göstərmək arzusundan irəli gəlmişdi. Bununla o, həm də babası Teymuru təqlid etmək istəyini, ona oxşamağa çalışdığını və onun işinin davamçısı olduğunu göstərməyə cəhd edirdi.

Şahruh da öz daxili siyasətində atası Teymurun dövründə mövcud olan qaydaları qoruyub saxlamağa çalışırdı. O, soyurqal (bəxşiş) şəklində ölkəni vilayətlərə (udellərə) bölərək öz oğullarına, qohumlarına və yaxın tanışlarına vermişdi. Lakin Şahruh onlara arxalansa da, həm də onlara inanmır və onların yanında öz adamlarını saxlayırdı.

Mavərənnəhrin dövlət quruluşu və inzibati bölgüsü Uluqbəyin dövründə dəyişməz qalmışdı. Babası Teymur dövründən qalan eşik ağası atalıq, sahibi-divan, sədr, təvac, tərxanlıq, habelə ordudakı strukturlar – tümən (min minlik), minlik, yüzlük və s. bölgü qüvvədə saxlanırdı. Uluqbəy eyni zamanda görkəmli dövlət xadimi olmadığı kimi, həm də uğursuz hərbi rəis idi. Onu siyasətçi kimi babası Teymurla, atası Şahruhla, hətta qardaşı Baysunqurla müqayisə etmək olmaz. O, daha çox alim kimi şöhrət tapmışdı. V.V.Bartoldun Uluqbəyə verdiyi xarakteristikada oxuyuruq: «O, (Uluqbəy) taxt-taca sahib olana qədər (hakimiyətdə olan) müsəlman dünyasının tapmadığı-görmədiyi alim idi. Bu yüksək təhsil görmüş adam, zəmanəsinin böyük alimi, elmdə, xüsusən riyaziyyat sahəsində və astronomiyada böyük və itməz iz, məktəb yaratmış, qoymuş şəxs idi».

Yuxarıda qeyd etdiyimiz kimi, Teymur nəvələrinin, o cümlədən Uluqbəyin təlim və tərbiyəsinə böyük qayğı göstərmiş, uşaqlıqdan onları öz sarayında saxlamış, təcrübəli, təhsil görmüş tərbiyəçilər onlara dini və dünyəvi elmlərin əsaslarını öyrətmişlər. Dövrünün görkəmli şairi və alimi, «Bəhmənnamə»,

«Cavahir əsrar» («Qiymətli daşların sirri») və s. əsərlərin müəllifi olan Arif Azəri 4 il Uluqbəyin təlim və tərbiyəsi ilə məşğul olmuşdu. Özünün ilk müəllimini 46 il sonra İsfahanda dərviş paltarında görən Uluqbəy dərhal tanımışdı. Görkəmli astronomlar və riyaziyyatçılar – Səlahəddin Musa ibn Mahmud, Qazızadə Rumi, Qiyasəddin Cəmşid ibn Məsud Kaşani vaxtı ilə Teymurun tapşırığı ilə ölkənin müxtəlif elm və təhsil ocaqlarından saraya dəvət olunmuş və XV əsrin 20-ci illərində onun müəllimi olmuşdu.

Uluqbəy 1427-ci ildən sonra hərbi işlərə maraq göstərməmiş və bütün ömrünü elmə sərf etmişdi. Onun sarayı mədəniyyətin və elmi fikrin həqiqi mərkəzinə çevrilmişdi. Burada yuxarıda adlarını qeyd etdiyimiz alimlərlə yanaşı Mövlanə Müiddin Kaşani, Ələddin Əbülhəsən, Əli Quşçu kimi elm və ədəbiyyat nümayəndələri yaşayır və yaradırdılar. Uluqbəyin yaxın köməkçisi olmuş Əli Quşçu astronomiya sahəsində bir sıra izah yazmışdı. Traktatların tərtibçiləri Səid İmaməddin, Mövlanə Məhəmməd Xavafi, görkəmli təbib Burhanəddin Kirmani, tanınmış şairlər Lütfi, Şəkkaki, Kamal Bədəxnin, görkəmli ədəbiyyatçı və pedaqoq Xoca Fəzlullah Əbül-Layan və b. himayə olunmuşdu.

1417-1420-ci illərdə tikilmiş və tarixə Uluqbəy mədrəsəsi kimi daxil olan elm mərkəzində dini və dünyəvi elmlər, ilk növbədə astronomiyaya və riyaziyyata xüsusi diqqət verilirdi. O, zaman Səmərqənddə olan görkəmli tarixçi Əbülrəzzak yazırdı ki, Uluqbəy dövründə Registanda (saray meydanında) tikilən mədrəsədə Xanəgahı mən özüm görmüşəm. Baburun qeydlərində də o zaman mədrəsədən aşağıda tikilmiş məscidin Xanəgahı olduğu göstərilir, qiblə ilə məscid və qiblə ilə mədrəsə arasında oxşarlıq olduğu bildirilirdi. Ehtimal ki, qiblənin məscid istiqamətində olması ulduzlarla müəyyən olunurdu. Buradan belə bir nəticəyə gəlmək olar ki, Səmərqənddə rəsədxana tikilənə qədər astronomik müşahidələr məscid və xanəgahda aparılırdı.

Uluqbəy dövrünün görkəli alimi idi. Mənbələr və müasirləri onu yalnız böyük astronom kimi deyil, həm də həndəsə və triqonometriya sahəsində tədqiqatçı kimi səciyyələndirirlər. Öz

elmi axtarışlarında və nəticələrində Uluqbəy yalnız özünün şəxsi təcrübəsi və müşahidələrinə deyil, həm də özündən əvvəlki tədqiqatçılarını – Platonun, Aristotelin, Hippokratın, Əhmədi Fərqaninn, Əbu Nəsr Fərabinin, İbn Sinanın, Məhəmməd Xarəzminin və b. əsərlərinə əsaslanırdı. Ona klassik elmin bir sıra görkəmli nümayəndələrinin elmi araşdırmaları, o cümlədən Əbu Reyhan Biruninin «Məsudun … Qanunu» adlı əsəri məlum idi.

Onun maraq dairəsi yalnız dəqiq elmlərlə məhdudlaşmırdı. O, eyni zamanda Teymuri şahzadələri olan Baysunqur, İbrahim Sultan, Mirzə İsgəndər, Əbu Bəkr və b. kimi, həm də poeziya və musiqi ilə maraqlanır, şerlər yazır, şair və yazıçılarla görüşür, dövrün yaradıcı ziyalılarına maddi və mənəvi kömək göstərirdi. Tarixçi Xandəmirin yazdığına görə ədəbi gecələrin fəal iştirakçısı olan Uluqbəy alim və şair Mövlanə Məhəmmədlə ədəbi məclisdə müsahibə və mübahisəyə girmişdi. 1448-ci ildə Məşhəddə Azəri və Sədrəddin Rəddasın iştrak etdiyi məclisdə ədəbi dil və ədəbiyyat sahəsində əla biliyə malik olduğunu nümayiş etdirmişdi. Görkəmli şair və dövlət xadimi Əlişir Nəvainin və Əbu Tahir Xocanın məşhur antologiyasından məlum olur ki, Uluqbəy yalnız mesenat və poeziya bilicisi deyil, həm də tanınmış şair idi.

Uluqbəy türk ədəbiyyatı və tarixinin mənbələrinin öyrənilməsinə maraq göstərmişdi. Türküstan hakimləri Arslan Xoca Tarxan və Əmir Seyfəddin Barlas XI-XII əsrlərin görkəmli türk ədəbi abidəsi olan Əhməd Yünqnəkinin «Hibab əl Həqayid» («Həqiqətin bəxşeyişi») əsərinin üzünü Uluqbəyin təşəbbüsü ilə 1444-cü ildə köçürmüş, Şatibinin «Quranın oxunması qaydaları haqqında» traktatı ərəb dilindən qədim özbək dilinə tərcümə edilmişdi.

Uluqbəy babası Teymur kimi Səmərqənd, Buxara, Şəhrisyabz və b. şəhərlərin inşasına xüsusi fikir verirdi. Onun göstərişi ilə Səmərqənddə mədrəsə, məscid və xanəgahların yanında ictimai binalar: hamamlar, bazarlar, karvansaraylar tikilmiş, körpülər salınmışdı. Onun saldırdığı «Bağı meydan» gözəlliyinə görə Teymurun məşhur «Bağı Dilguşa» sından geri qalmırdı.

Kuxax tənəciyində salınmış bu bağdan bəhs edən Babur göstərirdi ki, uzunluğu 14-15 metr, eni 7-8 metr olan bu bağın sinidivarları, söhbətxanası vardı. O, Çini-Xanə adlanırdı. Uluqbəy 1432-1433-cü illərdə Buxara və Gənənduvarda əzəməti ilə insanı heyrətə gətirən mədrəsələr tikdirmişdi. Onun dövründə vaxtilə Teymur tərəfindən əsası qoyulmuş, «Şahi-Zində» və «Qur-Əmir» kimi möhtəşəm movzoleylərin tikintisi başa çatdırılmışdı.

Uluqbəy Mavərənnəhr hakimi kimi feodal quruluşunun möhkəmlənməsinə, onun iqtisadi və siyasi mövqeyini güclən dirməyə çalışırdı, Mavərənnəhr, Monqolustan və özbək ulusları arasında siyasi münasibətlər bir hökmdar kimi Uluqbəyi daha çox maraqlandırırdı. Mərkəzi Asiya və Monqolustan ayrı-ayrı feodalları ilə özbəklər arasıda davam edən çəkişmələr və mübarizə Uluqbəyin də diqqətindən kənarda deyildi. Bu hadisələri diqqətlə izləyən hökmdar Teymurun ölmündən sonra Kaşqarda yuva salıb möhkəmlənən Əmir Səid Əlinin təkhakimiyyətliliyinə son qoymağa, burada Teymurilərin hakimiyyətini bərpa etməyə çalışırdı. Çünki Temurun ölümündən sonra Fərqanə vilayətinin hakimi Mirək Əhməd Uluqbəyin hakimiyyətini tanımamağa başlamış və bu mübarizədə rəqibi olan Səid Əlidən və monqollardan xeyli kömək alırdı. Ona görə də, Kaşqar və Fərqanə uğrunda mübarizə aparmaq, həmin vilayətlərdə öz siyasi hakimiyyətini bərpa edib möhkəmləndirmək ona son dərəcə vacib idi. Bu məqsədlə Uluqbəy «mühüm məsləhət» bəhanəsi ilə Mirək Əhmədi görüşə dəvət edib, sonra isə aldadıb öldürmək cəhdi baş tutmadıqda, Əndican üzərinə hərəkət etməyə başladı. Mirək Əhməd öz hərbi qüvvələrini möhkəmlətmiş Axsiket, Əndican, Oş və Ürgəncdə qoyub, əvvəl Alay çayı vadisinə, sonra isə monqolların yanına getdi. Kaşqar hakimi Səid Əli Mirək Əhmədi mehribancasına qarşılayır. Lakin Uluqbəyin Axsiket və Əndicanı tutması ilə Mirək Əhməd və Səid Əli döyüşsüz təslim oldular. Uluqbəy Məhəmməd Taban və Musanı bu yerlərə əmir təyin edib özü Səmərqəndə qayıdır. Uluqbəyin olmamasından istifadə edən Mirək Əhməd və Səid Əli Teymurilərin qüvvələrinə hücum edir, Əndican yaxınlığında döyüşdə məğlub edib parçalayır,

Uluqbəyin təyin etdiyi əmirlər öldürülür. Monqollar Fərqanə şəhərini dağıdıb soyur və Monqolustana qayıdırlar. Mirək Əhməd isə Kaşqara dönür.

Uluqbəy monqolları və Mirək Əhmədi cəzalandırmaq üçün əlverişli vaxt və şərait gözləyir. Belə bir fürsət ələ düşür. Kaşqarda Məhəmməd xanın faciəli ölümündən istifadə edən Uluqbəy 1415-1416-cı illrdə ordularını əmirlər Siddiqə, Əli Təxrit və Əli Təqaqinin başçılığı ilə Kaşqara yollayır. Kaşqarın tutulmasında Uluqbəyə monqol əmirinin nəvəsi Xudaydad kömək edir. Mirək Əhməd Şahruh tərəfindən Herat şəhərinə çağırılır. Eyni vaxtda ona Məkkəyə getməyə icazə verilir, lakin o, Məkkədən qayıtmır.

XV əsrin 20-40-cı illərində Şahruh və Uluqbəy Mərkəzi Asiyada, o cümlədən Mavərənnəhrdə öz siyasi mövqelərini və nüfuzlarını möhkəmləndirmək məqsədilə monqollarla, qonşu Kaşqar və Fərqanə əmirləri ilə mübarizədə müəyyən uğurlu əməliyyatlarla bərabər, uğursuz döyüşlər də aparmışdılar.

1447-ci ilin martın 14-də Rey şəhəri ətrafında Şahruhun vəfat etməsi və ölüm ərəfəsində öz yerinə varis təyin etməməsi bacarıqlı və hiyləgər qadını Gövhər şahı ciddi narahat edir. Atasının ölüm xəbərini və taxt-taca anasının məsləhəti ilə qardaşı Baysunqurun oğlu Əlaüddövlənin təyin edilməsindən xəbər tutan Uluqbəy tələsik Xorasana daxil oldu. O, Amu-Dərya sahilində bir sıra əməliyyatlardan sonra Bəlx və Çeçentunu aldı. Bununla da, Şahruhun taxt-tacı uğrunda Uluqbəylə Əlaüddövlə arasında çətin mübarizə başlandı. 1447-ci ilin qışı-1448-ci ilin yaz əməliyyatları nəticəsində Uluqbəy öz rəqibini və ona Xabuşanda qoşulan Qasım Baburu Turqan sərhədlərinə kimi izləyərək ona bir neçə zərbə vurdu. 1448-ci ilin payızında Uluqbəydən narazı olan Herat hakimi Əbüsəid və Türkçay hökmdarı Yarəli, habelə Qaraqoyunlu İsgəndərin oğlu Xorasan hakimləri ilə birləşib üsyan qaldırdılar. Uluqbəy, oğlu Əbdüllətifi Nişapurda qoyraq ordunu Herat istiqamətinə yönəltdi. Üsyan yatırıldı. Lakin Mavərənnəhrdən alınan bəd xəbərlər Uluqbəyi Xorasanı tərk etməyə məcbur etdi. 1448-ci il noyabrın axırlarında o, özü

ilə atasının cənazəsi olan sarkofakı və xəzinəni, habelə digər qiymətli əşyaları götürüb Mavərənnəhrə yola düşdü. Yolda Mərv yaxınlığında onun üzərinə Məşhəddən Babur tərəfindən göndərilən Əmir Hindunun dəstələri hücum etdi. Onu hər tərəfdən mühasirəyə alan Baburun qüvvələri ona bir neçə zərbə vurdular. Uluqbəy hətta atlarından belə məhrum oldu. Hindunun dəstələri onu Amu-Dərya sahillərinə qədər izlədi. Uluqbəy Mərv yaxınlığında köçəri özbəklərin qəfləti hücumuna məruz qaldı, ordu parçalandı və dağıldı, məğlub olan Uluqbəy böyük çətinliklə Buxaraya qayıtdı. Bu zaman özbəklər Uluqbəyin tələsik Səmərqəndə getdiyindən xəbər tutub şəhəri hər tərəfdən mühasirəyə aldılar. Hər iki şəhər və onun ətraf kəndləri talan edildi.

Uluqbəy böyük çətinliklə Mavərənnəhdə vəziyyəti sabitləşdirməyə nail oldu. Lakin Xorasanı tutmaq, orada öz hakimiyyətini bərpa etmək fikri onu rahat buraxmırdı. O, Xorasana 1449-cu ilin yazında yenidən hücum etməyi planlaşdırmışdı. Lakin bu zaman oğlu Əbdüllətifin ona qarşı üsyan qaldırması və Əbül Qasımın Baburla ittifaqa girmək xəbəri hər şeyi alt-üst etdi. Uluqbəyin oğluna qarşı mübarizəsi 1449-cu ilin payızında Səmərqənd yaxınlığındakı Dilişik kəndində Uluqbəyin məğlubiyyəti ilə nəticələndi. Onun Səmərqəndə və Sultaniyyəyə girmək imkanı olmadığından Dəşti-Qıpçağa – Əbülxeyr xanın yanına getməyi qərara alsa da, sonra bu fikirdən daşınıb, Səmərqəndə gedib, oğlunun onu bağışlayacağı fikri üstündə dayandı. Məqsədi hakimiyyəti Əbdüllətifə vermək, ömrünün qalan hissəsini alimliklə məşğul olmaq idi.

Lakin Uluqbəy öz fikrində yanılmışdı. Əbdüllətif Uluqbəyi təmkinlə qəbul etdi. Onu Məkkəyə gəlmək üçün buraxdı, sonradan isə irticaçı din xadimləri və ondan narazı olan əmirlər onun ölümünü təşkil etdlər. Əbdüllətif əvvəl öz doğma qardaşı Əbdüləzizi, Uluqbəyə yaxın olan əmirləri – Məhəmməd Tarxanı, Sultan Guneydanı, İsmayıl Sufi Tarxanı, Sultan şah və b. edam etdirdi. İran tarixçisi Mirxondun məlumatına görə, Uluqbəyin öldürülməsi Səmərqənd yaxınlığındakı Abi-Səbuh çayı sahilində

853-cü ilin Ramazan ayının 8-də (25 oktyabr 1449-cu il) baş verdi.

Uluqbəy oğlu Əbdüllətifi insanlara humanist münasibət bəsləmək ruhunda tərbiyə etmişdi. Lakin o zamankı feodal mühitində hakimiyyət uğrunda hökm sürən mubarizə, daxili çəkişmələr və müharibələr onun psixologiyasına nəinki təsir etmiş, hətta öz atasının qatilinə çevirmişdi. Kuxitanının məlumatına görə, atasının qatili olan Əbdüllətif ölümündən bir gün əvvəl gecəni Səmərqənd yaxınlığındakı iqamətgahında keçirir. Yuxuda görür ki, ona qabda öz başını gətirirlər, qorxub yuxudan ayılır. Hökmdarın falına Yenzamin pirində baxırlar. Kitabı açan mövlanə-rəmmal bu misraları oxuyur: «Atasını öldürən qatilə hakimlik düşməz, əgər olsa da bir aydan artıq çəkməz».

1450-ci ilin mayın 8-də tezdən şəhər ətrafındakı bağından Səmərqəndə ibadətə gedərkən Əbdüllətif nizə ilə atdan salınır, şəxsiyyəti məlum olmayan cani Baba Hüseyn Bahadur tərəfindən öldürülür.

Uluqbəy hakimiyyət başında olduğu 36 il ərzində ölkədə feodal özbaşınalığı güclənmiş, xalqın amansız istismarı daha da artmışdı.

4.4. Uluqbəy XV əsrin görkəmli alimi, marifçisi və şairidir

Uluqbəyin dünyagörüşü feodal özbaşınalığının tüğyan etdiyi, Teymurun ölümündən sonra hakimiyyət uğrunda hakim sinif olan əmir və bəylərin, xoca və digər qruplaşmaların mübarizəsinin qüvvətlənməsi şəraitində formalaşmağa başladı. Şübhəsiz ki, belə bir şəraitdə yaşamaq və yaratmaq, islam dini qaydalarına əməl etmək başqaları kimi Uluqbəyin də dünyabaxışının yetkinləşməsinə səbəb olmuşdu. Uluqbəy islam dini qanunlarına hörmətlə yanaşan, onun bütün qaydalarına əməl edən, eyni zamanda maddi aləmin mövcudluğunu qəbul edən zəmanəsinin böyük alimi idi. Dəqiq, təbiət və humanitar elmlər sahəsində

müstəqil yaradıcı axtarışlar aparan Uluqbəy eyni zamanda ona qədər Şərqdə, o cümlədən Mərkəzi Asiyada yaşayıb yaradan elm xadimlərinin, ensiklopedist dünyabaxışlı mütəfəkkirlərin əsərlərindən bəhrələnmşdi. Digər hökmdarlardan fərqli olaraq Uluqbəy dövlət xadimindən daha çox alim kimi şöhrət qazanmışdı. Onun elmlə məşğul olması şübhəsiz onun dövlət işləri ilə məşğul olmasına mənfi təsir göstərmişdi.

Mavərənnəhrdə elmin əsas ocağı Kuxax təpəsinin aşağı hissəsində tikilmiş Uluqbəyin rəsədxanası idi. Qazızadə Rumi, Qiyasəddin Kaşani, Əli Quşçu, Səid İmaməddinin təşəbbüsü və şəxsən Uluqbəyin başçılığı ilə burada o dövr üçün böyük elmi nailiyyət hesab olunan 1018 «hərəkətsiz ulduzun» vəziyyəti dəqiqliklə öyrənilmişdi.

1417-ci ildə tikintisinə başlanmış və 1420-ci ildə inşası başa çatdırılan Uluqbəy məqbərəsi iki mərtəbədən və dörd küncdən ibarət olan möhtəşəm bina idi. Uluqbəy mədrəsədə işləyəcək elmi və tədris işləri ilə məşğul olacaq alimləri və müəllimləri özü seçir, onlarla söhbət edib ixtisasını bilməsi dərəcəsini müəyyənləşdirdikdən sonra onları mədrəsəyə işə qəbul edirdi.

Mədrəsənin müdiri haqqında maraqlı rəvayət vardır. Söylənilir ki, binanın başa çatması ərəfəsində Uluqbəydən bu məktəbə kimin müdir (müdərris) təyin olunacağını soruşduqda cavab verir ki, bütün elmlərdən xəbərdar olan şəxs bu vəzifəyə təyin ediləcək. Bunu eşidən və çirkli paltarda kərpiclər arasında oturan Mövlana Məhəmməd bu vəzifəni tutmaq fikrində olduğunu bildirir. Udluğbəy onu sorğu-suala tutduqdan və biliyi Uluqbəyi qane etdikdən sonra onun müdir təyin edilməsinə razılıq vermişdi. Mədrəsənin açılışı günü Mövlanə Məhəmməd 90 alimin iştirak etdiyi məclisdə (yığıncaqda – elmi şurada) müdərris – tədris hissə (müdiri) kimi mühazirə oxuyur. Lakin Uluqbəy və Qazızadə Rumidən başqa heç kəs mühaziräni başa düşməmişdi. Fəvqəladə biliyinə görə öz dövrünün Platonu adlandıılan görkəmli riyaziyyatçı və astronom Qazızadə Rumi (Səlahəddin Musa-ibn Mahmud) mədrəsənin ilk müəllimlərindən biri olmuşdu. Qazızadə Rumi Səmərqənddə dəfn olunmuşdu.

Uluqbəy məktəbinin tarixində mühüm rol oynamış alimlərdən biri, görkəmli riyaziyyatçı və astronom Qiyasəddin Cəmşid-bin Məsud olmuşdu. Bu məktəbdə eyni zamanda Mənsur Kaşinin oğlu Müiddin, Uluqbəy əsərlərinin şərhçisi Əli ibn-Məhəmməd Birçəndi, Uluqbəyin elmi işlər üzrə köməkçisi Əli Quşçu, Məryəm Çələbi və b. tədrislə məşğul olmuşlar.

Uluqbəy mədrəsəsinin müəllimləri və onun başçılıq etdiyi elmi işlərlə məşğul olan astronomlar qrupu istifadə etdikləri dəqiq alətlərin köməyi ilə Səmərqənd mədrəsəsi əsasında nümunəvi rəsədxana yaratmaq ideyasını irəli sürmüşlər. Uluqbəy məktəbinin əsasında dörd il sonra Kuxak təpəsi ətrafında astronomiya cədvəlləri tərtib etmək və səma cisimlərini müşahidə etmək məqsədilə üç mərtəbəli bina tikilmişdi.

1427-ci ildə hərbi işlərlə məşğul olmağı buraxan Uluqbəy bundan sonra tamamilə elmlə məşğul olmağa, başçılıq etdiyi dövlətdə maarif işləri yenidən qurulmağa, onun sarayı mədəni mərkəzə, elmi fikir ocağına çevilməyə başlamışdı. Buraya Uluqbəy məktəbi və rəsədxanasında yuxarıda haqqında qısa bəhs etdiyimiz alimlərlə yanaşı ədəbiyyatşünas və ustadı Əbu-Ləysi Səmərqəndi, tanınmış həkim və şərhçi Bürhanəddin Nədis-ibn Avaz Kirmani, Mövlanə Fazili Səmərqəndi, şairlər, görkəmli tarixçilər Əli Yəzdi, Əbdürrəzzaq Səmərqəndi, Hafizi Əbru, Nizaməddin Şami, Dövlət şah-ibn Bəxtişah, Müiddin İsrizari və b. çalışırdılar.

Onun dəqiq elmlər sahəsində ən böyük əsəri olan «Uluqbəyin ulduzlar cədvəli» əsəri Səmərqənd rəsədxanasında apardığı şəxsi müşahidələrindən bəhs edir. Elmin və mədəniyyətin incə qiymətləndiricisi olan Uluqbəy Səmərqənd şəhərini Şərqin mədəni mərkəzlərindən birinə çevirmişdi. O, burada kitabxana, mədrəsələr tikdirmiş, onları barelyeflərlə bəzətmişdi. Onun dövründə Mavərənnəhrdə elm və incəsənətin inkişafı üçün əlverişli şərait yaradılmış, ölkənin Səmərqənd, Buxara, Mərv, Ürgənc kimi şəhərlərinin əvvəlki şöhrəti onlara qaytarılmışdı.

Uluqbəyin hakimiyyəti dövründə musiqi incəsənətin bir növü kimi yüksək inkişaf etmiş, şəhər musiqi sənətkarları içəri-

sindən saray orkestri təşkil olunmuşdu. Bu dövrdə teatr sənəti – kukla tamaşaları, məzhəkəçi, kəndirbazlar, jonqlyorlar və aktyorların çıxışları təşkil edilmişdi. Onlar aktyorluq peşəsinin xalq arasında yaymağı kütləviləşdirir, küçələrdə, bazar və meydanlarda çıxış edir, camaatı əyləndirirlər. Uluqbəyin sarayında yaşayan görkəmli musiqi nəzəriyyəçisi Əbdül-Qədir müasirləri tərəfindən yüksək qiymətləndirilmiş, onu musiqinin şeyxi adlandırmışlar. O, Əbdürrəhman Caminin şeirləri əsasında məşhur musiqi traktatını bəstələmişdi.

Uluqbəy eyni zamanda poeziya ilə maraqlanır, şeirlər yazırdı. O, ərəb, fars dillərini sərbəst bilirdi. Onun tərcümeyi halını yazanlar göstərirdilər ki, o qardaşlarına məktubları və şeirləri bu dillərdə yazmışdı. O, türk dilini kamil bilir, türk poeziyasına və qədim cağatay türklərinin (özbəklərin) dilinə böyük maraq göstərirdi. Müasirləri olan şairlərdən Şəqaqi və Lütfi onun poetik istedadına yüksək qiymət verirdilər. Səmərqənddə yaşayan Şəqqaqi onun şərəfinə odalar yazmışdı. Bunların birində, hətta Uluqbəyə müraciət edərək türkcə şeirlər qoşmaqda (yazmaqda) ona kömək etməyi xahiş etmişdi. Şair, Uluqbəyin şərəfinə xeyli xoş sözlər dedikdən sonra yazırdı ki, «Səma bundan sonra daha çox illər hərəkət etməlidir ki, Uluqbəy kimi ağıllı hökmdarı tapsın».

Uluqbəy Şərq ədəbiyyatında geniş yayılmış «Yusif və Züleyxa» lirik romantik poeziyasına əsaslanaraq 1409-cu ildə Bəlxdə olarkən qədim özbək dilində «Dübrək» (Dürr bəy») təxəllüsü ilə eyni adlı poema yazmışdı. Onun sarayında xəttat və kitab çapı inkişaf etmişdi. Herat və Səmərqənd miniatür məktəbinin banisi, gözəl kalleoqraf olan Sultan Əli, Kəmaləddin Behzad və tanınmış kitab ornament ustası olan Mövlanə Yar yüzlələ incəsənət əsərlərinin müəllifləri idilər.

Uluqbəy təbabətlə də maraqlanmışdı. Dövrünün görkəmli təbibi Nəfi-ibn Kirmani şəxsən Uluqbəy üçün 1000 səhifəyə yaxın «Şəhr əl-əsab və əlamətləri» («Xəstəliklərin əlamətləri və səbəbləri») əsərini ərəb dilində yazmışdı.

Uluqbəy fiqh (müsəlman qanunçuluğu) elmlərinə də yaxından bələd idi. Ələddin əl Buxari Uluqbəyə 1447-ci ildə yazdığı və ona həsr etdiyi «Şəhri əla əl fiqh» əsərində qeyd etdiyimiz məsələ üzərində ətraflı dayanmışdı.

4.4.1. Uluqbəyin pedaqoji görüşləri

Bəhs etdiimiz dövrün təhsil sistemi haqqında son dərəcə az məlumat olmasına baxmayaraq ehtimal olunur ki, bu dövrün müsəlman təhsil sistemində əsas iki pillə: ibtidai təhsil verən məktəblər və orta təhsil verən mədrəsələr fəaliyyət göstərmişdi. Bütün Şərqdə olduğu kimi, Mavərənnəhrdə də məktəblər şəxsi adamlara məxsus olmuşdu. Məktəb açmaq həmişə Allaha xidmət kimi qiymətləndirilir, uşaqlara Qurani-Kərimi oxumağı öyrətmək, dini ayələrin tədrisi müqəddəs və vacib vəzifə sayılırdı.

«Mədrəsə» ərəb sözü olub mənası «dərs» – uşaqlarla məşğul olmaq, onlara mühazirə oxumaq, müdəris isə mühazirəçi-müəllim deməkdir.

Uluqbəyin maaarifçilik və pedaqoji dünyagörüşünün formalaşmasında dövrün görkəmli ensiklopedist alimlərinin böyük rolu olmuşdu. Öz ətrafına dövrünün görkəmli alimlərini toplayan Uluqbəy təhsilə, tədris və dərsliklərin yaradılmasına mühüm əhəmiyyət verirdi. O, şagird, tələbə və müəllimlərin seçilməsinə və tədrisin təşkilinə xüsusi diqətlə yanaşırdı. Maarifçi hökmdar kimi, o, Mavərənnəhrdə – Buxarada (1415-1417), Hicduvanda (1433) və Səmərqənddə (1417-1420) mədrəsə tikdirmişdi.

4.4.2. Uluqbəyin «Tarixi ərbəulus» (Dörd ulusun tarixi») əsəri

Uluqbəyin dəqiq elmlərin inkişafı sahəsində böyük xidmətləri, xüsusən astronomiya, riyaziyyat sahəsində apardığı tədqiqatlar və araşdırmalar ona yalnız vətənində deyil, bütün Şərqdə, habelə dünyada şöhrət qazandırmışdır. Onun elmi irsinə və yaradıcılığına maraq hələ yaşadığı dövrdə olmuş, XVII əsrdən baş-

layaraq Uluqbəyin irsi ardıcıl olaraq öyrənilməyə və təbliğ edilməyə başlanmışdı. Onun haqqında görkəmli alimlər – Z.Qribs, T.Xayd, F. Byli, L. Sanno, V,V, Bartold, V.L. Vyatkin, E. Knobl, T.N. Kari-Nizazov və b. tərəfindən əsərlər yazılmış, yüzlərlə məqalə dərc olunmuşdur. Bununla belə, onun zəngin və təkrarolunmaz ictimai-siyasi və elmi dünyagörüşünün tam araşdırılmasına, çoxsahəli irsinin tədqiqinə böyük ehtiyac duyulmaqdadır.

Orta əsrlərin müxtəlif mənbələri Uluqbəyi hərtərəfli dünyagörüşə malik böyük alim kimi təsvir etməklə yanaşı, onu dəqiq elmlərdən əlavə tarix, ədəbiyyat, dilçilik, musiqi və b. sahələr üzrə tanınmış şəxs kimi də xarakterizə edirlər.

Uluqbəyin atası Şahruh kitab həvəskarı idi və tarixlə xüsusi maraqlanmışdı. O, dünyanın müxtəlif yerlərindən nadir kitabları, əlyazmalarını əldə edərək zəngin kitabxana yaratmışdı. Bu ona müxtəlif biliklər sahəsində məlumat toplamağa kömək edirdi.

Uluqbəy də atası kimi uşaqlıqdaq tarix ilə maraqlanmağa başlamışdı. O, əl-Xarəzmi, əl-Fərabi, Fərqani, əl-Biruni, Ömər Xəyyam, İbn Sina və başqalarının tarixə, məntiqə, fəlsəfəyə dair əsərlərini mütaliə edirdi. Babasının səfərlərində Uluqbəy müxtəlif ölkələrdə olmuş, tarix haqqında məlumatlarının reallaşdırmış və möhkəmləndirmişdir.

Onun rəhbərliyi və bilavasitə iştirakı ilə monqol dövlətinin tarixinə dair yazılmış «Tarixi ərbəulus» («Dörd ulusun tarixi»), «Tarixi arbayi Uluqi Çingizi» («Çingizilərin dörd ulusunun tarixi» əsərlərinə orta əsrlərin görkəmli tarixçiləri müraciət etmişlər. «Dörd ulusun tarixi» əsərində Çingiz xanın ölümündən (627/1227) sonrakı dövr üçün Monqolustan və Şimali Çinin; Cuci ulusunun; Qızıl Ordanın; İraq-İran ərazisini əhatə edən dörd dövlətin tarixi əks etdirilmişdi.

Əsərin giriş bölməsində islama qədərki peyğəmbərlər haqqında rəvayətlər hekayələr şəklində verilir. ***Birinci*** bölmədə Yafəs və onun varisləri, türklərin əfsanəvi qəhrəmanı və ulu babası Oğuz xan və onun nəticələri; ***ikinci*** bölmədə Çingizin hakimiyyə-

tə gəlməsindən son günlərədək olan tarix əksini tapmışdı. Uluqbəy bu əsərdə Cuveyni, Rəşidəddin, İbn-əl Əsirdən fərqli olaraq monqol işğalları ərəfəsində Xarəzmşah Əlaəddin Məhəmmədin Səmərqənd ətrafında müdafiə məqsədli işlərindən ətraflı bəhs edir. İlk dəfə olaraq Xarəzmşahın əmrilə şəhər divarlarını müdafiə edən nizami ordunun zəfərləri təsvir olunur. Digər bir nümunə: 1221-ci ilin yazında monqollar Xorasan mədəniyyətinin qədim mərkəzlərindən biri olan Bəlx şəhərini alaraq dağıtmışlar. İbn əl-Əsir bu münasibətlə yazırdı ki, şəhər könüllü təslim olduğundan Çingiz xan onu bağışlayıb dağıtmadı. Cuveyni isə qeyd edirdi ki, qüdrətli xan öz vədinə əməl etməyib onu dağıtmışdı. Çingiz xan onları bağışlamaq üçün görüşünə çıxmış Bəlxin şəhər hakiminə məhəl qoymamışdı. Onlar burada Xarəzmşahın sonuncu hökmdarı Cəlaləddinin adamlarını gizlətmişdilər (hicri 617-618, miladi 1220-1221).

Uluqbəyin sərhində Uluqbəydən başlayaraq (624/122-639/1241) Urday Xaqana qədər Arik-buda şəklində olan Uluq yurdun tarixi verilir. Burada Çingizin ölümündən sonra Əmir Teymura qədər hökmranlıq etmiş 20 xaqandan 17-si haqqında məlumat vardır. Bu xaqanlar aşağıdakılardır: Ugedey, Quyruq, Minqu, Teymur Xoradin, Kaydu, Tuşbulay, Nuqirvan, Buku-Teymur, Qaydzi, Nikainq (oiq), İkki Teymur, Yusurdar, Daldardar və Uqaday. Onların haqqında verilən məlumatların son dərəcə az və zəif olmasına baxmayaraq əsər maraqla oxunur. Əsas odur ki, Uluqbəy Uluq yurdda hökmranlıq etmiş bütün xaqanların haqqında məlumat verdiyi halda, tarixçi Rəşidəddin onların yalnız 5 nəfəri (Ugedey, Quyrud, Minqu, Xubilay və Teymur xaqan haqqında), Şərafəddin əl-Yəzdi isə 14 nəfər haqqında məlumat verir.

Uluqbəyin əsərində mühüm yeri Dəşti-Qıpçaq (Qızıl Orda) hökmdarlarının tarixi tutur. Əsərdə Çingizin böyük oğlu Cuci nəslindən olanlar, habelə Qızıl Ordanın 39 xanının - Cucidən Məhəmməd xana qədərki hökmdarlar haqqında xarakteristikalar verilir.

Əsərin üçüncü bölməsində Elxanilər dövlətinin Cavad abad Uluq ilə qarşılıqlı siyasi münasibətləri, habelə Çin və digər şərq ölkələri ilə əlaqələri göstərilir.

Əsərin 4-cü bölməsi maraqlı olub, zəngin materiallara əsaslanır. Burada Cağatay Əmir Teymura qədərki siyasi-tarixi, habelə Çingizlə Tuğluq Teymur arasındakı dövrdə hökmranlıq etmiş 28 xanın adı verilir.

«Dörd ulusun tarixi» əsərində Çingiz xanın dövrüdən XV əsrin əvvəllərinə kimi Çingiz sülaləsinin (nəslinin) şəcərəsi verilməklə yanaşı Mərkəzi Asiyanın vəziyyəti təsvir edilir. Beləliklə, ayrı-ayrı tarixi hadisələrin qısa şərhinə baxmayaraq, «Tarixi ərbə-ulus» monqol dövlətinin tarixi və Cağatay ulusu haqqında qiymətli materiallardan ibarətdir.

Uluqbəyin ölümündən sonra onun haqqında müxtəlif maraqlı ideyalar irəli sürülmüş, yeni fikirlər söylənilmişdi. XVI əsrin görkəmli tarixçisi Məhəmməd Heydər «Tarixi-Rəşidi» əsərində Uluqbəyi görkəmli tarixçi adlandırmışdı.

XV əsrin sonu, XVI əsrin ortalarında yaşamış tarixçi Qiyasədin Xandəmir (1475-1534) və XVII əsrin görkəmli ensiklopedist alimi Məhəmməd ibn-Vəli Uluqbəyin bu tarixi əsərini yüksək qiymətləndirmişlər.

Lakin Uluqbəyin bu sahədəki fəaliyyəti kifayət qədər öyrənilməmişdir. Onun yaradıcılığının tədqiqatçıları Uluqbəyin əsərlərini nəinki hərtərəfli təhlil etmiş, əksinə bəzən əsərlərinin adını belə təhrif etmişlər. Məsələn, ingilis orientalisti Mayke «Tarixi arbayi Uluqi Çingizi» («Çingizilərin dörd ulusunun tarixi») əsərinin adını səhvən «Şəcərat-ət-türk» («Türklərin genologiyası») kimi vermişdir.

Akad. V.V. Bartold «Türküstan monqol işğalları dövründə», «Uluqbəy və onun dövrü» əsərlərində böyük alimin seçilmiş əsərlərindən ilk mənbə kimi istifadə etsə də, bu əsərin müstəqil əhəmiyyət kəsb etmədiyi fikrini irəli sürmüşdü. Bununla əlaqədar yazırdı: «Şahruhun oğlu və varisi Uluqbəy yazdığı «Dörd ulusun tarixi» ndə bütün monqol imperiyasının tarixini verirdi. Bu əsər bizə çatmadığından, biz bunun haqqında bir sıra

müəlliflərdən, xüsusən Xandəmirin əsərlərindən müəyyən məlumatlar əldə edirik. Bunlardan aydın olur ki, müəllif monqol dövlətinin tarixinin öz yaşadığı dövrə qədər şərh edir və çox zaman bu xanların adını qeyd etməklə onların hökmranlıq illəri haqqında heç bir məlumat verməməklə kifayətlənir». V.V.Bartoldun «Uluqbəy və onun dövrü» əsərində monqol imperiyasının tarixinin tədqidi dünya əlyazmalarının olmaması və XV-XVII əsrlərdə mənbələrin az öyrənilməsi ilə əlaqədardır. Lakin yuxarıda qeyd etdiyimiz kimi, Uluqbəyin digər əsərləri ilə yanaşı bu əsərlərlə orta əsrlərin bir çox tarixçiləri tanış idilər. Onlardan biri-Teymurilər dövrünün görkəmli saray tarixçisi Xandəmir (hicri tarixi ilə 880-941-ci illər, miladi tarixi ilə 1475-1539-cu illər) özünün «Xülasət əl Əxbar» və «Həbib-əs-səyyar» əsərində Uluqbəyin əsərlərindən geniş istifadə etmişdi. Xandəmirin ikinci əsəri Türküstan xanlarına, Çingiz xana, onun Cağatay Ulusunu idarə edən nəvələrinə həsr olunmuşdu.

Uluqbəyin əsərləri XVI-XVII əsrlərin bir çox tarixçiləri üçün də mənbə olmuşdur. «Təvarixi qüzidd» – «Nüsrətnamə» nin tərtibçisi Şərafəddin Əli Əld-Yəzidin «Zəfərnamə» əsərində Mirzə Uluqbəyin bu əsərindən istifadə olunmuşdu.

Uluqbəy və onun bəhs etdiyimiz əsəri haqqında XV əsrin sonu XVI əsrin əvvəllərində yaşamış tarixçi Mirzə Məhəmməd Heydər maraqlı məlumatlar verir və Mirzə Uluqbəyin «Dörd ulusun tarixi» ni yazmaqla özündən sonrakı tarixçilərə irs qoyduğu göstərilir.

Uluqbəyin bu əsəri Rəşidəddinin «Cami ət-Təvarix» əsərinin yazılmasında mühüm rol oynamışdır. Bu əsərin tam mətni saxlanılmamış, onun qısa redaktəsinin 4 nüsxəsindən 2-si İngiltərənin «Niria Ofis» kitabxanasında, Britaniya muzeyində, qalan 2-si isə «Bankinur» (Hindistan) və ABŞ-ın Harvard Universiteti kitabxanasındadır.

Beləliklə, XIV əsrin sonu, XV əsrin birinci yarısında Mərkəzi Asiyada olduqca mürəkkəb, çətin və ziddiyyətli proseslər zəminində formalaşan Uluqbəyin həyatı və yaradıcılığı bu hadisələrin təsiri altında keçmişdir. Onun haqqında istər ilk mənbə-

lərdə, istərsə də müxtəlif elmi araşdırmalarda söylənilən bəzi qeyri-obyektiv və ziddiyyətli mülahizələrə baxmayaraq akad. V.V.Bartoldun yazdığı kimi, Uluqbəy orta əsrlərdə Mərkəzi Asiyanın ilk maarifçi hökmdar alimi olub o zamana qədər burada belə bir şəxsiyyətə təsadüf olunmamışdı.

Uluqbəyin daxili və xarici siyasətinin əsasını dövlətçilik ideyalarını qoruyub saxlamaq, sinfi ziddiyyətlərə son qoymaq təşkil etmişdi. Mərkəzi Asiyada qüdrətli dövlətçilik ideyalarını qoruyub saxlamağa cəhd edən Uluqbəy öz məqsəd və prinsiplərini həyata keçirərkən şübhəsiz ki, güc metodlarından istifadə etsə də, əsasən qarşıdurmadan çəkinməyə, ədalətsiz hökmlər verməkdən yan keçməyə, nahaq qan axıdılmasının qarşısını almağa çalışmış, özündən əvvəlki hökmdarlardan fərqli olaraq sarayı mədəniyyət, xeyirxah əməllər ocağına, çevirməyə çalışmışdı. Lakin bu arzuların bir qismi həyata keçmişdi. Mavərənnəhrdə hakimiyyət və siyasi nüfuz qazanmağı qarşılarına məqsəd qoyanlar Uluqbəylə onun oğlu Əbdullətif arasında qarşıdurma yaratmağa müvəffəq olmuş və nəticədə böyük alimin həyatı faciəli başa çatmışdı.

BEŞİNCİ FƏSİL

ÇOKAN VƏLİXANOV (1835-1865)

5.1. Çokan Vəlixanovun ictimai-siyasi və tarixi görüşləri



XIX əsrin ortalarında istedadlı qazax alimi, mütəffəkkiri və görkəmli ictimai-siyasi xadimi Çokan Çingiz oğlu Vəlixanov (1835-1865) şərqşünaslıq, coğrafiya, etnoqrafiya, tarix, sosiologiya və siyasət sahəsində geniş və nadir biliyə malik olan, müasirlərinin və dostlarının diqqətini cəlb edən fitri və ilahi istedadı ilə fərqlənirdi. Onun əsərlərini çap etmək üçün böyük zəhmət çəkmiş akad. N.İ. Veselovski 1904-cü ildə yazırdı ki, rus orientalistləri onun timsalında fenomenal bir şəxsin yarandığını hamılıqla qəbul etmişdilər. Ç.Vəlixanovu yaxından tanıyan, onun tələbəlik illərinin dostu T.N. Potanin yazırdı: «Əgər qazaxlar oxumağı bacarsaydılar və onu (Vəlixanovu – müəl.) başa düşə bilsəydilər, onun istedadını qiymətləndirə bilsəydilər, o öz xalqının dahisi ola bilərdi».

Çokan Vəlixanov cəmi 30 il yaşamışdır. Onda elmə və siyasətə həvəs çox tez yaranmışdı. 14-15 yaşında olanda dekabristlərin və petraşevçilərin inqilabi fəaliyyəti haqqında təsəvvürü olan Ç.Vəlixanov V.Belinski, A. Gertsen və Çernişevskini oxuyan şəxslərlə əlaqə saxlayır, onlarla maraqlı söhbətlər edirdi. Bu

dövrdə artıq onun istedadı və qabiliyyəti üzə çıxmışdı. Qısa ömür sürməsinə baxmayaraq yaşına görə çox iş görən Ç.Vəlixanov dövrünün ictimai-siyasi xadimi, xalqın arzularının ifadəçisi idi.

Ç.Vəlixanov XIX əsrin 30-60-cı illərində feodal təhkimiçilik sisteminin dağılmağa başladığı Rusiyada və Qazaxıstanda inqilabi hərəkatın genişləndiyi dövdə hakimiyyət və dövlət quruculuğu barədə düşünən xalqın inqilabi mübarizəsinin ideolloqlarından biri idi. Onun yaradıcılıq irsini tədqiq edən akad. N.N.Veselevski onun əsərlərini araşdırmış və nəşrinə böyük köməklik göstərmişdi. Onun haqqında xeyli əsər yazılmasına baxmayaraq, ictimai-siyasi və tarixi baxışları hələ də tədqiq edilib ətraflı öyrənilməmişdi.

Ç.Vəlixanovun irsinin tədqiqinə XX əsrin ortalarından başlanmış, onun ictimai-siyasi fəaliyyətindən bəhs edən kitabça ilk dəfə 1945-ci ildə X.Aydarov tərəfindən çap etdirilmişdi. 1947-ci ildə Ç.Vəlixanovun məqalə və yazışmaları işıq üzü görmüş, 1952-ci ildə «Qazaxıstan» jurnalında Ç..Vəlixanov barədə X.Aydarovun məqaləsi (1952, № 4) çap olunmuşdur. Müəllif onu maarifçi, mədəniyyətdə dönüş etməyə çalışan filosof kimi qələmə verməklə yanaşı onun Peterburq dövrü fəaliyyəti üzərində ətraflı dayanaraq Gertsen, Çernişevski, Dobrolyubov ideyaları ilə tanışlığından, böyük şəxsiyyətlərin təsirindən bəhs etmiş, nəticədə mütləqiyyət və çarizmə qarşı mübarizə ruhu yarandığını qeyd etmişdi. Lakin qeyd olunanlarda Ç.Vəlixanovun çoxsahəli fəaliyyəti birtərəfli işıqlandırılmışdı.

X.Aydarovdan təxminən 10 il sonra Ç.Vəlixanovun fəlsəfi, sosioloji və ictimai-siyasi baxışlarını tədqiq edən Qasım Beysembiyev çap etdirdiyi monoqrafiyasında haqsız olaraq onun guya yetkin siyasətçi olmadığını «sübut etməyə» çalışmışdı.

XX əsrin 60-cı illərində Ç.Vəlixanovun yaradıcılığı ilə ciddi məşğul olan akad. A.X.Marqulan Peterburqda kadet korpusunda təhsil alan gənc Ç.Vəlixanovun maarifçilik və demokratik görüşlərini tədqiq etmiş, onun seçilmiş əsərlərinin 1960-1961-ci illərdə 5 cilddə nəşr olunmasına nail olmuşdu.

Ç.Vəlixanov haqqında bir sıra elmi məqalələr və kitablar nəşr olunmuşdur. Bu cəhətdən Seqizbayev onun yalnız maarifçilik görüşlərinə üstünlük verir, çar hökumətinin Qazaxıstanda keçirdiyi aqrar və məhkəmə islahatlarının mahiyyətini başa düşmədiyini qeyd edirdi.

Qazaxıstanın inqilaba qədərki tarixinin görkəmli tədqiqatçısı prof. Y. Bekmaxanovun «Qazaxıstanın Rusiyaya birləşdirilməsi» (M., 1957) adlı monoqrafiyasında Ç.Vəlixanovun alim və ictimai xadim kimi fəaliyyətinə geniş yer verilmiş, onun çoxsahəli ictimai-siyasi və tarixi baxışlarını açmağa cəhd edilmişdi.

5.2. Ç.Vəlixanov ictimai-siyasi xadim kimi. Dünyagörüşünün formalaşması mərhələləri

5.2.1. Uşaqlıq və gənclik illəri

Məhəmməd Hənəfiyyə (Çokan) Çingiz oğlu Vəlixanov 1935-ci ilin noyabrında Qazaxıstanın varlı və nüfuzlu çölsahibkarı Çingiz Vəlixanovun ailəsində anadan olmuş, 12 yaşına qədər evdə, sonra isə xüsusi müsəlman məktəbində təhsil almışdı.

Məhəmməd Hənəfiyyə Vəlixanovun anası Zeynəb Çormanova uşaqlıqda onu Çokan ləqəbi ilə çağırdığından sonralar bu adla tanınmışdı. 5 yaşında ikən oxuyub yazmağa başlayan Çokan atasına kömək məqsədilə onun yanında olmuş, inzibati idarə işlərinə maraq göstərmişdi. Omsk kadet korpusuna daxil olan Ç.Vəlixanov cağatay türkcəsini, ərəb və fars dillərini, şərq şairlərinin şeirlərini öyrənmişdi. Kübar və sulalə qayda-qanunlarına itaət etmək ruhunda tərbiyə edilən Çokan, bəzən tələb və arzularının ziddinə çıxmağa məcbur olmuşdu.

Ç.Vəlixanovun atası rus təhsili almışdı. O, Sibir hərbi kazak ordusu məktəbində oxumuş və uzun müddət çar hökumətinə xidmət etmişdi. 23 yaşında ikən yeni yaradılmış Amanqaraçay sultanlığında böyük sultan seçilmiş, 1853 -1857-ci illərdə Kokçetan dairəsinin baş sultanı təyin olunmuşdu. XIX əsrin 30-

cu illərinin sonunda – 1938-ci ildə rus ordusunun 1-ci dərəcəli zabiti rütbəsini, 1855-ci ildə polkovnik rütbəsi alan Çingiz Vəlixanov nümunəvi hərbi qulluq etdiyi üçün yüksək hökumət mükafatları ilə təltif olunmuş, 1855-ci ildə orta varlı kazaklarla çar I Nikolayın görüşündə qazak deputatlarına başçılıq etmişdi. Bu görüşdə Rusiya imperatoru tərəfindən ona zadəgan fəxri adı, 60-cı illərdə rus süvari ordu kavaleriyasının (atlı hərbi dəstənin) general-mayoru rütbəsi verilmişdi.

Məhəmmədin ata nənəsi Ayxanım şərq təhsili görmüş, geniş ağla malik, kişi iradəli qadın olmuşdu. Əri Vəlixan (Çingizin atası) öləndən sonra bu qadın ailədə, aulda və sultanlıqda siyasi işlərə maraq göstərmiş, 1824-cü ildə bir qrup sultanlarla birlikdə Omskdakı çar hökumət orqanlarına müraciət edərək Orta Juzda qayda-qanun yaratmağı tələb etmişdi. Onun bu hərəkəti Sibir sərhəd qoşunları rəisi tərəfindən müsbət qiymətləndirilmişdi. Keçmiş torpaq mülkləri səlahiyyətlərini saxlamaq məqsədilə, Sibir general-qubernatoruna müraciət edərək ona yeni mülk verməyi, ölən əri Vəlixanın rus meylli zadəgan olmasını nəzərə alıb, ona dövlət hesabına ev, məscidlə birlikdə məktəb, hamam və həyət verməyi, nəvəsi Çingizin təlim tərbiyəsi ilə məşğul olmaqla yanaşı bəy nəslinin varisi kimi onun nəvəsinə güzəştlər və imkan yaradılmasını tələb etmişdi. Onun xahişinə 1832-ci ildə əməl olunmuşdu.

Çingizin ana nəsli də varlı və zadəgan olmuşdu. Onun anasının atası – Musa Çormanov varlı bəy Çorman Kuçukovun oğlu idi. Çar hökuməti tərəfindən polkovnik rütbəsi ilə təltif olunan M.Çormonov II Aleksandrın tacqoyma mərasimində Orta Juzdan Peterburqa gedən qazax nümayəndələrindən olmuşdu.

Çokan Vəlixanovun atası Çingiz və ana babası Musa əkinçilik və maldarlıqla məşğul olan bəylərdən olub, hər ikisi çar hökumətinə xidmət etmişlər.

Çokanın anası da bacarıqlı və hörmətli evdar qadın olmuşdu. Çokanın təlim-tərbiyə aldığı evlərinin xarici aləmlə sıx əlaqədə olması, hərbi kadet korpusu, böyüyüb yaşa dolduğu

hərbi məktəb, tədris planına müvafiq olaraq hərb elmləri ilə yanaşı tədris olunan dünyəvi elmlər də onun dünyagörüşünə təsir göstərmişdi.

1847-ci ildə gənc topçu zabit, kapitan Jdan Puşkin Omsk hərbi kadet korpusunun yuxarı siniflərinə rəhbərlik etmək üçün müfəttiş təyin olunur. Kadet korpusuna onun gəlişi ilə təlim-tərbiyə işi xeyli yaxşılaşır. Jdan Puşkin yaxşı təşkilatçı kimi tanınır. Yüksək təhsil görmüş J.Puşkin alman, ingilis, fransız dillərini kamil bilir, Avropa ədəbiyyatını sevirdi. O, tarixdən mühazirələr oxuyur, cəbr, həndəsə və topçuluqdan dərs deyirdi. Xarakteri etibarilə təmkinli və xeyirxah olan bu zabit öz vətənini və hərbi xidməti sevirdi. Bu səbəbdən də, tezliklə o, kadet korpusunda oxuyan dinləyicilərin rəğbətini qazanır. Bir dəfə Jdan Puşkin riyaziyyatdan məşğələ apararkən diqqətini Çokan Vəlixanov cəlb edir. Onun: «Vəlixanov niyə məşğul olmursunuz» sualına Çokan belə cavab vermişdi: «Əgər mən bunu bir ildə mənimsəyə bilmirəmsə, bir saatlıq hazılıq mənə nə verəcək» cavabından sonra hamı təəccüb etmiş və kursdan xaric olunacağını güman etmişlər. Lakin zabit onu cəzalandırmaq əvəzinə stol arxasına oturdub «Современник» jurnalını oxumağı təklif etmişdi. O dövrüün radikal məcmuəsi olan «Современник» N.Q.Çernışevskinin redaktorluğu ilə çıxırdı. Əlbəttə, Ç.Vəlixanovda gənc zabit kimi inqilabi demokratik meyllərin yaranmasının bu hadisələrlə əlaqəsi və şəxsən J.Puşkinin təsiri haqqında tutarlı sübut yoxdur. Hər halda bu hadisə təsirsiz də ötüşə bilməzdi.

Ç.Vəlixanov müəllimlərinin, ilk növbədə Kostiletski və Qonsevskinin diqqətini cəlb etmişdi.

Qazan universitetinin məzunu olan N.F. Kostiletski (1818 -1857) kadet korpusunda rus dilçiliyi və tatar dilindən dərs deyirdi. Ərəb, fars və türk dillərini yaxşı bilən Kostiletski rus ədəbi həyatı ilə ciddi maraqlanırdı. Görkəmli inqilabçı demokrat V.Q.Belinskinin gizli oxucularından idi. O, imtahan suallarını Belinskinin tənqidi məqalələri əsasında tərtib edirdi. Bir dəfə bundan xəbər tutan korpus rəisi generala onun bu hərəkəti haq-

qında məlumat vermiş və Kostiletski məzəmmət olunmuşdu. Ömrünün sonuna kimi təhkimçiliyin düşməni olan Kostiletski son dərəcə təmiz və vicdanlı şəxs olub azadlıq ideyalarını açıq təbliğ etdiyinə görə kadet korpusundan xaric olundu, böyük ehtiyac içində yaşadı və vərəm xəstəliyindən dünyasını dəyişdi.

Çokan Vəlixanov Kostiletskinin diqqətini daha çox cəlb etmişdi. Bu səbəbdən də, kadet korpusunu qurtarmağa bir il qalmış Kostiletski Ç.Vəlixanovu görkəmli orientalist, Kazan Universitetinin şərq dilləri kafedrasının rəisi, professor İ.N. Berezinlə tanış edir. Ç.Vəlixanov Berezinin tapşırığı ilə bir neçə şərq əlyazmalarının aşkar edilməsi üzrə işləməyə başlayır və eyni zamanda «Toxtamışın yarlıkı» ndakı ayrı-ayrı sözlərin və ifadələrin mənasını açmaqla məşğul olur.

Kadet korpusunun bacarıqlı və nüfuzlu müəllimləri arasında Kazan Universitetinin məzunu, milliyyətcə polyak olan, o zamanlar tələbə hərəkatının fəal iştirakçısı, yaxşı müəllim kimi tanınan Q.V. Qonsevski də var idi. Tarix dərsi deyən Q.V. Qonsevski mühazirələrində qadağan olunmuş məsələlərə-demokrtik və azadlıq hərəkatına xüsusi diqqət verirdi. Kadet korpusundakı müəllimlərin əksəriyyəti də Çokanın böyük gələcəyi olacağından xəbər verirdilər. Müəllimlər ona alim-səyyah və axtarış aparan tədqiqatçı istiqamətində fəaliyyət göstərməyi məsləhət görürdülər. Müəllimlərdən Çernişevskinin şagirdi və davamçısı V.N. Lobodovski, Siolkovski və digərləri Ç.Vəlixanova böyük ümidlə yanaşırdılar.

Ç.Vəlixanov 1853-cü ildə 6 illik təhsildən sonra Sibir kadet korpusunu yoldaşlarından bir əvvəl müvəffəqiyyətlə bitirir və ordu kavaleri korneti zabiti rütbəsi alır. Gənc zabit həm də şərqşünas tədqiqatçı və səyyah kimi öz elmi axtarışlarını davam etdirmək arzusunda idi. Onunla eyni kursda oxuyan, sonralar görkəmli rus tarixçisi kimi tanınan Q.N. Potaninin qeyd etdiyi kimi, Çokanın amalı xalqına xidmət etmək idi.

Ç.Vəlixanov kadet korpusunu Avropa təhsili səviyyəsində olan bir zabit kimi başa vurdu. O, varlı sinfə mənsub olduğundan xidmətində sürətlə inkişaf etməyə başladı. Rus dilini sərbəst

bilməsi, şərq dillərinə tam səlis və həm də gözəl yiyələnməsi, onun dərin elmi təfəkkürü, işə həvəs və cəsarəti hökuməti təmin edirdi. Bu qəbildən olan adamlar çar hökumətinə Şərq işlərində dövlət üçün lazımlı idi. Odur ki, bunu nəzərə alan Sibirin hökumət nümayəndələri Ç.Vəlixanovu tezliklə qiymətləndirdilər. Ona Sibir Kazak korpusunda 6-cı kavaler polkunun zabiti, 1853-cü ilin martında Sibir Xüsusi Qərargahının rəisi, general-leytenant Yakovlevin adyutantı, həmin ilin oktyabırın 12-dən isə Qərbi Sibir general qubernatoru Qasfortun adyutantı təyin edilmişdi.

Ç.Vəlixanov Qasfortun adyutantı kimi Mərkəzi Qazxıstan, Yeddisu səfərində onu müşayət edir. Bu səfər 20 yaşlı Çokana xalqın həyatı, çar məmurları və yerli bəylərin idarəçiliyi ilə tanış olmağa imkan verir, gələcək elmi axtarışlarını davam etdimək üçün material toplayır.

1856-cı ildə Ç.Vəlixanova polkovik M.Xomentovskinin dəstəsi tərkibində İssık-Kul gölü hövzəsinin şəklini çəkmək, qırğız xalqının adət-ənənənələrini və mədəniyyətini öyrənmək və s. məsələlər tapşırılır. Bu səfərdə o, həm də Rusiyaya meyl göstərən adamları tapmalı və onların vasitəsi ilə qırğızların rus hakimiyyəti altına keçmələri üçün təbliğat aparmalı idi.

1856-cı ilin sonunda Ç.Vəlixanov polkovnik Peremışlıskinin rəhbərlik etdiyi nümayəndə heyətinin tərkibində rus-Çin münasibətlərini nizama salmaq məqsədilə Kulca əyalətinə yola düşür. Bu səfər zamanı polkovniklə qarşılıqlı münasibətləri və sıx əlaqələri «Qırğızlar», «İssık-Kul səfəri qeydləri», «Çin imperiyasının Qərb əyaləti və Kulca şəhəri» kimi əsərlərini yazmaq üçün material toplamağa imkan verir. Bu əsərlərdə onun səfər etdiyi ərazilərin əhalisi, tarixi, etnoqrafiyası, coğrafiyası, flora və faunası haqqında maraqlı məlumatlar vardı.

Rusiyanın Kaşqar vilayətinə və Qərbi Çinə münasibəti çar hökumətinin Ç.Vəlixanova xüsusi maraq göstərməsinə səbəb olur. Hökumətin təklifi ilə Qasfort öz adyutantına bu ərazilər haqqında material toplamağı, eyni zamanda qırğız mananı (xanı) Barambəyə xeyli hədiyyə təqdim etmək təklifi etməli idi. Lakin

qışın girməsi səbəbindən Barambəylə görüşmək mümkün olmur. Bu zaman Kaşqarda və Qərbi Sibirdə üsyanlar başladığına görə o, tacirlərdən və yerli əhalidən həmin materialları toplayıb poçt vasitəsi ilə Mərkəzə göndərmişdi. Qərbi Sibir qubernatoru Qasfort Peterburqa göndərdiyi məlumatında Ç.Vəlixanovun Mərkəzi Asiyanın mülkləri, onun tarixi və hazırki vəziyyəti ilə əlaqədar maraqlı materiallar topladığını bildirirdi.

Mərkəzi Asiya, Kaşqar və Qərbi Çin İngiltərənin də xarici siyasətində mühüm yer tuturdu. İngiltərə hökuməti 1857-ci ildə görkəmli alman şərqşünası Adolf Şlaqjiveyti özünün agenti sifəti ilə Kaşqara göndərmişdi. Lakin o, üsyan başçısı Vəlixan Tyure tərəfindən öldürüldükdən sonra Kaşqara ingilis nümayədəsi kimi Əbdül Həmid adlı «səyyah» (əslində kəşfiyyatçı) göndərilmişdi. Lakin Mərkəzi Asiya, Kaşqar və Qərbi Çin sərhədlərinə yiyələnmək uğrunda İngiltərə ilə Rusiya arasında kəskinləşən mübarizə çar hökumətinin bu ərazilərə daha təcrübəli şəxsin göndərilməsi məsələsini gündəmə gətirir. 1857-ci ilin avqustunda Rusiya xarici işlər nazirliyinin Asiya departamentinin direktoru Y. Kovalevski Kaşqar vilayətinə belə bir adam tapıb göndərmək məsələsini Qərbi Sibir general-qubernatoru Qasfortdan tələb edir. Qubernator Ç. Vəlixanovun namizədliyi üzərində dayanır. Çünki Ç.Vəlixanov o zaman daha çox istedadlı tədqiqatçı alim və səyyah kimi tanınmışdı. Onun elmi nəticələri, həm də rus burjua cəmiyyətini qane edirdi. Onun «Altışaranın vəziyyəti haqqında», «Qərbi Çin», «Nan-lu», «Kiçik Buxara əyalətinə 6 səfər» haqqında əsəri elm aləmində öz orijinallığı və onun müəllifinin səyahətlərinin nəticəsi kimi yaxşı tanış idi. Beləliklə, Kaşqara yola düşməzdən əvvəl 1857-ci ilin fevralın 27-də görkəmli rus alimləri P.P. Semyonov (Tyan-Şanski) V.İ. Lamanskinin təklifi və təqdimatı əsasında Çokan Vəlixanov Rusiya Coğrafiya Cəmiyyətinin həqiqi üzvlüyünə namizəd-akademik göstərilir və seçilir. Sibir general-qubernatorluğunun məsləhətindən sonra hökumət dairələrində Kaşqar vilayətinə Ç.Vəlixanovun rəhbərliyi altında səyahətçi qrupu göndərilməsi qərara alınır. 1858-ci il iyun ayının 23-də Qaratalada general Qasfort Ç.Vəlixanovla

görüşür və nəzərdə tutulan səfərin son dərəcə gizli, həm də təhlükəli olması barədə ona məlumat verir. Bütün çətinliklərə, qarşıda duran vəzifələrin mürəkkəbliyinə baxmayaraq bu səfər onu xüsusilə maraqlandırırdı. Ç.Vəlixanov 1858-ci il iyunun 28-də Kaşqara yola düşür.

Nəhayət, 1859-cu ilin aprelin 12-də Vernoye (Alma-Ataya) qayıdır. Kaşqarda olduğu zaman gizli şəraitdə yaşayan Çokan Vəlixanov özünü 30-cu illərdə Rusiyada itmiş Kaşqar tacirinin oğlu kimi qələmə verir. Bu ölkənin yazılmamış qanunlarına tabe olaraq o, burada müvəqqəti kəbin kəsdirərək yerli hadisələrlə tanış olan bir qızla evlənir.

Yeni həyat yoldaşının söhbətlərindən xeyli məlumat əldə edən Çokan Vəlixanov Kaşqar səyahətinin nəticələri haqqında yazırdı: «Mən Kaşqar vilayəti haqqında dəqiq məlumatlar toplamağa çalışır, xüsusi ilə kiçik Buxaranın siyasi həyatı və vəziyəti ilə bağlı məlumatları tanış olduğum adamlardan, burada yaşayan millətlərin nümayəndələrindən toplayır və onları müqayisə edərək ümumi nəticə çıxarırdım. Burada mən xocaların hakimiyyəti dövrünə aid bir neçə maraqlı kitab əldə etmişdim. Bir sıra alim axundlarla dostluğumdan istifadə edib, habelə Kaşqarda yaşayan bəy, şeyx və axundların, eyni zamanda mənim burada yaşayan qohumlarım vasitəsi ilə altı şəhər ərazisi haqqında, onun … əhalisi barədə xeyli etibarlı materiallar əldə etmişəm».

Peterburqda Ç.Vəlixanovun Kaşqar səfərinin nəticələrini səbrsizliklə gözləyirdilər. Lakin Omska gələn Ç.Vəlixanov burada ağır xəstələnir. general Qasfort C.Vəlixanovun xəstəliyi barədə hərbi nazirliyə məlumat verərək onun Kaşqar barədə hesabatı və məlumatlarını Peterburqa poçtla göndərir. Verilən tapşırıqları nümunəvi yerinə yetirdiyinə görə Ç.Vəlixanov IV dərəcəli Müqəddəs Vladimir ordeni ilə təltif olunur, ona ştabs-rotmistr rütbəsi, habelə birdəfəlik 500 rubl mükafat verilir. Hökumət onun 1.175 rubl miqdarında olan borcunu ödəməyi öz öhdəsinə götürür. Bundan əlavə, Peterburqda onu Musabəy qızıl medalı, Bukaş qızıl medalı, rütbə və başqa təltiflər gözləyirdi. Karvanı

səfərə hazırlayan, onun kadet korpusunda müəllimi olan Qutkovski də mükafata layiq görülmüşdü.

Kaşqar səfəri Ç.Vəlixanova rus siyasi cəmiyyətində nüfuz qazandırdı. Y. Kovalevski Sibir Komitəsinin sədri qraf Bludova verdiyi məlumatda Ç.Vəlixanovu xüsusilə böyük istedada malik şəxs, böyük gələcəyi olan alim kimi səciyyələndirmişdi. Onun Kaşqar haqqındakı məlumatları və hesabatı paytaxtın yüksək dairələrinin marağına səbəb olmuşdu. Onunla müqəddəs Sinodun ober-prokuroru A.P. Tolstoy, Qafqaz Orenburq və Sibir işləri üzrə baş qərargah departamentinin şöbə müdiri D. Romanovski və b. maraqlanırdılar. Sonralar onlarla Ç.Vəlixanov arasında dostluq münasibətləri yaranmışdı.

Ç.Vəlixanov Omskda olarkən bir neçə dəfə P.P. Semyonov (Tyan-Şanski) ilə görüşmüş və böyük rus səyyahı və coğrafiyaşünası onun elmi inkişafına yaxından köməklik etmişdi. O, 1854-cü ildə böyük rus yazıçısı F.M.Dostoyevski ilə tanış olmuş və ömrünün sonuna kimi onunla dostluq etmişdi. Ç.Vəlixanov Petraşevçilərin yaxın dostu S.F. Durovla, tələbə yoldaşı – sonralar görkəmli taixçi Q.N.Potaninlə, M.N.Vendikovla və b. inqidabçı-demokratlarla tanış idi və əlaqə saxlayırdı. Hələ kadet korpusunda təhsil alarkən Çokan Vəlixanov və Qriqori Potanin Peterburqa gedib Universitetdə təhsil almağı arzılayırdılar. Ç.Vəlixanov Şərq fakültəsinə, Q.Potanin isə fizika-riyaziyyat fakültəsinin təbiyyat-tarix şöbəsinə daxil olmağı qərara almışdı.

1858-ci ildə Omskada təşkil edilmiş «Kazak dərnəyi» nə hər iki dost üzv olmuşdular. Dərnəyin üzvlərinin çoxu sonralar müxtəlif yollarla Peterburqa gəlmişdilər.

Ç.Vəlixanov artıq o dövrdə öz xidməti vəzifələrindən əlavə, həm də öz tədqiqatları ilə Rusiya Elmlər Akademiyasının tanınmış alimi kimi söhrət qazanmışdı.

5.2.3. Çokan Vəlixanovun inqilabi-demokratik görüşləri və cəmiyyəti yeniləşdirmək ideyaları

1859-cu ilin sonlarında Peterburqa gələn Çokan Vəlixanov 1861-ci ilin yazına kimi orada qalır. Onun gəlişi sibirli dostlarını-Peterburq Universitetinin azad dinləyiciləri Q.Potanin, V.Usov, D. Pirojkov və başqalarını, ümumiyyətlə, o vaxt paytaxtda olan 20 -yə yaxın sibirlinin sevincinə səbəb olmuşdu. Peterburqun qaynar ictimai-siyasi mühiti onun maarifçi və inqilabçı-demokrat kimi yetişməsinə böyük təsir göstərmişdi. Burada Gertsen, Dobrolyubov, Çernişevski kimi inqilab xadimləri ilə tanış olmaqla yanaşı, sibirli Q.N.Potaninin təşəbbüsü ilə açılan «Sibir həmyerliləri» təşkilatına üzv seçilir.

«Sibir həmyerliləri» dərnəyi Ç.Vəlixanovun Peterburqa gəlişindən 2 il əvvəl – 1857-ci ildə Peterburq Universitetinin tələbəsi N.S.Şukin tərəfindən təşkil edilmişdi. Lakin qrup tezliklə dağılmış, yalnız 1858-ci ildə Q.Potanin Peterburqa gələndən sonra ikinci dəfə yenidən təşkil olunmuşdu. XIX əsrin II yarısında Sibir siyasi cəhətdən həbslərə məhkum edilən görkəmli inqilabçılar nəslinin işgəncə və məhrumiyyətlərə məhkum edildiyi mərkəzlərdən biri olmaqla bərabər, həm də mütləqiyyətə, çarizmin siyasəti əleyhinə qarşı çıxan ucqar mərkəz idi. Bu dərnəyin inqilabi-demokratik baxışlarına mənsub üzvləri fəaliyyətlərini maraqları üzərində qurmuşdular. Burada toplanan istedadlı, düşüncəli və ağıllı gənclərlə yanaşı Çokan Vəlixanovun bu dərnəyə daxil olması Sibir vətənpərvərlərinin fəaliyyətinin xeyli fəallaşmasına səbəb olmuşdu. Bu ilk növbədə Ç.Vəlixanovun rəsmi hökumət dairələrində, rus elmi ictimaiyyəti və Peterburqun ali təhsil ocaqlarında oxuyan gənclər arasında tutarlı nüfuza malik olması ilə bağlı idi. Digər tərəfdən, onun ümumi intellektual çəkisi və ictimai-siyasi nüfuzu sibirli gənclər tərəfindən yüksək qiymətləndirilirdi. Bu səbəbdən də, «Sibir həmyerliləri» dərnəyi üzvləri onun mənzilinə toplaşırdı, tutduğu vəzifədən yüksək məvacib alan Ç.Vəlixanov dərnəyə və onun bir sıra üzvlərinə maddi kömək göstərirdi.

Çokan Vəlixanov və dərnək üzvlərinin əksəriyyəti XIX əsrin 60-cı illərinin azadlıq ideyalarının alovlu mübarizələri olan rus demokratik hərəkatının liderlərinə böyük rəğbət və hörmət bəsləyən şəxslər idilər. Sibirli vətənpərvər gənclərin dərnəynin fəaliyyəti 60-cı illərin inqilabi-deokratik hərəkatının lideri, görkəmli alim, filosof, sosioloq və inqilabçı olan N.Q. Çernişevskiyə məlum idi. Dərnəyin rəhbəri Q.N.Potanin Çernışevski ilə tanış və dost idi. O, dəfələrlə onunla görüşərək söhbət etmiş və ondan məsləhət almışdı.

1861-ci ilin aprelində Kazan quberniyasının Bezdno kəndində kəndli üsyanı yatırıldıqdan və günahsız insanların gülləyə tutulmasından sonra Kazan Universitetinin və Kazan Ruhani Akademiyasının tarix professoru A.P.Şarovun Kazan kilsəsi qarşısında təşkil etdiyi matəm-mitinqində çıxışı, bütün Rusiya əhalisini yeni mübarizəyə çağırması Peterburqda yaşayan sibirlilərin sevincinə səbəb olmuşdu. Onlar A.P.Şarovun və onun çağırışına cavab verib bu yığıncaqda toplanan sibirlilərin şəxsində öz qəhrəman həmyerliləri ilə fəxr edirdilər. «Kazan tələbə kitabxanası» gizli təşkilatının gənc üzvlərindən olan 30 yaşlı professor A.P.Şarov polis tərəfindən iki həftəliyə həbs edidikdən və Peterburqa gətirildikdən sonra o, Peterburqda Sibir vətənpərvərləri Kuroskin və Yeliseyevlə tanış olub onların dərnəyində dövlətin federativ quruluşu haqqında mühazirələr oxuyurdu. Ç.Vəlixanov isə bu dövrdə hələ Peterburq həyatı ilə tanış olurdu. O, 1861-ci ilin aprelində fəal siyasətə qoşulur və Sibirdə milli məsələ ilə bağlı müzakirələrdə iştirak etməyə başlayır.

Ç.Vəlixanov Peterburqda təkcə sibirli gənclərlə deyil, həm də o dövrün görkəmli siyasətçiləri – yazıçı F.M. Dostoyevski, T.Şevçenko, İ.Çavçavadze, A.Şarov, eyni zamanda imperiyanın milli ucqarlarının görkəmli inqidabçı demokratları ilə görüşərək ideya-siyasi baxılarını xeyli təkmilləşdirmişdi.

Ç.Vəlixanov 1860-cı ilin sonu, 1861-ci ilin əvvəllərində hakimlərin məsləhəti və tələbi ilə xaricə – Parisə gedir. Çox ehtimal ki, o buraya vərəm xəstəliyinin müalicəsi məqsədilə getmişdi. Ç.Vəlixanov mühacirətdə olan rus inqilabçıları N.Dobrolyubov,

H. Obruçov, M.Mixaylov, H. Serno-Solovyoviç, A.Gertsen və polyak inqilabçısı Z. Serakovski ilə görüşmüşdü.

Peterburqa qayıdan Ç.Vəlixanovun xəstəliyi daha da şiddətlənir. Gərgin zehni və fiziki iş Ç.Vəlixanovun möhkəm olmayan bədəninin zəifləməsinə, həm də Peterburqun rütubətli havası səhhətinin pozulmasına səbəb olmuşdu. Həkimlər ona vətənə qayıdıb öz səhəti ilə məşğul olmağı, kımıs (at südü) içməyi məsləhət görürlər. Ona oxumaq, yazmaq və zehni işlə məşğul olmaq qadağan olunur. 1861-ci ildə bir daha Peterburqa qayıdıb dostları ilə görüşməyi arzu edən Ç.Vəlixanov onların tələbi ilə may ayında paytaxtı tərk edib vətənə gəlir. Atası tərəfindən doğma aulda qəbul edilən Çokan tezliklə sağalacağına ümid edir. Lakin ailənin və dostlarının əhatəsində olan Ç.Vəlixanovu siyasi, sosial -iqtisadi hadisələr həyacanlandırır. Hadisələrin gedişini diqqətlə izləyən Çokan 1865-ci ili aprelində, həyatının çiçəkləndiyi bir vaxtda – 30 yaşında dünyasını dəyişir.

Ç.Vəlixanovun cəmiyyəti yeniləşdirmək haqqında maraqlı mülahizələri vardır.

Məlumdur ki, XIX əsrin 40-cı illərində Rusiyanın ictimai-siyasi həyatında xüsusi rol oynayan sosializm haqqında ideyalar meydana gəlməyə başlamışdı. Onun yayılmasında mühüm rol oynayan rus inqilabçı-demokratları Belinski, Gertsen, xüsusən Çernışevski və onun məktəbinin üzvləri Oqaryov, Dobrolyubov və başqaları rus gəncliyi arasında böyük nüfuz qazanmışdılar. Ç.Vəlixanovun Sibir (Omsk kadet korpusu dövrü) və Peterburq dövrü sosializm ideyaları ilə maraqlandığı mərəhələ idi. Onun yaxın dostu və qrup yoldaşı Q.Potaninin xatirələrindən aydın olur ki, Ç.Vəlixanov hələ gəncliyində sosializmə meyl etmiş, Peterburqda Çernışevskinin qrupu ilə yaxın əlaqə saxlayaraq 60-cı illərin əvvəllərindən fəaliyyət göstərən «Torpaq və azadlıq» inqilabi təşkilatının üzvlüyünə daxil olmuşdu.

Sosializm ideyası 60-cı illərin kəndli ideologiyası idi, onun qabaqcıl nümayəndələri öz proqramlarında kəndlilərin marağını və mənafeyini ön planda verir və bu sinfin tələb və arzularını həll etməyi özlərinin əsas vəzifələri hesab edirdilər. Ç.Vəli-

xanovun üzv olduğu «Sibir həmyerliləri» «Torpaq və azadlıq» dan ilham alan, onun proqramlarını qəbul edən sibirli vətənpərvərlər, o cümlədən Ç.Vəlixanov özlərini sosialist adlandırırdılar. Həqiqətən onlar utopik sosialistlər olub kəndlilərin və Sibir kazaklarının mənafe və maraqlarını müdafiə edirdilər. Onlar kəndli icmasının timsalında sosialist birgə yaşayışının toxumunu və cücərtilərini görürdülər. Onların inqilabi fəaliyyəti imperiyanın digər ucqarlarından fərqli xüsusiyyətlərə malik idi. Bu planda kəndlilərin mülkədar asılılığından azad edilməsi məsələsi qoyulmuşdu və onların vəziyyəti izah olunurdu. Çünki Mərkəzi Rusiyada, habelə ölkənin digər regionlarından fərqli olaraq Sibirdə kəndlilər qeyd etdiyimiz regionlarla müqayisədə daha çox azad idilər. Onlar göstərirdilər ki, Sibirdə təhkimli vəziyyətdə əsasən kazaklardır. Onların 1864-cü ildə tərtib etdikləri «Sibir kazaklarının vəziyyəti haqqında Əsasnamə» də kazakların azadlığı uğrunda mübarizəsi əks olunmuşdu. Kazakların hüquqlarının müdafiəçisi kimi Q.Potanin (Ç.Vəlixanov o zaman ağır xəstə idi) çıxış edirdi. 1865-ci ildə bu təşkilatın fəaliyyətinin üstü açılır, onun fəal xadimləri həbs edilir, dindirilmədən məlum olur ki, onlar kəndlilərin və sıravi kazakların maraqlarının müdafiəçisi olub təhkimçi kəndlilərin təhkimçilikdən azad olunmasını arzulayırdılar.

Ç.Vəlixanovun «Məhkəmə islahatı haqqında Qeydlər» ində o dövrdəki qazax cəmiyyətində 2 sinfin: imtiyazlı sultanlar, bəylər, zəngin qırğız-qazax nahiyə başçılarından və yoxsul xalqdan ibarət olduğu göstərilirdi. Öz fikirlərini inkişaf etdirən Ç.Vəlixanov yazırdı ki,: «Qazaxlar icma bölgüsü şəraitində və aul-icma həyat tərzində yaşayırlar. Sosializm ideyası əsiri olan Ç.Vəlixanov və onun həmfikirləri Sibirdə və Qazaxıstanda kəndli icma torpaqları sistemini müdafiə edirdilər, onun dəyişdirilməsini və dağıdılmasını tərəqqi yolunda böyük fəlakət və qüsur hesab edirdilər. Çinin Sun imperiyası dövrünün rus mütləqiyyətini dövlət quruluşu ilə müqayisə edən Ç.Vəlixanov Çində xüsusi torpaq mülkiyyətinə üstünlük verir, ictimai tərəqqini iki amildə: bilik və azadlıqda görürdü. Ç.Vəlixanovun böyük sultan vəzifə-

sinə seçilməsinə imkan verməyən çar məmurları onun bərabərlik ideyalarından qorxurdular.

Rusiyada inqilabi şəraitin yetişməsi və bu mərhələyə daxil olması dövründə kəndli kütlələrinin inqilabi mübarizə formaları və maraqları problemi ciddi xarakter almağa başlamışdı. Liberal burjua iideoloqları mütləqiyyət rejiminin əsaslarına toxunmadan onun məzmununda bəzi dəyişikliklər aparmağı təklif edirdilər. Bunun əksinə olaraq inqilabı demokrtlar 1861-ci il 19 fevral çar manifestini xalqın çar tərəfindən aldadılması kimi qəbul edir və ona qarşı inqilabi təbliğatı gücləndirməyi, kəndliləri inqilaba hazırlamağı tələb edirdilər.

Qeyd etdiyimiz dövrdə Ç.Vəlixanov Peterburqda yaşayırdı və inqilabçı demokratların «kəndli inqilabı» ideyasını müdafiə edirdi. O, Şərqi Türküstanda inqilabi şəraitin yetişmədiyini, kəndli inqilabının baş verməməsi səbəblərini aşağıdakı amillərlə əlaqələndirirdi: a) hərbi qüvvələrin istismarçı təbəqənin əlində cəmləşməsi və xalqın öz azadlığı uğrunda mübarizə cəhdlərinin olmaması; b) yerli hakimlərlə «vəhşi» əhali arasında qarşılıqlı düşmənçiliyin davam etməsi; c) xalqın fanatizmi, onun birlikdə mübarizə aparmaq ideyasının olmamasının inqilabi şəraitə ciddi maneçilik etməsi;

Ç.Vəlixanov Rusiyanın yeniləşməsinin tərəfdarı olmaqla bərabər, rus xalqı ilə dostluğun davam etdirilməsini zəruri hesab edirdi.

XIX əsrin 50-60-cı illərində Rusiyada genişlənən mübarizənin təsiri altında formalaşan xalqçılıq ideyasına qarşı çıxan Ç.Vəlixanov «rəsmi xalqçılıq nəzəriyyəsi» ideoloqlarının fikirlərini Qazaxıstan və Mərkəzi Asiyanın timsalında «xalq» adı altında hansısa etnik birliyi deyil, sosial kateqoriyanı görürdü. O, Kaşqar vilayəti əhalisinin 3 sosial qrupdan (sinifdən): məmurlar, din xadimləri və sadə xalqdan ibarət olduğunu qeyd etməklə yanaşı əvvəlki 2 sinfi hər cür vergi və istismardan azad olunan yuxarı siniflər adlandırır və sıravi xalqın ağır həyatını təsvir edirdi.

Ç.Vəlixanov cəmiyyətin yenidən qurulmasında onun siyasi sisteminin böyük əhəmiyyət kəsb etdiyini, xalqın gələcəyinin bu

sistemdən daha çox asılı olduğunu yazırdı. Onun əsərlərində, xüsusən Peterburq dövrü yazılarında, habelə 1864-cü ildə yazdığı «Məhkəmə islahatları haqqında Qeydlər»ində çar məmurlarının keçirdiyi islahatlara «xalq donu» geydirməyə cəhd edənləri ifşa edirdi. Onun «hər bir» insanın ayrılıqda, bütün bəşəriyyətin isə birlikdə son məqsədinin özünün və cəmiyyətin maddi vəziyyətini yaxşılaşdırmaq və tərəqqiyə nail olmaq» tezisində ölkədə sosial və iqtisadi dəyişikliklər edilməsi zərurəti şərh olunmuşdu. Ç.Vəlixanov yazırdı: «Bizim zəmanəmizdə xalq üçün ən vacib iqtisadi və sosial islahatlar keçirməkdən ibarətdir, siyasi islahatlar isə iqtisadi islahatların həyata keçirilməsi üçün vacibdir». Siyasi islahatlar dedikdə o, çar hökuməti tərəfindən hazırlanmış və qazax çöllərində həyata keçirilməsi nəzərdə tutulan 60-70-ci illərin inzibati idarə sistemində keçirilən dəyişiklikləri nəzərdə tuturdu. O, eyni zamanda islahat adı altında mövcud siyasi sistemin dəyişdirilməsini diqqət mərkəzinə çəkirdi. Ç.Vəlixanov Qazaxıstanda xalqın adət və ənənələrinə, mənəviyyatına yad olan islahatların ümumi inkişafa mane olan cəhətlərini tənqid edirdi.

Peterburqdan vətənə qayıtdıqdaq sonra Ç.Vəlixanov Rusiyada, habelə Avropada başlanmış burjua dəyişikliklərini xalq arasında təbliğ etməyin və sosial islahatlar keçirməyin çətinliyini duymuş və Qazaxıstanın bu dəyişikliklərə hazır olmadığını göstərirdi. O, qeyd edirdi ki, islahatların keçirilməsi o zaman müvəffəqiyyətli olar ki, onlar tərəqqi qanunlarına əsaslanan normal inkişafa təkan versin.

Hələ 50-ci illərin ortalarında feodal mülklərini və hökmdarların xalqın hesabına yaşadıqlarını göstərən Ç.Vəlixanov yazırdı: «Əgər Türküstan əhalisi öz zəhmətlərinin nəticələrindən istifadə edə bilsəydilər, onlar Şərqin varlı xalqlarından olardılar». Ona görə də, hesabsız və ölçüsüz vergilər, bəylərin zorakılığı xalqın bütün imkanlarının qabağına səd çəkmiş, onları müflis vəziyyətə salmış, onların əlindən alınmasına səbəb olmuşdu. Mərkəzi Asyidakı monarxiya idarə sistemi və tatar vandalizmi

nəticəsində xalqın yaratdığı maddi və mənəvi dəyərlər məhv edilmişdi.

«Qırğızlar haqqında Qeydlər» ində göstərirdi: «Keçmişdə qırğız qəbilə başçılarının hakimiyyəti indiki ilə müqayisədə demokratik məzmun daşıyırdı. Lakin tədricən torpaq sahibi ilə qul arasındakı münasibətlər pozularaq despotik münasibətə çevrilmiş, indiki nəsil başçısı olan manan (bəy) qara xalqın tam hakimidir, onları sata və öldürə bilər». Mananların heç bir qanunla hesablaşmamaları burada hökm sürən özbaşınalığa işarədir, güclü və hakim mananlar xalqla, hətta yaxın adamları ilə istədiyi kimi rəftar edirlər. Məsələn, Manan Hümmətəli Urmanov öz sevimli arvadını ona görə güllələmişdi ki, o mananın əmrini ona iki dəfə təkrar etməyə məcbur etmişdi.

Despotizmin daha dəhşətli forması Kaşqar vilayətində idi. Orada kəsilmiş insan başlarından qalalar tikilir, adamların başını toyuq başını kəsən kimi kəsirlər. Onun yaşadığı dövrdə istər Rusiyada, istərsə də Qazaxıstan və Mərkəzi Asiyada hökm sürən despotizmi rus inqilabçıları kimi Ç.Vəlixanov başqa ölkələrlə, məsələn, Türkiyə, İran və Çin hakimləri ilə müqayisə edirdi.

Ç.Vəlixanovun baxışlarında mühüm yeri müstəmləkə siyasətinin, xüsusən rus çarizminin amirlik xəttinin ifşası tutur. Çünki o istər Qərbi Sibir, istərsə də Peterburqda çarizmin inzibati dövlət aparatı idarələrində hərbi qulluqda olduğu dövrdə çarizmin müdaxiləçilik və işğalçılıq siyasətinin, xüsusən onun şərq siyasətində kiçik xalqlara qarşı düşmənçilik və sıxışdırma xəttinin ağır nəticələrinin şahidi olmuşdu. Bir sıra əsərlərində və publisistik məqalələrində Qazaxıstanın timsalında çarizmin müstəmləkəçilik siyasətini tənqid edən ədib XIX əsrin 20-ci illərində Speranskinin başçılığı ilə həyata keçirilən idarəçilik sistemi sayəsində qazaxların rus hakimiyyəti altında birləşdirilməsini təqqid edərək bu siyasətin mahiyyətinin nə qazaxlara, nə də ruslara məlum olmadığını göstərirdi.

O, 1822-ci ildə qraf Speranski tərəfindən hazırlanmış və həyata keçirilməsi də ona tapşırılmış Sibir qırğızları haqqında «Əsasnamə» ni tənqid edərək göstərirdi ki, burada həyata keçiri-

ləcək islahat tərəqqi və inkişafa zidd olub, yoxsul xalqa fəlakət gətirəcəkdir. Speranski özü də rəsmi hökumət orqanlarına məktub yazaraq bu islahatın keçirilməsi nəticəsində qazax torpaqlarının imkanlı şəxslərə kütləvi satışının heyvandarlığa zərbə endirəcəyini bildirmişdi.

Çarizmin Qazaxıstanda tətbiq eidiyi vergi siyasəti əleyhinə çıxan Ç.Vəlixanov göstərirdi ki, indi yoxsul qırğız (qazax) hər alaçıqdan varlı qədər -1 rubl 50 qəpik vergi verir. Onlar (yoxsul kəndli) tələb olunan vergini ödəmək üçün əksər hallarda son əmlaklarını satmalı olurlar.

Ç.Vəlixanovun dini baxışları da maraq doğurur. O, hər cür dindən imtina edərək ilk növbədə qazaxlar arasında xristianlığı və islamı yaymaq cəhdləri əleyhinə çıxmışdır.

Ç.Vəlixanov barəsində onun müasirləri və bir sıra tədqiqatçılar maraqlı fikirlər söyləmiş, onun qazax çöllərində Rusiyanın müstəmləkə siyasətinin müdafiəçisi və həyata keçirəni olması, qazax xalqını qula çevirən şəxs kimi təqdim etmişlər. Sözsüz ki, bu müəlliflər qeyd edilən məsələlərdə Ç.Vəlixanovu general Çernyayevin Aul-Atanı almaq uğrunda hərbi əməliyyatlarda iştirak etməsinə, çarizmin Qazaxıstan vilayətində həyata keçirdiyi tədbirlərdə iştirakına, habelə onun general Kolpakovski və digər rus hərbi zabitləri ilə əlaqə saxlamaqda ittiham edirlər.

Lakin çar hökumətinin Qırğızıstanı və Cənubi Qazaxıstanı hərbi yolla tutmaq siyasəti yerli əhalini kütləvi qırğınına səbəb ola bilərdi. Ç.Vəlixanov isə humanist bir insan kimi bunu yolverilməz hesab edir, hökumət hərbi qüvvələri başçılarının zorakılıqdan çəkindirmək üçün onlarla əməkdaşlıq edirdi. Q.N. Potanin yazırdı: «Ruslar Pispeki (Aul-Atanı) alarkən etdikləri vəhşilik Ç.Vəlixanovu sarsıtmışdı və onlarla toqquşaraq onların hərəkətlərinə qəti etirazını bildirmişdi.

Təbii ki, təbiət etibarilə insanpərvər olan, öz ideyalarına sədaqətlə xidmət edən Ç.Vəlixanov bu cür vəhşiliklər törədən ordu, onun başçısı general Çernyayevlə razılaşmamışdır. Bununla da, əvvəllər aralarında olan xoş münasibətlər pozulmuşdu.

General Ç.Vəlixanovun xidmətlərini yüksək qiymətləndirmiş və Peterburqa yazdığı təqdimatında ona növbəti rütbə – rotmistr dərəcəsi verməyi xahiş etmişdi. 1865-ci ilin martın 10-da təxminən ölümündən bir ay əvvəl Ç.Vəlixanova bu rütbə verilmişdir.

Ç.Vəlixanov şərqşünas alim olmuşdu. İlk qazax maarifçilərindən və demokratlarından olan Ç.Vəlixanov həm də istedadlı şəqşünas alim kimi səmərəli elmi tədqiqat işləri aparmışdır. Onun türk xalqlarının taleyində və tarixində oynayacağı rolu yüksək qiymətləndirən görkəmli rus orientalist alimi, akad. N.İ.Veselovski onun haqqında yazırdı: «Rus orientalistləri onun şəxsində fenomenal hadisənin baş verdiyini yekdilliklə qəbul etdilər və ondan türk xalqlarının taleyi üçün böyük və mühüm kəşflər etməsini gözləyirdilər, lakin onun vaxtsız ölümü bizi bu ümidlərdən məhrum etdi».

Köçəri qazaxlar arasından çıxmış Ç.Vəlixanov ilk qazax şərqşünası olmaqla yanaşı, Rusiya orientalistləri arasında şərəfli yer tutaraq elmin yüksək zirvəsinə həyatının gənclik illərində çatmışdı. 1855 -1857-ci illərdə Qazaxıstan, Qırğızıstan və Kulça vilayətlərində aparılan ekspedisiyalarda fəal iştirak edən Ç.Vəlixanov qədim qayaüstü yazıları və sikkələrin mətnini oxumağa və öyrənməyə nail olmuşdu. O, qırğız-qazaxların həyat tərzini, adət-ənənələrini qələmə almış, özünün müşahidəçilik qabiliyyətinə malik olduğunu sübut etmişdi. Qırğızıstanda aparılan tədiqatların nəticələri onun «Böyük qırğız-qaysaq ordasının rəvayətləri və əfsanələri», «İssık-Kula səfərin gündəliyi», «Qazax xalq poeziyasının növləri», «Cunqariyanın oçerkləri», «Tarixi-Rəşidəddin», «Adolf Şlaqinveytin ölümünün səbəbləri» və b. əsərlərində ümumiləşdirilmişdir.

Onun Şərqi Türküstana səyahəti zamanı əldə etdiyi unikal nəticələr onun rus və dünya elmində şöhrətlənməsinə səbəb olmuşdu. O vaxt dünya elminə çox az məlum olan Şərqi Türküstan, xüsusən Tyan-Şan və Kuen-Lun dağları arasında keçilməz olan bu diyar antik Sin (Çin) imperiyasının sirrlərini özündə saxlayırdı. O, öz həyatını təhlükə qarşısına qoyaraq 1858-ci ilin sentyabrında ticarət karvanı tərkibində Kaşqarı keçib bir neçə

ay ərzində xeyli maraqlı və zəngin materiallar toplamışdı. Onun topladığı materiallar barədə yazdığı hesabatlarla tanış olanlar Ç.Vəlixanovun məlumatlarının ədəbi şərhinə və sistemliliyinə heyran olmuş, bu nadir şərqşünasın böyük gələcəyinə inam bəsləmişlər. XIX əsrin 60-cı illərinin görkəmli fransız publisisti Emil Janov yazırdı: «Yalnız rus zabiti Ç.Vəlixanovun əsərləri sayəsində bir tarix üçün böyük əhəmiyyəti olan qiymətli məlumatlara və Çin Tatarıstanının siyasi vəziyyəti haqqında izahatlara malik olmuşuq».

Ç.Vəlixanov Mərkəzi Asiyanın şərq hissəsinə olan marağını gündəliklərinin birində belə əsaslandırırdı: «Son vaxtlar coğrafiyanın böyük nailiyyətlərinə baxmayaraq Mərkəzi Asiya yüksəklikləri, öz dünyəvi vulkanları və sehirli adamları indiyə kimi öyrənilməmiş olaraq qalır. Biz qorxmaz səyyahların səyi nəticəsində Afrika və Avstraliyada aparılmış axtarışlar haqda məlumatları əldə edirik. Lakin indiyə qədər Mərkəzi Asyiaya heç bir səfər-səyahət təşkil edilməmişdir. İnsanın ilk beşiklərindən olan Asiya, görəsən Afrikadan maraqlı deyil? Biz ruslar üçün Asiyanın, bizim qonşumuzun öyrənilməsi bağışlanılmazdır».

30 yaşlı Vəlixanov həqiqətən çox iş görmüşdür. Onun ədəbi və elmi irsi böyük və çoxsahəli idi. Onun əsərləri hələ sağlığında rus və digər Avopa dillərində nəşr olunmuşdu. Ölümündən sonra onun yaxın dostları və həmkarları P.P.Semyonov Tyan-Şanski, K.K. Qutovski Rus Coğrafiya Cəmiyyəti Elmi Şurasının qərarına əsasən onun əsərlərini toplayıb çapa hazırlamış və nəşr etdirmişlər.

Ç.Vəlixanovun yaşadığı və elmi fəaliyyət göstərdiyi illərdə Rusiyada Şərqin öyrənilməsi ilə məşğul olan elmi mərkəzlər: Asiya Muzeyi, Kazan Universiteti, Peterburq Universiteti, Lazarev İnstitutu, Odessada Rişelye liseyi nəzdində Şərq İnstitutu, müxtəlif şərq məsələləri ilə bağlı elmi və təcrübi müəssisələr fəaliyyət göstərirdi. Rusiyada dünya şöhrəti qazanmış alimlər: Y.Çiçurin, N.V. Velyaminov, B.P.Vasilyev, İ.N.Berezin, X.D.Fren, V.V. Velyaminov-Zernov, M.A. Kazımbəy, O.İ.Sen-

kovski, O.M. Kovalevski, V.V. Qriqoryev, Corci Banzarov və b. Kaşqar vilayətini ilk olaraq dünya və rus elminə tanıtdıran Ç.Vəlixanov öz elmi axtarışlarının nəticələrini Asiya Departamentində Baş Qərargahda, Peterburq Universitetində, Rus Coğrafiya Cəmiyyətində açıqlamışdı. Çar II Aleksandr Ç.Vəlixanovun yaradıcılığına xüsusi maraq göstərərək onun elmi nəticələrini yüksək qiymətləndirmişdi. Lakin qazax alimi onun qəbulunda olarkən aldanılan və təhqir edilən qazaxların qayğısına qalmağı ondan xahiş etməsi çarı narazı salmışdı.

Qazaxıstan və Mərkəzi Asiyanın tarixi problemləri Ç.Vəlixanovu daim düşündürmüşdü. Şərqşünaslıq elmi meydana gəldiyi dövrdən kompleks elm sahəsi olub özündə dil, ədəbiyyat, incəsənət, tarix, fəlsəfə, iqtisadiyyat, siyasət, bu və ya digər ölkənin və ya xalqın qeyd etdiymiz elm sahələrini öyrənirdi. Ç.Vəlixanov isə qısa, lakin mənalı və zəngin yaradıcılığını Qazaxıstanın, Mərkəzi Asiyanın vəziyyətinə, türk xalqları olan qazax, qırğız, özbək, türkmən və uyğurların tarixinin öyrənilməsinə həsr etmişdi. Ona qədər Mərkəzi Asiya tarixi demək olar ki, tədqiq edilməmiş və öyrənilməmişdi. Yazılanlar ziddiyyətli olub ənənvi salnaməçilik çərçivəsindən kənara çıxmırdı. Ç.Vəlixanovun yazdığı kimi, sanki Mərkəzi Asiya üzərinə indiyə qədər pərdə çəkilmişdi. Bu ölkə «Avropa və rus elmi üçün bir çox cəhətdən əlçatmaz zirvə olaraq qalırdı».

Ç.Vəlixanovun təlimə münasibəti birmənalı deyildir. Fikrimizcə qarşısına qoyduğu problemlər onun elmə maraq dairəsinin genişliyi, Şərq regionunun tədqiqi üçün çox vacib olan bir sıra Şərq xalqlarının dillərinin mükəmməl bilməsi, onların adət-ənənələri, tarixi, coğrafi mühiti, təbiətlə yaxşı tanış olması, müxtəlif mənbələrdən, epiqrafik, arxeoloji və etnoqrafik əsərlərdən hərtərəfli istifadə etməyi bacarması onu başqalarından fərqləndiridi. Ona xas olan üstün cəhət ondan ibarət idi ki, o, çoxlarının görə bilmədiyi məsələləri öz mövqeyindən şərh etmişdi. Öz ümumiləşdirmələrində və çıxardığı nəticələrdə son dərəcə ehtiyatlı olan Ç.Vəlixanov əldə etdiyi materialı düşüncə süzgəcindən

keçirmiş, şahidi olmadığı məsələləri tarixdən, şahid olduğu problemləri isə öz müşahidələri əsasında yazmışdı.

Ç.Vəlixanovu qazax xalqının etnogenezi (mənşəyi) məsələləri daim maraqlandırmışdır. Özünün əlyazmaları və çap olunmuş «Qırğızların (həm də qazaxların) kökü», «Böyük qırğız», «Böyük qırğız ordası haqqında rəvayətlər və əfsanələr», «Cunqariya oçerkləri» və b. tədqiqatlarında «qırğız xalqının mənşəyinin heç vaxt ciddi» tədqiqat obyekti olmamasından təəssüf hissilə bəhs etmiş və bu xalqın etnoqrafiyasını diqqətlə öyrənməyə səy göstərmişdi.

Qazax xalqının mənşəyinin tədqiqi Ç.Vəlixanova ona qədər tarixçilər arasında olan yanlış fikri düzəltməyə imkan verdi. Ç.Vəlixanov «Qızıl Orda» terminini dövlət birliyi adı daşımasını izah edərək göstərdi ki, «orda» sözü geniş mənada xanın paytaxtının yeri, dar mənada onun «qərargahı» dır. Başqa sözlə, «Qızıl orda xanın oturduğu çadır, yurd, yaxud sonralar deyildiyi kimi xanın yaşadığı şəhər mənasını daşıyır». Onun diqqətindən «qazax» sözünün sosial mənası, etimologiyası da yayınmamışdır. «Qazax xalq poeziyasının növləri» adlı qeydlərində o, yazırdı: «Qədimdə «qazax» sözünə «azad», sərbəst mənasında təsadüf edilirdi. Heç bir şübhə yoxdur ki, bu söz Asiyada yaranıb inkişaf etmiş və sonra rus tatarlarına keçmişdi. Şübhə yoxdur ki, sərbəst və geniş çöllər (Ukraynanın Rusiya üçün oduğu kimi) özünə azadlıq və varlanmaq istəyən, ordada daxili çəkişmələrdən yorulub sakit yaşamaq istəyən və bunun üçün yeni yerlər axtaran batırların, kazak icmaçılarının vəhşi və köçəri həyat keçirən köçəri çöl qəbilələrinin görüş yeri idi. Aydın olduğu kimi, bu dövrdə Avropada cəngavərlik dövründə olduğu kimi bizim eldə də azad fikir və düşüncə hakim idi». Ç.Vəlixanov alimlərin uzun illər dolaşıq saldığı qırğız və qazax ifadələrinin məna və məzmununu açmağa cəhd göstərmişdi. Məlum olduğu kimi, XVIII əsrdə və XIX əsrin əvvəllərində ruslar qazaxları qırğız-qaysaq adlandırırdılar, qırğızları isə onların yaşadıqları yerli adı ilə qara qırğızlar, yaxud vəhşi Daş qırğızları burutlar adlandırırdılar. Çin və monqol mənbələrində qırğızlar burutlar adlanırdılar.

Avropanın bir çox görkəmli alimləri, o cümlədən A.Qumbolt, K. Ritter belə hesab edirdilər ki, «**bururtlar**» böyük qazak ordasını təşkil edirdilər. Odur ki, onlar Kiçik və orta ordalardan dil, mənşə və adət-ənənələrinə görə bir-birindən fərqlənirlər.

Qazax şərqşünasının bir sıra məqalələri və qeydləri qazaxların dini baxışlarına və diyarda müasir şəraitdə (Ç.Vəlixanovun yaşadığı dövrdə) islam dininə həsr olunmuşdu. Onun «Qırğızlarda şamançılığın izləri», «Çöllərdə musəlmançılıq haqqında» və b. əsərlərində Çokan Vəlixanov göstərir ki, XIX əsrin əvvəllərinə kimi qazaxlar özlərini Məhəmmədin ardıcılları adlandırsalar da, əslində şamançı idilər. Şamanizm onlarda müsəlman inamı ilə birləşərək vahid inama – müsəlman etiqadına (baxmayaraq ki, onlar Məhəmmədi tanıyırdılar) gətirib çıxarmışdı. Onlar Allaha, eyni vaxtda onqonlara (ulu babalarının ruhuna) inanırdılar. Onlar müsəlman tabutları qarşısında qurban kəsir, şamana inanır və Məhəmməd xocalarına hörmət edirdilər.

XIX əsrin I yarısından etibarən Qazaxıstanda islam dininin mövqeyi qüvvətlənməyə başlayır. Lakin rus təlimi və tərbiyəsi almış Ç.Vəlixanov islamı qəbul etsə də, şəriətin ehkamlarını doğma kimi qəbul etmir, xüsusən yerli mollaların təbliğatları ilə hesablaşmırdı.

Ç.Vəlixanovu sözün həqiqi mənasında qırğız tarixşünaslığının banisi hesab etmək olar. Onun «Qırğızlar haqqında Qeydlər» ində qırğız köçəri tayfalarının və qəbilələrinn siyasi vəziyyəti, onların iki tərəfə (qanada) «on kol» (sağ) və «sol kol» (sola) ayrılması, əhalinin o zaman 300 min olması göstərilirdi.

Ç.Vəlixanov bir-birilə qohum olan (doğma olan) iki köçəri xalqın-qazaxların və qırğızların adət-ənənələrini, həyatını və quruluşunu müqayisə edərək hər ikisinin mananlardan (mülkədarlardan və ya xanlardan) və yoxsul xalqdan ibarət olduğunu qeyd edirdi. Ç.Vəlixanov ilk dəfə olaraq «Manas» qırğız qəhrəmanlıq eposunu yazıya almış və onun ayrı-ayrı hissələrini rus və qazax dillərinə çevirmişdi. Ona görə «Manas» eposu ensiklopediya olub bütün nağılların, povestlərin, rəvayətlərin, coğrafi, dini, əx-

laqi, elmi biliklərin, bir sözlə xalq anlayışlarının toplusudur. O, «Manas»ı Homerin «İliada» əsəri ilə müqayisə edərək onu «Çöl İliadası» adlandırmışdı.

Ç.Vəlixanov Şərqin digər regionlarının tarixini də tədqiq etmişdi. Şərqi Türükstan haqqında əsərləri və tədqiqatları, Sintsizyan xalqları tarixinə dair elmi axtarışları Ç.Vəlixanova dünya şöhrəti gətirmişdi. Onun əsərlərində diyarın tarixi-filoloji, təbii-coğrafi, sosial-iqtisadi və mədəni həyatı haqqında dəqiq məlumatlar verilir. «Altışarın vəziyyəti haqqında», Kaşqar vilayətinə səfər zamanı yol qeydlərində bu ölkənin son yüz ildəki tarixi, xalqın amansız istismarı və ağır həyatı, Mancur-Çin ağalığına qarşı xalqın mübarizəsi və b. məsələlər şərh və təhlil olunmuşdu ki, Şərqdə bu vilayət Altışəhər, Uyğurustan və yaxud Kaşqar, Asiyada Kiçik Buxara, Şərqi Türüküstan, Şərqi və ya Çin Türküstanı, bəzən isə Kaşqariya adlanır. Kaşqar, Yanısar, Yarkəd, Xotan, Aksu şəhərlərinin siyasi, sosial-iqtisadi və mədəni cəhətdən təsivrini verən müəllif Çin hakimiyyəti dövründə onların ağır və fəlakətli həyatını, özbaşınalıq və ədalətsizliyi təsvir etmişdi. O, Məhəmməd peyğəmbərin nəslindən olan Məhtumi Azyamın XVI əsrin I yarısında Kaşqara gəlib yerli əhali tərəfindən hörmətlə qarşılanmasından, Kaşqar hakimləri tərəfindən ona zəngin ərazi verilməsindən söhbət açır, onun oğlanları İmam-Kalyandan sonra onun ardıcıllarının özlərini «İşkiya», Xoca İsaak Vəlinin adamları isə özlərini «isakiya» adlandıdıqlarını qeyd edir.

XVIII əsrin 50-ci illərində şiddətli müqavimətdən sonra Şərqi Türküstan Mancur-Çin orduları tərəfindən işğal olundu. Ölkədəki daxili çəkişmələrdən istifadə edən işğalçılar onların arasında ədavəti qızışdırırdılar. 1765-ci ildə Şərqi Türküstan əhalisi Mancur-Çin ağalığına qarşı üsyan edti.

Təsvir etdiyi hadisələri özünün yaşadığı illərə – 1857-1859-cu illərə çatdıran müəllif Şərqi Türküstan, uyğur, dunqan, qırğız, qazax və b. xalqların amansız istismarını göstərir. Burada həm də, Çin sülaləsinin idarəçilik sistemi, hərbi qüdrəti haqqında məlumatlar vardır.

XIX əsrin əvvəllərindən başlayaraq Mancur-Çin rejiminin böhranı və zəifləməsidən istifadə edən Kaşqar əhalisi 1826-1828-ci illərdə Xoca Cahangirin oğlu Sarimsakın başçılığı altında mübarizə aparırlar. Baş verən hadisələri qələmə alan Ç.Vəlixanov «Çin imperiyasının qərb vilayətləri» əsərində diyarın iqtisadiyyatı və ticarəti, Mərkəzi Asiya və Çinin digər xalqı-dunqanlar haqqında məlumat verir.

Ç.Vəlixanovun Kaşqar vilayətinə səyahətinə keçməzdən əvvəl ona qədər Şərqi Türküstana gedən və onun barəsində öz qeydlərində məlumat verən rus adamlarının səyahətləri haqında qısa məlumat vermək yerinə düşərdi. Rusiyanın müxtəlif təbəqələrindən olan peşə sahiblərini yaxın qonşuları olan Mərkəzi Asya, Qazaxıstan və Şərqi Türküstan diyarı daim maraqlandırmışdı. Rusiyanın Çinlə diplomatik və ticarət əlaqələrinin yaradılması Çin və onun mülkləri haqqında rus adamlarının təsəvvür və baxışlarının zənginləşməsinə səbəb olurdu. Lakin XVII əsrin II yarısında Çinin mancurlar tərəfindən işğalı bu iki dövlət arasında sıx əlaqələrin inkişafına mane olmağa başladı. Çinlə Rusiya arasında bağlanmış ikitərəfli müqavilələrə əsasən mancurların rus tacirlərinin Çinə, Çin tacirlərinin Rusiyaya sərbəst getmələrini qadağan etməsi vəziyyəti bir az da kəskinləşdirmişdi.

Məlumdur ki, XIX əsrin ortalarına kimi bu dövlət arasında ticarət yolu demək olar ki, bağlı idi. Yalnız bəzi iş adamlarının qısa müddətli səfərləri baş tuturdu. XVIII əsrin 20-ci illərində: 1722-1724-cü illərdə kapitan Tvan Unkovskinn başçılıq etdiyi rus səfirliyi nümayəndələri İli diyarının Sunqar və Xun Taysi vilayətinə getmək imkanına nail olmuşdular. Unkovski yol jurnalı və xəritə tərtib etmiş, beləliklə vilayətlərin coğrafiyasının öyrənilməsinin əsası qoyulmuşdu.

Təxminən 50 il sonra kazak atamanı Qriqori Voloşan 1771-ci ildə xəritə tərtib edib Ust Kamenoqorskdan Kulca vilayətinə, Konnekti-Ayaquz-Lepsi-Aksu-İli xətti boyunca hərəkət edərək məqsədinə nail olmuşdu. Lakin onun tərtib etdiyi xəritə 100 ildən sonra çətinliklə tapılmışdı.

XVIII əsrin 70-ci illərində Filipp Yefremov Sintsizyan vilayətinə getmək imkanı əldə edir. Sıravi əsgər olan Filipp döyüşlərin birində əsir alınıb Buxaraya satılmış, oradan isə Fərqanə və Terek-davan yolu ilə qaçaraq Kaşqara gəlib çıxmışdı. Bacarıqlı, həmçinin elmə marağı olan Filipp özbək dilni sərbəst öyrənmiş və yerli əhali ilə əlaqə yaratmışdı. O, 500 il ondan əvvəl Kaşqar vilayətinə gəlmiş böyük italyan səyyahı və alimi Marko Polonun səyahətidən sonra ilk rus və avropalı adam idi ki, Kaşqara gəlmişdi. XVIII əsrin 70-ci illərində Kaşqara gələn Yefremov Kaşqar, Aksu və Yarkənddə, sonra isə Kui-Lun və Qaraqorumu keçib Hindistana getmiş, oradan gəmi ilə İngiltərəyə gəlib çıxmış, nəhayət, 9 il sonra Rusiyaya qayıtmışdı. O, öz yol qeydlərini 1886-cı ildə çapdan çıxmış «Səyahətnamə» əsərində təsvir etmişdi.

XVIII əsrin 90-cı illərində dağ mədən ustası Sneqiryov Şərqi Türküstanın Tarbaqatay vilayətinin Çuquçak şəhəri yaxınlığındakı qızıl çöküntüsünü yoxlamaq məqsədilə gəlmiş, vilayətin faydalı qazıntıları haqqında xeyli məlumat əldə etmişdi. Onun bu məlumatı 1801-ci ildə Rusiya Elmlər Akademiyası Xəbərlərində dərc olunmuşdu.

Sneqiryovdan 10 il sonra tərcüməçi M. Putinsev ticarət karvanı tərkibində Asiya taciri sifəti ilə Şərqi Qazaxıstanın Buxtarmin qalasından yola düşüb Çuquçak və Kulcaya gəlmiş və keçdiyi yolun təsvirini rus hökumətinə təqdim etmişdi. 1819-cu ildə nəşr edilən qeydlərində Mərkəzi Asiya, Qazaxıstan və Şərqi Türküstan xalqları, ilk növbədə uyğur, dunqan, kalmık, qazax və b. haqqında, diyarın vergi sistemi və həyatına dair maraqlı məlumatlar verilmişdi.

1825-ci ildə Yeddisudan gələn həkim-əczaçı Zibbirşteynə Şərqi Türküstanın iqtisadiyyatı və ticarəti haqqında məlumat toplamaq, həmçinin ticarət imkanlarını öyrənmək tapşırılır. 1825-ci ildə eyni məqsədilə buraya N. Lyubimov adlı iş adamı göndərilmişdi.

XIX əsrin 50-ci illərində Şərqi Türüküstana (Sintsizyana) görkəmli rus tədqiqatçısı, səyyahı və böyük coğrafiya alimi P.P.

Semyonovun (Tyan-Şanskinin) tələbəsi Çokan Vəlixanov göndərilmişdi.

Bəllidir ki, Mərkəzi Asiyanın qədim xalqlarından olan uyğurlar çox əsirlik tarix boyu zəngin mənəvi-mədəniyyət yaratmalarına baxmayaraq XIX əsrin ortalarına kimi bu zəngin irs haqqında dünya elmində aydın təsəvvür yox idi. Uyğurşunaslıq elminin ilkinlərindən olan qazax alimi Ç.Vəlixanov bu xalqın Kulca vilayətində və İli çayı boyunda yaşayan qədim xalq olduğunu qeyd etmişdi. Uyğur ədəbiyyatının və yeni uyğur ədəbi dilinin ilk tədqiqatçılarından olan Ç.Vəlixanov orta əsrlər uğur ədəbiyyatının abidələri hesab olunan «Kutadqu bilik», Mahmud Kaşqarinin «Divani lüğət-ət türk», uyğur ədəbiyyat tarixinin böyük xadimləri olan kaşqarlı Məhəmməd Emin Xoca Qulinin (Hirkitinin) «Məhəbbət və əmək», XVII əsrin sonu XVIII əsrin əvvəllərinin görkəmli türkmən lirik şairi Yarkəndli Sadıq Zəlilinin, habelə, XVIII əsr uyğur ədəbiyyatını ölməz dastanları və qəzəlləri ilə bəzəyən Xotanlı Nəbati, Kaşqarlı Əbdürrəhim İnzarı, XIX əsrin I yarısının görkəmli uyğur şairi Molla Şakir, inqilabçı şairlər Sadıq Puluan, Vilal-Nazim və b. yaradıcılığını dərindən öyrənən Ç.Vəlixanov milli uyğur dili və ədəbiyyatına, musiqisinə xüsusi maraq göstərmişdi.

Ç.Vəlixanovun bütövlükdə elm üçün, o cümlədən uyğurşunaslıq və şərqşünaslıq elmi üçün böyük xidmətlərini yüksək qiymətləndirmiş şərqşünas alim, prof. Qriqoryev yazırdı: «Görünür avropalılar Şərqi Türküstanda həzə uzun müddət sərbəst müşahdələr aparmaq imkanına malik olmayacaqlar». Ç.Vəlixanovun elmi nəticələrinə toxunan V.Qriqoryev «…nə Berns, nə də Uatlı Şərqi Türküstanda olmamışlar. Onların bilikləri yalnız Şərqi Türküstandan olan tacirlər, ziyarətçilər, Bombeydə və Buxarada rast gədikləri adamlardan, Şərqi Türküstan haqqında əldə etdikləri məlumatlardan ibarətdir. Ç.Vəlixanovun isə topladığı zəngin materiallarla müqayisədə avropalıların bu məlumatları çox səhti və sönük görünür». Ç.Vəlixanovun əsərlərinə ümumi qiymət verən görkəmli rus şərqşünası A.N.Bernştam yazırdı: «Çokan Vəlixanovun apardığı müşahidələr tarixi və et-

noqrafik xarakteri etibarilə dərinliyi və zəruriliyi ilə rus dilinə çevrilmiş indiyə qədər ki, bütün əsərləri kölgədə qoyur». Doğma aulunda xəstə yatdığı zaman belə uyğur ədəbiyyatını, tarixini, xüsusən Abel Remyuzun «Xotan uyğur şəhərinin tarixi» ni öyrənir. Xəstəliyinin şiddətləndiyi dövrdə siyasi hadisələrə xüsusi maraq göstərən Ç.Vəlixanov 1862-ci ildə İli vilayətində baş verən dunqan üsyanına uyğurların da qoşulduğundan xəbər tutmuşdu. Onun Qərbi Sibir general-qubernatoru Q.A. Kalpakovski ilə ardıcıl olaraq üsyanın gedişi haqqında məlumat əldə etməsi bir daha sübut edir ki, Ç.Vəlixanov Şərqi Türküstan hadisələrinə xüsusi maraq göstərirdi.

Fikirlərimizi yekunlaşdıraq. Ç.Vəlixanov öz siyasi baxışlarına görə Rusiyaya meyl etmiş, Qazaxıstan və Mərkəzi Asiyanın rus hakimiyyəti altında birləşdirilməsi tərəfdarı olmuşdu. Mirzə Fətəli Axundov, İlya Çavçavadze, Taras Şevçenko, Ç.Vəlixanov və bu kimi maarifçi şəxslər Rusiya ilə əməkdaşlığa və onun hakimiyyəti altında birləşmə tərəfdarı idilər. Lakin bu o demək deyildir ki, onlar öz vətənlərinin taleyinə biganə qalmışlar. Bəhs edilən dövrdə iri dövlətlər ararsında gedən mübarizədə milli ucqarların xalqları iki yoldan birini tutmalı idilər. Ç.Vəlixanov da bu mövqe tuturdu. O, Rusiyanı öz vətəni, qazax çölünü özünə ana vətən hesab edirdi. Onun öz vətəninə və xalqına olan məhəbbəti ilə bərabər qazax xalqının gələcəyini Rusiyasız təsəvvür etməməsi şübhəsiz ki, onun fəaliyyətində qüsurlu hal kimi qəbul olunmamalıdır. Həyatının son illərində özünü fiziki, həm də mənəvi cəhətdən zəif hiss etməsi düşmüş olduğu vəziyyətdən obyektiv çıxış yolu tapmaması ilə əlaqədar idi.

İctimai-siyasi baxışlarında müəyyən qüsurlara və tərəddüdlərə baxmayaraq Ç.Vəlixanov görkəmli alim idi. O, öz əsərləri ilə rus və dünya tarixində şərqşünaslıq elmindəki boşluğu dolduran, Şərqi Türküstan, Qazaxıstan və Mərkəzi Asiya tarixində «ağ ləkələr»i azaldan elm adamı olmuşdu.

ƏDƏBİYYAT

Azərbaycan dilində

1. Azərbaycan tarixi. 7 cilddə,III c., Bakı, 1999
2. Əmir Teymurun vəsiyyətləri. Bakı, 1991
3. Həbiboğlu Vəli. Türk dünyasının qüdrətli hökmdarları, xaqanları, sərkərdələri (birinci kitab). Bakı, 1995
4. Huseyn Cavid. Topal Teymur. Bakı, 2000
5. Məmmədov P., Piriyev V. Teymurləngin Əlincə səfəri. Bakı, 1977
6. Vamberi German. Əmir Teymur. Bakı, 1991

Rus dilində

7. Абу-л-фазл Бейхаки. История Масуда. Ташкент, 1962
8. Абдурасулов А. Социальная утопия Абу Насра аль-Фараби. Ташкент, 1976
9. Аль-Фараби. Социально-политические трактаты. Ташкент, 1973
10. Аль-Фараби Абу Наср Мухаммед. История-философские трактаты. Алма-Ата. М., 1935
11. Аль-Фараби. О разуме и науке. Алма-Ата. 1975
12. Аль-Фараби. Гражданская политика. Ташкент, 1983
13. Аль-Фараби. Научное творчество. М., 1975
14. Ализаде А.А. Социально-экономическая и политическа история Азербайджана XIII-XIV вв. Баку, 1956
15. Бартольд В.В. Туркестан в эпоху монгольского нашествия. Избр. соч. т.2, М., 1963
16. Бартольд В.В. О погребении Тимура. Соч.т.2,ч.2.М., 1964
17. Бартольд В.В. Культура мусульманство. М., 1926
18. Бартоьлд В.В. Улугбек и его время. Соч. т.2, ч.2.М., 1964
19. Бируни-великий узбекский ученый средневековья. Ташкент, 1950
20. Бируни. К 1000 летию со дня рождения. Ташкент, 1973

21. Булкагов Р.Г. Жизнь и труды Бируни. Ташкент, 1972
22. Булгаков Р.Г. Из истории формирование естественно-научных идей в Средневековый Хорасан и Средней Азии. Общ. Науки в Узбекистане. Ташкент, 1974
23. Бородин С.Р. Собр. соч. в 6-ти томах, т.3. Звезды Самаркандом. Ташкент 1973
24. Вагман Илья и др. 100 знаменитый польководец. Харков, 2004
25. Великие властители о романах Тамерлан. М., 1977
26. Гафуров Б.Г., Касымжанов А.Х. Аль-Фараби в истории культуры. М, 1975
27. Гатцук В. Железный хромец. М., 1914
28. Гияседдин А. Дневник Тимура в Индию. М., 1958
29. Гегель Г.В. Лекции по истории философии. Соч. М-Л., 1935
30. Голубев Т.Н. Улугбек – узбекский астроном (1394-1449). М., 1960
31. Давыдович Е.А. Улугбек как государственный деятель: оценка В.В.Бартольда и опыт новой интерпретации. «Бартольдские чтения». Тезисы. М., 1974
32. Давыдович Е.А. Материалы для характеристики денежные реформы Улугбека. В кн: «Из истории эпохи Улугбека». Ташкент, 1965
33.Джахид А. Ученье Абу Наср аль-Фараби о государстве. Ташкент, 1968
34. Из истории эпохи Улугбека. Ташкент, 1965
35. Из истории науки Улугбека. Сбор. стат. Ташкент, 1979
36. Ирисов. Хорезми и Фарабий. Ташкент 1961
37. История Самарканда. Т.1,Ташкент, 1967
38. История Узбекской ССР. Т.1, Кн.1.Ташкент, 1955
39. История Узбекистана. Т. 1, Ташкент, 1967
40. История философия в СССР. Т.1, М., 1968
41. Кары-Ниязов Т.М. Астрономическая школа Улугбека. Ташкент, 1967
42. Касымжанов А.Х. Абу Наср аль-Фараби. М., 1982
43. Крачковский И.Ю, Гомериаль – Бируни. Избр. соч. М-Л., 1956
44. Крачковский И.Ю. Арабская географическая литература. Избр. соч. т.4, М-Л., 1957

45. Крачковский И.Ю. Аль-Бируни и восточные географы XII вв. Арабская географическая литература. Избр. соч.т.4, М-Л., 1957

46. Крымский А. История арабов. М., 1912

47. Кодльман Э. Аль-Фергани и Аль-Фараби выдающиеся ученые IX-X вв. В кн: Великие достижения Среднеазиатской культуры. Алма-Ата, 1842

48. Материалы по истории прогрессивной общественно-философской мысли в Узбекистане. Ташкент, 1957

49. Муминов И.М. К вопросам истории развития общественно-философской мысли в Узбекистане. Смарканд, 1954

50. Муминов И.М. Из истории развития общественно-философской мысли в Узбекистане. Ташкент, 1976

51. Муминов И.М. Роль и место Тимура в истории Средней Азии. Ташкент, 1965

52. Низами Арузи Самарканди. «Собрание редкостей» или «Четыре беседы» М., 1963

53. Муминов И.М. Велиий энсиклопедист из Хорезма (К 1000 летию со дня рождения). М., 1974

54. Новоселцев А.Р. Об исторической оценке Тимура. // Вопросы и истории, 1973, № 2

55. Пайков Т.И. Великие ученые Узбекистана IX-XI вв. Ташкент, 1943

56. Проблемы истории и теории мировой культуры. М., 1974

57. Садыков А.У. «Политика» Абу Наср аль-Фараби. М. 1974

58. Соколов В.В. Очерки философии эпохи возрождения. М., 1961

59. Тахиров Мумин. Педагогические взгляды Мирзы Улугбека. Ташкент, 1984

60. Тамерлан. Эпоха, жизнь, деяние. М., 2002

61. Тимофеев И.В. Бируни М., 1986

62. Толстов С.Р. По следам древнехорезмской цивилизации. М-Л , 1948

63. Уотт У.М. Влияние ислама на средневековую Европу. М., 1976

64. Уложение Тимура. Ташкент, 1968

65. Хайруллаев М.М. Фараби крупнейший мыслитель средневековье. Ташкент, 1973

66. Хайруллаев М.М. О восточном Ренессансе // Гулистан, 1979, № 8

67. Хайруллаев М.М. Абу Наср аль-Фараби (873-950). М., 1982

68. Чехович О.Д. К вопросы о воспитателье Улугбека. В кн: «Из истории эпохи Улугбека».Ташкент, 1965

69. Шарипов А. Великий мыслитель Абу-Рейхан Бируни. Ташкент, 1972

71. Юлдашев С. Идельное обшество о представлении Абу Насра аль-Фараби и Мухаммед Икбала // Общественные науки в Узбекистане. 1973, №6

72. Якубовский А.Ю. Тимур (опыт краткой характеристики) // Вопросы истории, 1946, № 8-9

MÜNDƏRİCAT

Ön söz 3

BİRİNCİ FƏSİL. ƏBU-NƏSR ƏL-FƏRABİNİN (873-950)
İCTİMAİ-SİYASİ VƏ TARİXİ GÖRÜŞLƏRİ
1.1. Əl-Fərabi irsnin tədqiqi tarixindən 5
1.2. Əl-Fərabinin dövrü, ictimai-siyasi mühit. 7
1.3. Əl-Fərabinin həyatı və yaradıcılığı 10
1.4. Əl-Fərabinin ictimai-siyasi baxışları.
Onun cəmiyyət və dövlət haqqında ideyaları 21

İKİNCİ FƏSİL. ƏBU-REYHAN ƏL-BİRUNİNİN
İCTİMAİ-SİYASİ VƏ TARİXİ BAXIŞLARI
2.1. Əbu-Reyhan əl-Biruninin (973 -1048) dövrü,
yaşadığı ictimai-siyasi həyat və mədəni mühit 29
2.2. Əl-Biruninin həyat və yaradıcılığı 33
2.3. Biruninin humanitar irsi, ictimai-siyasi baxışları 41

ÜÇÜNCÜ FƏSİL. ƏMİR TEYMUR (1336 -1405):
DÖVRÜ, HƏYATI VƏ FƏALİYYƏTİ

3.1. Teymurun siyasi hakimiyyətə gəlməsinə qədər
Mavərənnəhrdə sosial-iqtisadi, ictimai-siyasi vəziyyət
(XIV əsrin 30-60-cı illəri) 58
3.1.1. Mavərənnəhrdə ictimai-siyasi və sosial-iqtisadi həyat 58
3.1.2. Əmir Teymurun siyasi hakimiyyətə gəlməsi 68
3.1.3. Teymurun Qızıl Orda hakimiyyətinə qarş hərbi
əməliyyatları. 70
3.1.4. Teymurun şəxsiyyəti, hərbi qaydaları, dini etiqadı,
maarifçilik və himayədarlıq sahəsində xidmətləri. 73
3.2. Teymurun yürüşləri 75
3.2.1. Teymurun İran səfəri və onun nəticələri 81
3.2.2. Teymurun Kiçik Asiya, Yaxın və Orta Şərq ölkələrinə
yürüşü. Teymurun Hindistan səfəri və Çinə hücum planları..... 82

DÖRDÜNCÜ FƏSİL. MƏHƏMMƏD TARAQAY ULUĞBƏY (1394-1449) DÖVRÜ, HƏYATI və FƏALİYYƏTİ
4.1. XIV əsrin sonu-XV əsrin əvvəllərində Mavərənəhrdə sosial-iqtisadi və ictimai-siyasi vəziyyət 88
4.2. Uluqbəyin həyatı və uşaqlıq illəri 89
4.3. Uluqbəy hökmdar kimi 96
4.4. Uluqbəy XV əsrin görkəmli alimi, marifçisi və şairidir 105
4.4.1. Uluqbəyin pedaqoji görüşləri 109
4.4.2. Uluqbəyin «Tarixi ərbəulus» (Dörd ulusun tarixi») əsəri 109

BEŞİNCİ FƏSİL. ÇOKAN VƏLİXANOV (1835-1865)
5.1. Çokan Vəlixanovun ictimai-siyasi və tarixi görüşləri 115
5.2. Ç.Vəlixanov ictimai-siyasi xadim kimi. Dünyagörüşünün formalaşması mərhələləri.....117
5.2.1. Uşaqlıq və gənclik illəri 117
5.2.3. Çokan Vəlixanovun inqilabi-demokratik görüşləri və cəmiyyəti yeniləşdirmək ideyaları.....125

Ədəbiyyat 143

Çapa imzalanıb: 25.09.2010.
Format: 60x84 1/16. Qarnitur: Times.
Həcmi: 9,25 ç.v. Tiraj: 300. Sifariş № 85.
Qiyməti müqavilə ilə.

MÜTƏRCİM

TƏRCÜMƏ
VƏ NƏŞRİYYAT-POLİQRAFİYA
MƏRKƏZİ

Az 1014, Bakı, Rəsul Rza küç., 125
596 21 44; 497 06 25; (055) 715 63 99
e-mail: mutarjim@mail.ru